İCMALLAR - ОБЗОРЫ

YARDIMCI REPRODUKTIV TEXNOLOGIYA ILƏ ASSOSIASIYA OLUNMUŞ PERINATAL RISKLƏR

N.A.Sədiyeva
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: yardımçı reproduktiv texnologiya, yenidoğulmuş, perinatal dövr
Ключевые слова: вспомогательные репродуктивные технологии(ВРТ), новорожденный, перинатальный период
Key words: assisted reproductive technology, newborn infant, perinatal outcome

Ailə və uşaq insan həyatının ayrılmaz, əlaqəli və son dərəcə vacib hissələridir. Son əsr ailələrdə sonsuzluq böyük və ciddi problemə çevrilmişdir[1]. Ədəbiyyat qaynaqlarına əsasən qadın sonsuzluğu-41%, kişi sonsuzluğu-24% ,müştərək sonsuzluq-24% və izah olunmayan səbəblərdən yaranan sonsuzluq-11% halda qeyd olunur. Müxtəlif mənbələrdə bu rəqəmlər müxtəlifliyi ilə diqqəti cəlb edir[2].

Sonsuzluq probleminin həlli ilk növbədə əhalinin reproduktiv sağlamlığının qiymətləndirmə və qorunması yollarının geniş tətbiq olunmasını tələb edir.

Son illər dünyada və ölkəmizdə sonsuzluğun müxtəlif formalarının diaqnostikası və müalicəsi nəzərə çarpan dərəcədə inkişafla xarakterizə olunur. Yardımcı reproduktiv texnologiya(YRT) – sonsuzluğun müalicəsinin daha effektli müasir üsuludur[3]. Ildən ilə dünyanın müxtəlif ölkələrində eləcə də ölkəmizdə YRT köməyi ilə dünyaya göz açan körpələrin sayı artır. Azərbaycanda YRT ilk dəfə 2004-cü ildə Respublika Ailə Planlaşdırılması Mərkəzində-"İVF-Center" klinikasında tətbiq edilmişdir. İlk YRT körpəsi ET Mamalıq-Ginekologiya institutunda 2005-ci ilin fevral ayında dünyaya gəlmişdir [20].

Müasir dövrdə yardımçı reproduktiv texnologiyaların inkişafı sonsuzluq probleminin həllində əvəzolunmaz müalicə üsulu sayılır[4]. YRT sonsuzluğun müasir və nisbətən cavan müalicə üsuludur. YRT- laboratoriya şəraitində yumurtahüceyrə və spermatozoidin idarə edilməsi ilə mayalanmanın təmin edildiyi üsulları özündə birləşdirir. Artıq dünyada bu üsulla doğulmuş körpələrin sayı 1 milyondan çoxdur və müasir dövrdə inkişaf etmiş ölkələrdə bütün hamiləliklərin 1-4%-ini süni mayalanma ilə baş vermiş hamiləliklər təşkil edir [5].

YRT bir neçə üsulla aparılır. Bu üsullara ekstrakorporal mayalanma(EKM), spermatozoidin sitoplazmadaxili inyeksiyası(SSDİ), embrio kulturası, implantasiya önü genedik diaqnostika(İÖGD), təzə və donmuş embrion köçürülməsi və donor yumurtahüceyrə ilə EKM aiddir. EKM(İVF)-zamanı əvvəlcədən toplanmış qametlər hazırlanır, laborator şəraitdə mayalandırılır, 48-72 saat inkubasiyadan sonra embrionlar transfer edilir. İlk dəfə ekstrakorporal mayalanma üsulu 1978-ci ildə İngiltərədə Steploe P. və Edvards R. tərəfindən tətbiq olunmuşdur. Uzun müddətli tədqiqatlar nəticəsində 25 iyul 1978-ci ildə ilk körpə - Luiza Braun dünyaya gəlmişdir[6]. Bu gün Luizanın 35 yaşı var və artıq sağlam körpə dünyaya gətirib, böyüdür. Ekstrakorporal mayalanma üsulu sonsuzluq probleminin həllində və ailə planlaşdırılmasında öz sözünü dedi. Öncə milyonlarla ailələrə sevinc bəxş olundu.

Son illər YRT sahəsində əhəmiyyətli inkişaf baş vermişdir. Embrionların dondurulması, daha invaziv üsul olan SSDİ, EKM-dən fərqli olaraq baş verən hamiləlik şansını artırmışdır. Spermanın sitoplazmadaxili inyeksiyası(İCSİ) ilk dəfə 1992-ci ildə əsasən kişi sonsuzluğunu aradan qaldırmaq üçün təkmilləşdirilmiş yardımçı reproduktiv üsuldur və o vaxtdan minlərlə körpə bu üsulun köməyilə dünyaya göz açmışdır[7]. EKM-dən fərqli olaraq SSDİ(İCSİ) şüşə bir pipet yardımı ilə spermatozoidin yumurtahüceyrənin işərisinə mexaniki yeridilməsidir. Bu səbəbdən bu üsulun xromosomlara zərər verərək anadangəlmə inkişaf qüsuru(AİQ) riskini artırıb artırmadığı mövzusuna maraq hər gün artmaqdadır. SSDİ üsulu ilə spermatozoidin oositin daxilinə yeridilməsi onun hüceyrə membranının zədələnməsi ilə müşahidə olunur, nəticədə bu fiziki zədənin həm oositə,həm də embrionun inkişafına təsiri danılmazdır. Eyni zamanda spermatozoidin keyfiyyəti də tədqiqatçıların diqqətindən yayınmamışdır[8]. Belə ki, kişi sonsuzluğunun bir çox ağır formaları (spermanın üçlü defekti-az konsentrasiyalı, hərəkətsizliyi və morfologiyasının pozulması) zamanı yardımçı reproduktiv texnologiyada yeganə spermatozoidin sitoplazma daxili yeridilməsi üsulu tətbiq edilmişdir[9]. Belə ki,təbii mayalanma zamanı oositin baryerini keçməyi "yaxşıların yaxşısı" bacardığı halda, süni mayalanma zamanı

isə spermatozoidlərin seçimini bu proseduru həyata keçirən mütəxxəssis vizual olaraq "normal görünən" spermatozoidi seçməklə aparır.

YRT ilə doğulmuş körpələrin böyük əksəriyyətinin normal və sağlam olmasına baxmayaraq, müasir dövrdə bu körpələrin sağlamlıq vəziyyətlərinin təbii mayalanma ilə doğulan uşaqlarla müqayisədə daha çox risk altında olduğu düşünülür. Bunun bir çox səbəbləri vardır.YRT zamanı çoxdöllü hamiləliklərin yüksək tezliyi, vaxtından qabaq doğulma və bətndaxili inkişaf ləngiməsi ilə əlaqədar perinatal xəstələnmə və ölüm göstəricisi artır[10]. Digər tərəfdən reproduktiv qabiliyyəti aşağı olan valideynlərin bioloji və genetik xüsusiyyətləri körpələr üçün risk daşıyır. Bundan başqa sonsuzluq müalicəsi məqsədilə istifadə olunan dərman preparatları və invaziv üsullar döldə və yenidoğulmuşda əhəmiyyətli problemlərə səbəb ola bilir[11].

Ədəbiyyat məlumatları göstərir ki, təbii mayalanma ilə doğulan uşaqlarla müqayisədə YRT ilə doğulan uşaqlar arasında AİQ rastgəlmə tezliyinə dair tədqiqatların nəticələri müxtəlifdir[7]. Bu müxtəliflik tədqiqatlara daxil edilən xəstələrin sayının az olması, müqayisə apararkən istifadə olunan məlumatların və inkişaf qüsurlarını müəyyənləşdirən meyarların standart olmaması ilə əlaqədar metodlara bağlı amillərlə izah olunur.

Ədəbiyyatda SSDİ üsulu ilə doğulan körpələrlə təbii mayalanma ilə doğulan körpələr arasında AİQ rastgəlmə tezliyinin müqayisəsinə əsasən aparılan tədqiqatda SSDİ ilə doğulanlar arasında AİQ daha çox rast gəlindiyi, hətta xromosom anoploidisinin daha sıx rast gəlinməsinə diqqət çəkilir[7]. Kox və əməkdaşlarının apardığı tədqiqatda SSDİ ilə doğulmuş Angelman sindromlu iki xəstə təsvir edilərək bu üsulun oosit və preembrio mərhələsində maternal impritingə səbəb ola biləcəyi fikri irəli sürülür[12]. Digər bir tədqiqatda SSDİ ilə doğulan körpələr arasında sinir borusunun qüsurunun, qida borusu atreziyasının, omfalosele və hipospadiyanın daha çox rast gəlindiyi bildirilir[13].

Finlandiyada aparılan 4559 EKM, 4467 diğər YRT üsulu ilə doğulmuş körpələrin və 27,078 kontrol körpənin daxil edildiyi bir tədqiqatda, anadangəlmə inkişaf qüsuru riski üçün OR 1.3 (%95 GA 1.1- 1.6) aşkar edilmişdir. Bu riskin təkdöllü hamiləliklərdən doğulmuş oğlanlarda artdığı, çoxdöllü hamiləliklərdən doğulmuş qızlarda isə azaldığı bildirilmişdir. EKM üsulunun köməyilə təkdöllü hamiləliklərdən doğulmuş oğlanlarda sidik-cinsiyyət və sümük-əzələ sistemi anomaliyalarına daha çox rast gəlinmişdir. YRT köməyilə doğulan körpələr arasında ən çox hipospadias və diğər sidik-cinsiyyət sistemi anomaliyaları, sinir borusu defektləri, gastrointestinal anomaliyalar, sümük-əzələ sistemi anomaliyaları və ürək-damar anomaliyaları ilə əlaqə aşkar edilmişdir [21]. Tədqiqatda EKM və SSDİ ilə doğulan körpələr arasında AİQ rastgəlmə tezliyi ilə əlaqədar fərq olmadığı bildirilir. Danimarkada aparılan başqa bir tədqiqatda sonsuzluqdan əziyyət çəkən cütlərin təbii və ya YRT nəticəsində təkdöllü hamiləliklərindən doğulan körpələrində sağlam cütlərin təbii mayalanma ilə doğulan körpələrilə müqayisədə AİQ rastgəlmə tezliyi daha yüksək olmuşdur. Lakin tədqiqatda həmçinin sonsuzluqdan əziyyət çəkən cütlərin təbii və ya YRT nəticəsində təkdöllü hamiləliklərindən doğulan körpələri arasında AİQ rastgəlmə tezliyində fərq olmadığı da bildirlir[22].

YRT tətbiq olunmağa başlayandan çoxsaylı embrion transplantasiyaları ilə əlaqədar çoxdöllü hamiləlik və doğumların sayı artmışdır. Bunun əsas səbəbi YRT-nın nailiyyətinin göstəricisi kimi diri doğulanların sayının qiymətləndirilməsi səbəbi ilə həyata keçirilən çoxsaylı embrion transferləri və bunların doğuşa qədər sağ qalmalarıdır[14,15]. Çoxdöllü hamiləlik və bunun nəticəsi olan vaxtından qabaq doğulma YRT ilə baş vermiş hamiləliklərin proqnozuna mənfi təsir edən amillərdir.YRT hamiləliklərinin 30%-dən çoxu əkiz və ya daha yüksək saylı çoxdöllü hamiləliklərdir.YRT ilə baş verən hamiləliklərdə monoziqot,monoxorionik əkizlərin sayı təbii mayalanma ilə baş verən hamiləliklərlə müqayisədə yüksəkdir. Belə ki,monoziqot əkizlərin rastgəlmə tezliyi təbii mayalanma zamanı 0,45%,YRT-da isə 1,5-4,5%-dir[16,19].YRT-da əkiz hamiləlik riski normadan 22 dəfə(normada 2%),üçəm və daha çox saylı döllülük riski isə 50 dəfə(normada 0,18%) artmışdır. Ekstrakorporal mayalanma(EKM) və spermanın sitoplazmadaxili inyeksiyası(SDSİ) nəticəsində çoxdöllü hamiləliklərin sayının Avropada 22,7%, ABŞ-da 31,7% olduğu bildirilir. ABŞ-da doğulan bütün körpələrin 0,9%-nin YRT nəticəsində doğulduğu,bütün əkizlərin 12%-nin, üçəmlərin 42%-nin YRT körpələri olduğu bildirilir[17,18]. Digər tərəfdən təbii mayalanma ilə lakin sonsuzluq müalicələrindən sonra baş verən hamiləliklər və ya qadınların ana olmağı gec yaşlara təxirə salması da çoxdöllü hamiləlik sayını artırmışdır. Bununla yanaşı ailə istəyi də çoxdöllü hamiləlikləri artıran amillərdən biridir. Belə ki,YRT tətbiq olunan ailələrə çoxdöllü hamiləliklərin riskləri izah edilsə də,ailələrin 20%-i çoxdöllü hamiləlik nəticəsində körpə sahibi olma arzusundadırlar[16].

Çoxdöllü hamiləliklərin təbii və ya YRT nəticəsində baş verməsindən asılı olmayaraq maternal(hipertenziya və preeklampsiya, hestasional diabet, anemiya, dölyanı mayenin çox olması, antepartum və postpartum qanaxma,keysəriyyə əməliyyatı ilə doğum),

uşaqlıq-cift(cift gəlişi, ciftin erkən ayrılması, dölyanı suların vaxtından əvvəl axması, göbək ciyəsinin dolanması), fetal və neonatal (vaxtından qabaq doğulma, az bədən kütləsi, anadangəlmə inkişaf qüsurları, xəstələnmə və sağqalanlar arasında sinir-psixi inkişaf pozğunluqları) problemlər mövcuddur. Ədəbiyyatda YRT ilə baş verən çoxdöllü hamiləliklər zamanı qadınlarda cift gəlişi, antepartum qanaxma, hestasional diabet və preeklampsiya kimi perinatal fəsadların və buna baqlı olaraq vaxtından qabaq doğulmanın çox rast gəlindiyi bildirilir[19].

YRT köməyi ilə baş vermiş çoxdöllü hamiləliklərin perinatal xəstəlik və ölüm göstəricisini artırmasına baxmayaraq, çoxdöllü hamiləliklərin qarşısının alınması da qeyri-qənaətbəxş perinatal prognoz riskini azaltmaqda tək başına yetərli deyildir. Ədəbiyyatda bir çox metanalizdə YRT nəticəsində təkdöllü hamiləliklərdən doğulmuş körpələrdə təbii mayalanma ilə təkdöllü hamiləliklərdən doğulmuş körpələrə nisbətən vaxtından qabaq doğulma, az və ekstremal az bədən kütləsi ilə doğulma, hestasiya yaşına görə kiçik olma (BDİL), yenidoğan reanimasiya və intensiv terapiya şöbələrində izlənmə, neonatal xəstəlik və fəsad riskinin daha yüksək olduğu göstərilmişdir. Burada maraqlı bir məqam bu perinatal fəsadların YRT təkdöllülərində əkizlərlə müqayisədə daha çox rast gəlinməsidir [11].

Təkdöllü EKM/SSDİ körpələrinin proqnozunu müəyyənləşdirən amillərdən biri də fetal ölümdür (multifetal hamiləlik reduksiyası). Ədəbiyyat məlumatlarından bilirik ki, bətndaxili VI həftədə, XX həftədə fetuslardan birinin ölməsi nəticəsində əkizlik təkdöllülüyə çevrilir.Tədqiqatların birində spontan fetal reduksiyanın yüksək olduğu YRT çoxdöllü hamiləliklərində (əkizlərdə 35%,üçəmlərdə 52%), spontan fetal reduksiya sonrası qalan təkdöllü və əkiz döllərin hestasiya yaşı və bədən kütləsi reduksiyaya uğramamış körpələrlə müqayisədə daha aşağı olduğu göstərilir [14].

Son illər dünyada və ölkəmizdə sonsuzluğun müalicəsi məqsədilə əvəzolunmaz YRT üsullarının daha invaziv formalarının tətbiqinin artması, reproduktiv qabiliyyəti aşağı olan valideynlərin bioloji və genetik xüsusiyyətləri, sonsuzluq müalicəsi məqsədilə istifadə olunan dərman preparatlarının körpələr üçün risk daşıması, çoxdöllü hamiləlik sayının artması YRT körpələrinin sağlamlıq vəziyyətinin öyrənilməsini aktual edir. Təbii mayalanma prosesinə müdaxilə və insan embrionları ilə manipulyasiya gələcək nəslin genetik əsasını dəyişə bilər və heç bir mürəkkəb testin vasitəsilə təyin olunmaz. YRT ilə doğulan uşaqların fiziki və əqli inkişafının obyektiv qiymətləndirilməsi üçün vahid bir sistem işlənməlidir. YRT üsullarının nə dərəcədə effektiv və zərərli olmaları davamlı olaraq tədqiq olunmalı,doğulan uşaqlar isə uzun müddət nəzarətdə saxlanılmalıdırlar.

ƏDƏBIYYAT

1. Dhont M., De Neubourg F., Van der Elst J., De Sutter P. Perinatal outcome of Pregnancies after Assisted Reproduction: A Case – Control Study // Obstetrics and Gynecology, 2004, v.103, p. 1144-1153.
2. National Center for Health Statistics: Growth Chart Information // Health for all Series, Geneva, 2000, № 1, pp. 111 112.
3. Qneteskaya V.A.,Malmberq O.L.,Panina O.B.,Lukash E.N.;Akusherstvo ginekoloqiya,2003,2,s.9-13
4. Poikkeus P., Gissler M., Unkila- Kallio L., Hyden-Grauskog C., Tiitinen A. Obstetric and neonatal outcome after single embryotransfer // Human Reprod., 2007, vol. 4, pp. 0268-1161.
5. Бахтиарова В.О. Состояние здоровья детей, рожденных в результате ЭКО и искусственной инсеминации. Автореф. дисс…канд. мед наук. М., 1993, 25 с.
6. Oboro V.O., Dare F.O. Pregnancy outcome in melliparous women aged 35 or older // West Afr. J. Med., 2006, vol. 25, pp. 65-68.
7. Hansen M, Kurinczuk J.J., Bower C., Webb S. The riskof major birth defects after intracytoplasmic sperminjection and in vitro fertilization // N Engl J Med., 2002, v.346, p.725-730.
8. Leslie G.I., Gibson F.L. Sperm quality as a predicter of child healh and development in children conceived using ICSI // Human reproduction, 2001, vol. 16, pp. 38-39.
9. Palermo D.G., Neri Q.V., Hariprasha J.J. ICSI and its outcome // Semin. Reproduction Med., 2000, v.18, p. 161-169.
10. Adamson D., Baker V. Multiple births from assisted reproductive technologies. A challange that must be met // Fertil Steril., 2004, v.81, p.517-22.
11. Basatemur E, Sutcliffe A. Follow-up of children born after ART. Placenta 2008; 29:135-40.
12. Cox G.F., Burger J., Lip V. et al. Intracytoplasmic sperm injection may increase the risk of imprinting defects // Am J Hum Genet., 2002, v.71, p.162-164.
13. Racowsky C. Improving quality in the embryology laboratory, a USA perspective. Boston, USA, 2004.
14. Halliday J. Outcomes of IVF conceptions: are they different? // Best Prac Res Clin Obstet Gynecol., 2007, v.21, p.67-81.
15. Van Voorhis B.J. Outcomes from assisted reproductive technology // ObstetGynecol, 2006, v.107, p.183-200.
16. Adamson D., Baker V. Multiple births from assisted reproductive technologies. A challange that must be met // Fertil Steril., 2004, v.81, p.517-22.
17. Wright V.C., Schieve L.A., Reynolds M.A., Jeng G. Assisted reproductive technology surveillance-United

States, 2000. http://www.cdc.gov/mmwr/preview/mmwrhtml/ss5209 a1.htm>

18. Reynolds M.A., Schieve L.A., Martin J.A. et al Trends in multiple births conceived using assisted reproductive technology, United States, 1997-2000 // Pediatrics, 2003, v.111, p.1159-62.

19. Reddy U.M., Wapner R.J., Rebar R.W., Tasca R.J. Infertility, assisted reproductive tecnology, and adverse pregnancy outcomes: executive summary of a National Institute of Child Health and Human Development Workshop // Obstet Gynecol., 2007, v.109, p.967-77.

20. Əliyeva F.K., Səlimxanova X.X., Məmmədova A.Y. "Yarina "preparatının müalicə üçün tətbiqi(praktik tövsiyyələr), Bakı, 2005, s.5(274)

21. Klemetti R., Gissler M., Sevon T. et al Children born after assisted fertilization have an increased rate of major congenital anomalies // Fertil Steril, 2005, v.84, p.1300-7.

22. Zhu J.L., Basso O., Obel C. Et al Infertility, inferti- lity treatment, and congenital malformations: danish nati- oanal birth cohort // BMJ, 2006, v.333, p.679.

Резюме

Перинатльные рпскип ассоциированные вспомагательными репродуктивными технологиями

Н.А.Садиева

Более 30 лет как используются вспомогательные репродуктивные технологии (ВРТ) и на современном этапе они составляют 1-4% от всех беременностей. С началом применения ВРТ возросло число многоплодных беременностей, что связано с самой технологией трансплантации нескольких эмбрионов. Ранее эффективность ВРТ оценивалась только лишь количеством живорождённых детей, однако при этом не учитывались ранние и поздние прогнозы состояния здоровья этих детей. В перинатальном периоде у этих детей в сравнении с детьми, рождёнными от беременности, наступившей естественным путём, более часто наблюдается отягощенный акушерский анамнез, недоношенность и рождение с низкой массой тела, врождённые пороки развития. Предполагается, что на состояние здоровья этих детей оказывают влияние такие факторы, как продолжительность и причины бесплодия, методы ВРТ, криопрезервация и (или) фетальная редукция эмбрионов. Для рождения здорового ребёнка с медицинской, социальной и экономической точки зрения, основной целью ВРТ является трансплантация единого эмбриона.

Summary

Perinatal risks associated with assisted reproductive technology

N.A. Sadiyeva

Assisted reproductive technology (ART) has been available to treat infertility of women and men for almost 30 years and currently accounts for 1-4% of all conceptions in the developed countries Since ART was introduced, there has been an increase in multiple births directly attributable to multiple embryo transplants and their survival to live birth as the frequent measure of success of any ART centre has been the number of live births, irrespective of early and late outcomes of the infants. Although the great majority of ART children are normal, there are increased risks of obstetric complications, prematurity, low birth weight and congenital malformations when compared to natural gestations. There is slightly incresed risk of congenital malformations in ART infants when compared with naturally conceived infants.However the effects of other important con- founders for the adverse outcome such as the obstetric history, underlying cause of infertility, male infer tility and the type of ART procedure are unclear. So the goal of ART should be the birth of healthy singleton neonates rather than an increase in pregnancy rates alone.

Daxil olub:19.11.2012

YARIMÇIQ DOĞULMUŞ VƏ EKSTREMAL AZ ÇƏKILI UŞAQLARIN QIDALANDIRMA XÜSUSIYYƏTLƏRI VƏ QIDA RASIONUN TƏRKIBI

S.A.Əliyeva

Elmi- tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: yarımçıq doğulmuş uşaqlar, ekstremal az çəkili uşaqlar, qida rasionu, qidalandırma

Ключевые слова: недоношенные дети, экстремально маловесные дети, ***рацион***, вскармливание.

Keywords: preterm infants, extremely small babies, rftsion, feeding.

XX əsr ərzində körpələrin qidalandırlımasına yanaşmada nəzərəçarpacaq dəyişikliklər baş vermişdir. Əsas mərhələ yarımçıq doğulmuşların energetik tələbatının ödənilməsindən ibarət olmuşdur, ana südünün tərkibini dəyişərək yeni qida məhsullarının yaradılması, yarımçıq doğulmuşlar üçün xüsusi qida qarışıqlarının işlənib hazırlanması və yaradılmasından ibarət idi. XX əsrin əvvələrində Grulee (1912) təkidlə bildiri: "yarımçıq doğulmuş uşaqların qidalandırılması üçün bir vasitə var, bu da ana südüdür. Belə uşaqları istənilən başqa vasitə ilə qidalandırılması cəhdləri uğursuzluqla sona yetəcək. Əgər belə bir qida vasitəsi yaradılarsa, bunu insan fəaliyytinin adi nəticəsi kimi deyil, fövqəladə bir hadisə kimi qiymətləndirmək lazımdır" [1]. XX əsrin əvvəllərində yarımçıq doğulmuş uşaqlara qulluğun aparılması ilkin mərhələdə idi. Bu zaman erkən qidalandırma prinsipi tətbiq olunurdu, yəni uşaq anadan olan kimi dərhal qidalandırılır. Bu prinsipi S. Tanier və onun tələbəsi P. Budin Parisdə L' Hopital Maternite xəstəxanasında tətbiq edilmişdir. Mamalıqla məşğul olan bu mütəxəssislər faktiki olaraq yarımçıq doğulanlara qulluğun və onların

qidalandırılmasının əsasını qoyanlardan biri olmuşlar.

Yarımçlq doğulmuşların qidalandırılmasının təşklili onların anadan olduqları gündən vaxtlı-vaxtında və adekvat olaraq qidalı maddələr və enerji ilə təmin olunmasına əsaslanır. Onlara qulluqda əsas məsələ qidalı maddələrin verilməsinə ciddi yanaşmadan ibarətdir [2,3,4]. Vaxtında başlayan və balanslaşdırılan qidalandırma adaptasiya dövrünü asanlaşdırmağa və gələcəkdə bir sıra xəstəlilklərin, eləcə də bronxial- ağ ciyər displaziyasının yaranma riskini azaltmağa imkan verir.

Klinik təcrübədən məlum olduğu kimi əksər analarda vaxtından əvvəl doğuşlardan sonra hipoqalaktiz baş verir və bu proses uşaqlarda əmmə refleksinin olmaması nəticəsində daha da ağırlaşır. Nəticədə laktasiya tamamailə baş vermir. Bununla əlaqədar olaraq yarımçıq doğulmuşlar üçün əlavə qida qarışıqları yaradılmışdir. Dərin yarımçıq və ekstremal az çəkili doğulmuş uşaqlar üçün xüsusi qida maddələri istehsal edilir. Standart qidalarla müqayisədə onlarda zülal 2,2 q/100 ml), natrium (1,5 mekv/100 ml), klsium (150 mq/100 ml), fosfor (80 mq/100 ml) və vitaminlər daha yüksək olur. 1980- ci ildən dərin yarımçıq və ekstremal az çəkili doğulmuş uşaqlar üçün qidanın xüsusi istehsalı bərqərar olunmuşdur. 1980- ci illərdə aparılan silsilə tədqiqatlarda yarımçıq doğulanlar üçün qida vasitələrinin onların böyüməsinə və metabolik statusuna müsbət təsir göstərdiyi məlum olmuşdur [*5,6*]. Onların tərkibində xüsusi vücib nutrientlərin olmasına xüsusi dpqqət yetirilmişdir [*7,8*]. Müsir qidaların tərkibində zülal komponentlərinin tərkibiniə daha çox həcmdə zərdab zülalı daxil edilmişdir (60%- dən çox). Bu xüsusi nukleotidlər somatik artıma və immun sistemə müsbt təsir göstərir. Nukleotidlər uşaq orqanizmində müxtəlif biosintez proseslərində iştirak edir. Müəyyən şəritdə yarımçıq doğulmuşlar üçün qida ilə alınan sərbəst nukleotidlər böyük rol oynayır [*9*]. Nukleotidlər bağırsaq epiteli hüceyrələrinin inkişafında müsbət rol oynayır, bağırsaq liflərinin formalaşmasına imkan verir, bununla da qida maddələrinin həzm olunmasını stimullaşdırır [10,11].

Dərin yarımçıq doğulmuşların lazimi qida maddələri ilə təmin olunması kifayət qədər çətin məsələdir. ABŞ- da aparılan epidemioloji tədqiqatlardan məlum olmuşdur ki, 16% yarımçıq doğulmuşlarda bətndaxili hipotrofiya əlamətləri olur. Lakin stasionardan buraxıldıqda bu əlamtlər 89% uşaqlarda qeydə alınır [12].

Yarımçıq doğulmuşların qidalandırılmasının əsas prinsipləri aşağıdakılardır:

-uşaq doğulduqda vəziyyətinin ağırlığı, çəkisi, hestasion dövr nəzərə alınmaqla qidalandırma üsulunun seçilməsi;

-hansı üsulun seşilməsindən asılı olmayaraq erkən qidalandırmaya başlanması (mütləq uşaq anadn olduqdan 2-3 saat sonra, ağır hallarda 10-12 saatdan sonra da başlamaq olar);

-tam parenteral qidalandırma olsa da, minimal enteral qidalanmaya keçid;

-enteral qidalanmanı maksimal mümkün həcmdə aparmaq

-ana südü alan dərin yarımçıq doğulmuş uşaqların didalanmasını "gücləndirici" vasitlər ilə tamamlaqma, erkən neonatal dpvrdə onlara dərin zülal hohidroliz əsasında hazırlanmış qidaların verilməsi;

-süni qidalandırma zamanı yalnız yarımşıq doğulmuşlar üçün nəzərdə tutlumuş qidalardan istifadə etmək.

Yarımçıq doğulmuşların qidalandırılması təyin olunduqda həzm sisteminin səciyyəvi xüsusiyyərləi nəzərə alınmalıdır [13,14]:

-əmmə və udma refleksinin aşağı olması, eləcə də həzm borusu sfinkterinin və mədənin tonus vəziyyətdə olması

-motorikin hopkinetik vəziyyəti;

- bağırsaq peptidazını daha yüksək aktivliyi zamanı mədə və pankreatik proteaz aktivliyinin daha aşağı olması (vaxtında doğulmuş uşaqlardan fərqli olaraq);

-zülalin daha yüksək dərəcədə sovrulması və həzm olunması;

-pankreatik lipazanın və disaxaridazln aşağı aktivliyi (xüsusuilə, laktaza);

-karbohidrat və yağların həzm çatışmamazlığı (birbaşa olaraq hestasion dövrdən asılı)

-makromolekullar üçün bağırsaq baryeri nüfuzetməsinin yüksək olması;

-disbiotik pozuntalrın yüksək dərəcədə olması.

Uşaq anadan olduqdan sonra əsas məsələ enteral qidalandırmadır. Qidalı maddərlərin mədə-bağırsaq traktına daxil olması onun motor funksiyası və sekretor aktivliyi üçün güclü stimuldur. Təyin olunmuşdur ki, qidan hətta minimal həcmdə verildikdə belə (4ml/kq/sut) bağırsağa eyni stimullaşdırıcı təsir göstərir [15,16].

Mərkəzi sinir sisteminin ağır zədələnmələri və infeksion proseslər zamanı həzm traktının aktivliyi 1,5 dəfə azalır. Uşaq 1 aya çatdıqda onun tədricən bərpası baş verir [17].

Vaxtından əvvəl doğulmuşların qidalandırma üsulları: 1500-200 q çəkisi olan uşaqların qidalandırılması (hestasiya müddəti30-33 həftə). Bu uşaqların çəkisi normal doğulmuş uşaqların orta ağırlıq dərəcəsinə uyğundur. Onlara sınaq qidalandırılması aparılır. Əgər əmmə qeyri-

qənaətbəxş olarsa, onların tam və ya hissə- hissə zondla qidalandırıması başlanır.

1001-1550 q bədən çəkisi olan uşaqların qidalandırılma üsulları: hissə- hissə parenteral qidalandırlma+ uzun müddətli zondla infuziya.

Bədən çəkisi 1000 q- dan aşağı olan uşaqların didalandırılması: tam parenteral qidalandırlma+ "trofik" qidalandırrma. Hissə- hissə parenteral qidalandırma+uzun müddətli zondla infuziya [17].

Dərin yarımçıq doğulmuş uşaqlar zodla qidalandırlır. Zondla qidalandırma porsiyalarla və ya uzun müddətli infuziyanın köməkliyi ilə aparıla bilər. Porsiyalarla qidalandırmanın tezliyi uşağın dözümlüyündən asılı olaraq sutkada 7-10 dəfə ola bilər. Dərin yarımçıq doğulmuş uşaqların mədəsinin çox kiçik olduğunu nəzərə alsaq onlar, xüsusilə, erkən neonatal dövrdə zondla qidalandırmada lazımi qədər nutrientlər almırlar. Bu isə onların parenteral qidalandırmaya keçməsini tələb eidr. Uzun müddətli infuziyanın aparılmasının müxtəlif metodları vardır [17].

Cədvəl 1

Ana südünün və ya qida qarşığının uzun müddətli infuziya ilə verilməsi sxemi

Daimi sürətlə fsailəsiz olaraq yeridilmə	1 saat fasilə ilə üçsaatlıq infuziya	1 saat fasilə ilə dördsaatlıq infuziya
Fasiləsiz	• 6 - 9 saat • 10 - 13 saat • 14 - 17 saat • 18 - 21 saat • 22 - 01 saat Beşsaatlıq gecə fasiləsi	• 6 - 8 saat • 10 - 12 saat • 14 - 16 saat • 18 - 20 saat • 22 - 24 saat Altıssatlıq gecə fasiləsi

Gecə fasilələri zamanı lazınm gəldikdə qlükoza məhlulu ilə Ringer məhlulu yeridilir. Südün ilkin yeridilmə sürəti 1,5-3ml/kq/saat ola bilər. Tədricən sürət artırılaraq 6-7- ci sutkalarda 7 - 9ml/kq/saat ola bilər. Belə qidalandırma porsiyalarla qidalandırmaya nisbətən dərin yarımçıq doğulmuş uşaqları iri həcmli qida ilə təmin edə bilər.

Ana südünün və ya süd qarışıqlarının prosiyalarla qidalandırmaya nisbətən uzun müddətli zondla qidalandırmanın üstünlükləri:

-enteral qidalandırmanın həcmi artır;

-mübadilə proseslərinin katabolik istiqaməti qısalır;

-həcmin artırılması və ya bir sıra hallarda parenteral qidalandırmanın tam ixtisar edilməsi mümkündür;

-mədə- bağırsaq traktlnda durğunluq vəziyyətinin azalması;

-konyuqasion sarılığın intensivliyinin müddətinin azalması;

-qanda qlükazonın daim səviyyəsinin təmin olunması;

-qidalandırma əlaqıdar olaraq yaranan qusma və tənəffüs pozuntularını tezliyinin aşağı düşməsi [18,19].

Əgər uşağın vəziyyətinin ağırlığı enteral qidalandırmaya imkan vermirsə, qidalı maddələrin parenteral yeridilməsinə başlamaq lazımdır. Dərin yarımçıq doğulma tam parenteral qidalandırmaya keçid üçün göstəriş deyildir, çünki bəzi hətta ekstremal az bədən çəkisi (1000 q- dan aşağı) olan uşaqlar ana südünün və ya xüsusi süd qarışıqlarını həzm etməyə qadır olurlar. Onları ilk günlər hissə-hissə parenteral qidalandırma ilə təmin etmək olar. Hissə- hissə parenteral qidalandırma üçün qarışıq məhlul fərdi olaraq seçilir və uşaqlarda enteral qidalandırmaya tolerantlıq artıdca parenteral qidalandırma ixtisara salınır. Ana südünün və ya xüsusi qidaların zoqastral zondla yeridilməsinə uşaq anadan olduqdan 12-488 saat sonra keçmək olar. Qidanın ilkin həcmi 5-10 ml/kq/sut olmalıdır. Infuzion nasoslarla infuzion qifdalandırmaya daha çox üstünlük verilir. Qidanın yavaş- yavaş və uzun müddət yeridilməsi ikili qidalandırmadam fərqli olaraq bağırsaq perestaltikasını stimullaşdırır [19,20].

Yarımçıq doğulmuş uşaqların qaida maddələrinə olan tələbatı. Enegetik tələbat. Enerji itgisi nəzərə alınaraq onların tələbatı həyatlarının ilk iki həftəsində 120 kkal/kq/sut təşkil edir. Dərun yarımçıq doəulmuşların qidalarının kaloriliyi tədricən və gündəlik artırılmalıdır (Cədvəl 2).

Cədvəl 2

Yarımçıq doğulmuşların enerji tələbatı

Sutkalar	1	2	3	4	5	6	7	10-14
Kkal/kq	25-30	40	50	60	70	80	90	100-120

Yarımçıq doğulmuşlara qida ölçüsü yalnız kalorilik dərəcəsinə əsasən aparılmalıdır. Süni qidalandırma zamanı isə qida ölşüsü energetik dəyərinə əsasən aparılmalıdır. Dərin yarımçıq doğulmuşlarda rasionun kaloriliyinin aşağı

salınmasına uşaq çatdıqdan sonra başlamaq olar [21].

Zülal tələbatı. Hətta dərin yarımçıq doğulmuş uşaqlar zülalı yaxşı həzm edir. Beynəlxalq tövsiyələrə əsasən vaxtından əvvəl doğulmuş uşaqlar 3,8-3,0 q/kq/sut zülal ala bilər. Çünki dölün bətndaxili zülal ilə təmin olunması 2,8-3,1 q/kq/sut təşkil edir. 4 q/kq/sut – dan artıq zülalın verilməsi qabarıq metabolik pozuntulara səbəb ola bilər. Məlum olmuşdur ki, hestasion dpvr az olduqca onların zülala olan tələbatı yüksək olur [22].

Yağlara tələbat. Yarımşıq doğulmuş uşaqlar üçün optomal sutkada 6 - 6,5 q/kq yaşın qəbul edilməsidir. Yağın həzm olunmasını asanlaşdırmaq üçün süni qidalara ortazəncirli triqliseridlər əlavə olunur, onlar limfatik düyünlərə toxunmadan əvvəlcədən parçalanmadan vena girişi sisteminə sovrulur. Lakin 50%- dən çox ortazəncirli triqliseridlər əlavə olunması yağlar mübadiləsini yaxşılaşdırmır, əksinə onların dəri altında yağ toxumalarının yaranmasına səbəb olur. Daha məqsəduyğun onların xüsusi qida məhsullarına 15-40% daxil edilməsidir [22].

Karbohidratlara tələbat. Hesab edilir ki, yarımçıq doğulmuşlar qida üsulundan asılı olmayaraq 10-14 q/kq karbohidrat qəbur etməlidirlər. Hestasiyanın 28-34- cü həftələrundə laktozanın aktivlik dərəcəsi normal doğulmuşlara nisbətən 30% aşağı olur. Bu isə onun yarımçıq doğulmuşlar tərəfindən həzm olunmasını çətinləşdirir. Lakin yarımçıq doğulmuşlar üçün xarakterik olan hipolaktaza hallarına nadir hallarda rast gəlinir. Vaxtından əvvəl doğulmuşlarda 1 ay arzında laktazanın aktivliyi sürətlə artır. Karbohidratların yaxşı həzm olunması üçün xüsusi qidalara laktozanın bir hissəsi (15-30%)- dekstrin-maltoza ilə əvəz olunmuşdur[22].

Yarımçıq doğulumuşlaırn ana südü ilə qidalandırılması. Vaxtından əvvəl doğuşlardan ana südü xüsusi tərkibə malik olur. Bu südün tərkibi vaxtından əvvəl doğulmuşların qida tələbatına və həzm etmə qabiliyyətinə uyğun olur. Vaxtında doğmuş qadınlardan fərqli bu analarda südün tərkibində zülal daha çox olur (100 ml-ml- də 1,2-1,6q). Xüsusilə laktisayanın ilki aylarında yağların, natriumun tərkibi, laktozanın tərkibi, karbohidratların tərkibi isə eyni olur. Vaxtından əvvəl doğmuş qadınların südündə müdafiə faktroları, xüsusilə lizosim yüksək olur. Ana südü vaxtından əvvəl doğulumuşlar tərəfindən yaxşı həzm olunur [23].

Xüsusi tərkibinə baxmayaraq 800-200 q- dan çox çəkisi olan vaxtından əvvəl doğulmuşlara nisbətən ekstremal az çəkisi olan uşaqların tələbatını tam ödəyə bilmir və erkən neonatal dövr bitdikdə onlarda zülal, bir sıra maddələr (kalsium, fosfor, maqnium, natrium, mis, sink və sə) və vitaminlər (B_2, B_6, C, O, E, K və fol turşusu) qıtlığı baş verir. bu zaman həmin uşaqların qida rasionuna "gücləndiricilər" əlavə edilir. Bunlar xüsusi zülal-mineral və ya zülal- vitamin- mineral birləşmələrdən ibarətdir. Gücləndricilər toz şəklində paketlərə toplanaraq, təlimata uyğun olaraq təzə sıxılmış ana südünə 50 və ya 100 ml əlavə edilir [24].

Başqa bir vasitə onların qida rasionuna yüksək hidrolizə olunmuş zərdab zülallarından ibarət xüsusi qarışıqların əlavə edilməsidir. Onların daxilinə ortazəncirli triqliseridlər daxil edilir, lakin tərkibinə laktoza daxil edilmir. Onlar ana südündə olmayan qida maddələrin üzvi olaraq tamamlayır. Bu qidalar ekstremal çəkili uşaqlar tərəfindən yaxşı həzm olunur [24]. Zərdab zülalının hidrolizatlarının ana südü ilə qidalanan uşaqların rasionuna 30% daxil edilməsi kifayətdir. Belə qidalabdırmaya dərin yarımçıq doğulmuş uşaqların qidalandırılmasında xüusuilə, üstünlük verilməlidir. Lakin zərdab zülalının hidrolizatlarına əsaslanan qidalanma üzün müddət aparılmamalıdır. Velə uşaqlarda qidalanma sabitləşdikdən sonra onlarına rasoinuna xüsusi süni qidalar daxil edilməlidir. Belə uşaqlar üçün ən vacib komponent mineral maddələridir.

Süni qidalandırma. Vaxtından əvvəl doğulmuşlara süni qidalandırmaya göstəriş tam ana südü və ya donor südü olmadıqda təyin olunur. Yarımçıq doğulmuşların qida rasionuna yalnız vaxtından əvvəl doğulmuşlar üçün nəzərdə tutulan sünu qidalar daxil edilməlidir. Onların qidalılıq dərəcəsi standart adaptasiya olunmuş qidalara nisbətən daha yüksək olur. Bu qidaların daxilinə üzünzəncirli yarımzənginləşdirilmiş yağ turşuları, nukleotidlər və oluqosaxaridlər daxil eidlir [12, 13].

Vaxtında doğulmuş uşaqlar üçün nəzərdə tutlan süni qidalar "arıq kütlə"nin daha ləng böyüməsinə, boyun ləng artmsaına səbəb olur (artım yalnız yağ toxumaları hessabına baş verir). yarımçıq doğulmuşların qidasına soyalı qidaları da daxil etmək tövsiyə olunmur, çünki ondakı maddələrin və mineralların həzmi çətinliklə baş verir.

Yarımçıq doğulmuşların tədricən standart qidalara keçirilməlidirilər. Xüsusi qidaların istifadə müddəti onun tərkibindəki zülalımn həcmindən asılıdır. Əgər zülalın çəkisi 100 ml-də 2,2 qramdırsa, ondan uşaqğın 2500 q-a çatana qədər istifadə etmək olar. Sonra tədricən standart qidalara keşmək olar, lakin xüsusi qida tamamilə rasiondan çıxarılmır. Daha bir neçə ay onun verilməsinə davam etmək lazımdır. Süni qidaların verilməsi müddəti hestasiyanın dövründən də asılıdır. Dərin yarımçıq doğulmuşların qidasinda xüsusi qidalar 6-9 aya qədər verilməlidir.

Yarımçıq doğulmuşların parenteral qidalandırılması. Enteral qidalandırma mümkün olmadıqda (həzm borusunun atreziyası, xoralı-

nekrotik enterokolit) və ya onun həcmi yarımçıq doğulmuş uşağın metabolik tələbatlarını təmin edə bilmədikdə parenteral qidalandırmaya keçmək tövsiyə olunur [25].

Beləliklə, yarımçıq doğulumşu uşağın qidası təyin olunduqda həkimin qarşısında sual durur: yetişməmiş körpəni nə ilə, nə zaman və necə qidalandırmaq. Öz tarıxını 100 ildən bundan əvvəl götürmüş bu problemə yanaşama hazırda münasibət köklü şəkildə dəyişmişdir. Hazırda yarımçıq doğulmuş uşaqların parenteral və zondla qidalandırılmasının yeni prinsipləri işlənib hazırlanmışdır. Vaxtından əvvəl doğuşdan sonra anada laktasiyanı saxlamaq mümkün olduqda onların qidalanmasına gücləndiricilər daxil edilir. Gücləndiricilərdən istifadə etmək mümkün olmadıqda yarımçıq doğulmuşları üçün xüsusi süni qidalardan istifadə olunur.

Beləliklə, yarımçıq doğulmuşların rasional qidalandırılması- onların anatomik- fizioloji xüsusiyyətlərinin dərindən öyrənilməsinə əsaslanırş bu zaman onların mübadilə proseslərini xüsusiyyətləri və perinatal patologiyaları nəzərə alınmalı, eləcə də bu qida rasionunu müasir qida teznologiyaları əsasında qurulmalıdır.

ЛИТЕРАТУРА

1. Grulee CG. Infant feeding. Philadelphia: W.B.Saunders, 1912
2. Скворцова В.А. Алгоритмы вскармливания недоношенных детей: Автореф. дис. ...д-ра мед. наук. М., 2002. 41 с.
3. Скворцова В.А., Боровик Т.Э., Яцык Г.В. и др. Вскармливание недоношенных детей //Лечащий врач. 2006, № 2, с. 64-68.
4. Нетребенко О. К. Некоторые эссенциальные микронутриенты в питании недоношенных детей. М., 2004. 136 с.
5. Dusik A.M., Poindexter B.B.., Ehenkranz R.A. et al. Growwth failure in the preterm infant: can we catch up? //Semin.Perinatol., 2003, v.27 (4), p.302-310.
6. Яцык Г.В. Особенности пищеварительной системы у недоношенных детей: Автореф. дис. ... д-ра мед. наук. М., 1980. 32 с.
7. Сударова О.А. Моторно-эвакуаторная функция желудка у недоношенных детей при различных видах вскармливания: Автореф. дис. ... канд. мед. наук. М., 1985. 23 с.
8. Berseth C.L. Effect of early feedings on maturation of the pretem infant`s small intestine // J.Pediatr., 1992, v. 120, p. 947-953.
9. Owners L., Burrin D., Berseth C.L. Enteral nutrion has a dose-response effecton maturation of neonatal canine motor activity / Gastroenterology, 1996, v.110, p. 828
10. Садырбаева З.С. Особенности липидного обмена у недоношенных детей при различных видах вскармливания: Автореф. дис. ... канд. мед. наук. М., 1982. 23 с.
11. Micheli J.L., Fawer C.L., Schutz Y. Protein requriment of the extremely low birthweight preterm infant / 43-rd Nestle Nutrition Workshop. Nutrition of the Very Low Birth Weight Infant. Warsaw, 1998, 30 p.
12. Lucas A. Clinical Nutrition of the Young Child. Feeding the preterm infants. New York, 1991, p. 311-355.
13. Koletzko B. Long chain polyunsaturated fatty acids in the diets of premature infants // Polyunsaturated fatty acids in human nutrition. Nestle Nutrition Workshop Series, 1992, v.28, p. 135- 142
14. Скворцова В.А., Боровик Т.Э., Лукоянова О.Л. и др. Современные тенденции проблемы вскармливания недоношенных детей //Вопр. совр. Педиатрии, 2005, № 2, с. 80-84
15. Lucas A. Nutrition, growth and development of postdischarge preterm infants. In: Posthospital nutrition in the preterm infant / Report of the 106th Ross Conference on Pediatric Research. 1996, p. 81-89
16. Lucas A., Fewtrell M.S., Morley R. et. Al Randomyzed trial of nutrient-enriched formula versus standard formula for post discchrge preterm infants // Pediatr., 2001, v.108 (3), p.703-711
17. Грибакин С.Г., Казакова С.Н., Андреева А.В. Значение нуклеотидов в питании детей грудного возраста // Вопр. Практ педиатрии, 2006, №1, с.70–74
18. Грибакин С.Г. Вскармливание недоношенных детей: история и современность // Педиатрия, 2009, №1, с.109-114
19. Mihatsch W.A., von Schoenach P., Dehne N. et al.Randomized multicenter trial of two different formulas for very early enteral feeding advanced in extremely-low birthweight infants // J. Pediatr. Gastroenterol. Nutr., 2001, v.33 (2), p.155–159.
20. Грибакин С.Г., Казакова С.Н., Андреева А.В. Значение нуклеотидов в питании детей грудного возраста //Вопр. практ. Педиатрии, 2006, №1, с.70–74
21. Leach J.L., Baxter J.H., Molitor B.E. et al. Total potentially available nucleosides of humans milk by stage of lactation // Am. J. Clin. Nutr., 1995, v.61, p.1224–1230
22. Carver J.D., Walker W.A. The role of nucleotides in human nutrition // Nutr. Biochem., 1995, v.6, p.58–72
23. Sellmayer A., Kolezko B. Long-chain polyunsaturated fatty acids and eicosanoids in infants — physiological and pathophysiological aspects and open questions // Lipids, 1999, v.34 (2), p.199–205
24. Скворцова В.А., Боровик Т.Э., Лукоянова О.Л. и др. Современные тенденции проблемы вскармливания недоношенных детей // Вопр. совр. Педиатрии, 2005, №2, с. 80-86
25. Пруткин М.Е. Протокол парентерального питания в практике отделения интенсивной терапии новорожденны // Вестник интенсивной терапии, 2004, №3

Резюме

Особенности вскармливания и состав питательного рациона глубоко недоношенных и экстремально маловесных детей

С.А.Алиева

При назначении питания недоношенному ребенку перед врачом стоят три непростых вопроса: чем, когда и как кормить такого незрелого младенца? История неонатальной нутрициологии насчитывает около 100 лет. За это время кардинально изменились подходы и возможности вскармливания преждевременно родившихся детей. Для детей, находящихся в критическом состоянии, разработаны принципы парентерального и зондового питания. В тех случаях, когда у матери после преждевременных родов удается сохранить лактацию, оправданным подходом является использование так называемых обогатителей ГМ. В тех же случаях, когда вскармливание ГМ не представляется возможным, важную роль играют «наукоемкие» продукты детского питания — специальные смеси для НД. Таким образом, рациональное вскармливание недоношенных детей базируется на знании их анатомо - физиологических особенностей, с учетом обменных процессов и наличия перинатальной патологии, а также строится на основе современных диетологических технологий.

Summary

The features feeding and nutrient composition of the diet extremely premature and extremely small babies

S.S.Aliyeva

During appointing premature baby to the doctor, there are three difficult questions: what, when and how to feed such an immature child? History Neonatal Nutrition has about 100 years. During this time, radically change the approach and the possibility of feeding premature babies. For children who are in critical condition, principles of parenteral and enteral nutrition. In cases where the mother after preterm birth can maintain lactation justifiable approach is to use so-called dressers GM. In those cases where the GM feeding is not possible, an important role is played by "knowledge-based" baby food - special mix for ND. Thus rational feeding premature babies is based on knowledge of their anatomy - physiology, including metabolism and the presence of perinatal pathology, and is based on modern nutritional technology.

Daxil olub:04.12.2012

ДИАГНОСТИКА И ЛЕЧЕНИЕ ТРУБНО-ПЕРИТОНЕАЛЬНОГО БЕСПЛОДИЯ

Н.Н.Ахундова

Научно Исследовательский Институт Акушерства и Гинекологии, г.Баку

Açar sözlər: boru- peritoneal sonsuzluq, diaqnostika, müalicə

Ключевые слова: трубно- перитонеальное бесплодие, диагностика, лечение

Keywords: tubal-peritoneal infertility, diagnosis, treatment

Проблема своевременной диагностики, установления этиологии сальпингитов, выявление изменении в иммунной и эндокринной системах во многом затрудняются особенностями современного течения воспалительного процесса - множественность источников инфекции, снижение значения в патогенезе хронического сальпингоофорита первичного возбудителя воспалительного процесса усилением роли частого вторичного инфицирования, первично хроническое течение заболевания со скудной клинической симптоматикой и выраженными анатомическими изменениями в очаге поражения [24,27]. В целях диагностики анатомического и функционального состояния маточных, труб при бесплодии используется ряд способов не столько конкурирующих, сколько дополняющих друг друга, которые различаются степенью инвазивности и информативности [5,9].

Наибольшее распространение в настоящее время получили методы контрастная ультразвуковая гистеросальпингография, гистеросальпингографии (лапараскопическая хромосальпингография, радиоизотопное исследование проходимости труб [1.2,3,4]. Перспективными методами, позволяющими в значительной степени уточнить состояние маточной трубы не только при наружном осмотре, но и оценить выраженность изменений (спайки, складки слизистой) непосредственно внутри трубы, являются сальпингоскопия, про водимая при лапароскопии, трансцервикальная фаллоскопия, селективная сальпингография и чрескатетерная реканализация труб [5.6,8,9,19,20,21.,22,23,24]. ГСГ позволяет получить информацию об анатомии маточной трубы маточной и перитубарной патологии. Метод впервые предложен М.И.Неменовым и получил широкое распространение в гинекологической практике [9,11]. Проходимость маточных труб устанавливается по попаданию рентген контрастного вещества в брюшную полость. ГСГ позволяет оценить размеры полости матки, рельеф слизистой оболочки, расположение, длину, ширину и контуры труб, признаки попадания контрастного вещества в брюшную полость и его расположения в ней (размазывание, осумкование и др.). С целью усовершенствования рентгенологического

метода были предложены рентгенокимография, кинорентгенография, рентгенотелевизионная ГСГ [14,15], рентгенофункциональная ГСГ с видеозаписью. Однако ГСГ имеет ряд недостатков, не позволяющих ограничиться её использованием в целях оценки проходимости маточных труб [4,9,12,13,14]. Так, временная блокада прохождения в интерстициальной части трубы может быть результатом слизистой пробки, фибринного сгустка или отёка слизистой, спазма или анатомического сужения. Возможны как ложноотрицательные результаты ГСГ так и ложноположительные. Одним из более совершенных рентгеновских методов является селективная сальпингография, про изводимая после, чрескатетерная реканализация маточных труб, выполняемые' с целью диагностики и лечения проксимальной обструкции. Недостаточная точность ГСГ, особенно при оценке проксимальной части трубы, стала, ещё более очевидной со времени появления лапароскопии. Так, по данным Stabile I.[36], только в 58% случаев эндоскопическое исследование подтвердило заключение ГСГ об отсутствии значительных изменений слизистой маточных труб у пациенток обследовавшихся для микрохирургических вмешательств. В 42% наблюдений выявлены значительные повреждения слизистой.

Таким образом, результаты использования рентгенологических методов для оценки проходимости труб и состояния слизистой оболочки во многих случаях являются ошибочными. Это затрудняет выбор дальнейшей тактики лечения и снижает его эффективность. С целью визуализации просвета труб, особенно, проксимального отдела, в последнее время предложен метод трансцервикальной фаллоскопии [34]. Сущность метода заключается в трансцервикальной катетеризации устьев маточных труб и визуальном осмотре их проксимальных отделов. Трансвагинальная трубная катетеризация выполняется с помощью гистероскопических, ультразвуковых, тактильных или фаллоскопических методов. Фаллоскопический метод (использование направляемого фаллоскопа с помощью миниатюрных инверсионных катетеров) отличается от других тем, что позволяет визуально подтвердить катетеризацию трубы и идентифицировать интралюминарную патологию. Однако этот метод пока применяется, ограниченно, т.к. требует дорогостоящего оборудования и позволяет оценить лишь проксимальнй отдел трубы. Несовпадение результатов ГСГ и фаллоскопии в 23-25% случаев, высокая информативность, этого метода для оценки проксимального отдела труб и возможность его лечебного применения позволили Stabile I. et. al. [36] рекомендовать обязательное использование метода при трубном бесплодии. Для оценки состояния устьев маточных труб и эндометрия может использоваться диагностическая гистероскопия.

Целесообразность использования этого метода подтверждается данными Т.Я.Пшеничниковой и [3] и тем, что при гистероскопии у пациенток с бесплодием часто обнаруживают патологию эндометрия (в половине случаев на опыте 8 000 гистероскопий). Т.Я.Пшеничникова [3] выявила у 16,2% пациенток с трубным фактором бесплодия очаговую гиперплазию эндометрия, у 13,8% полипы эндометрия. Попытки удалить их без контроля гистероскопии в большинстве случаев оказывались неудачными. Исследования [9] также подтверждают значение гистероскопий в диагностике бесплодия. Возможность использовать лапароскопию для оценки состояния маточных труб и их проходимости появилась после усовершенствования метода, предложенного Д.О. Оттом. В развитие метода большой вклад внесли как отечественные [5,15,38] и другие, так и зарубежные учёные [39,40,41,42]. Сегодня лапароскопия играет важную роль в обследовании больных, страдающих бесплодием, так как позволяет не только визуально обследовать органы малого таза, но и оценить проходимость маточных труб, состояние их стенки, мышечную активность, подвижность труб и фимбрий [3,15,16,17,38]. Информативность лапароскопии в данной случае является максимальной, учитывая возможности современной техники не только увидеть, но и осуществить запись изображения на видеопленку, что позволяет в дальнейшем проводить динамический контроль за эффективностью лечения. Современные достижения эндоскопии производят революцию в практике гинекологов, радикально меняя образ мыслей, диагностические возможности и методики оперативных вмешательств [43]. Достижения эндоскопии последних лет, тесно, связанные с техническим прогрессом использование волоконной оптики, видео-техники, электрохирургии, хирургических лазеров, изобретение новых инструментов), обеспечивают возможность не только проведения диагностических процедур но и выполнения лапароскопически большинства

вмешательств, связанных с лечением бесплодия, для которых ранее требовалась лапаротомия.

В настоящее время выделяются три основных направления лапароскопических исследований: диагностическое, лечебное и контрольное [18,19,20.21,38]. Лечебная лапароскопия может быть консервативной и оперативной, дополнение лапароскопии другими инструментальными методами привело к понятиям комбинированной и оперативной, лапароскопии [38]. Во время лапароскопии можно при необходимости произвести сальпингоскопию для определения складчатости труб, состояния эндосальпинкса [30,34,35,36] В.И.Кулаков и соавт. [27] особую роль придают ранней контрольной лапароскопии после реконструктивных операций на маточных трубах, которая позволяет судить о результатах хирургического лечения, помогает выбрать метод восстановительного лечения и проводить коррекцию нарушений (разделение спаек, санация брюшной полости и др.). По мнению авторов, эндоскопическая методика операций при некоторых видах трубного бесплодия (гидросальпинксы) по эффективности превосходит микрохирургическую технику [28,29]. Оценка анатомо-функционального состояния, маточных труб при лапароскопии имеет большое значение как для установления проходимости маточных труб и уровня их окклюзии несовпадение результатов ГСГ и хромогидротубации при лапароскопии отмечается многими авторами, особенно при поражении проксимального отдела труб, так и для решения вопроса о возможности проведения реконструктивно-пластических операций /38/ или экстракорпоральное оплодотворение (ЭКО) [33,44,]. При сравнении с ГСГ хромогидротубация при лапароскопии не имеет ложноположительных результатов, а количество ложно -отрицательных результатов невелико. Наиболее распространёнными лапароскопическими операциями при бесплодии являются сальпинголизис и овариолизис биопсия яичников с целью оценки гистологической структуры ткани, фимбриопластика, сальпингостомия, пункция кист яичников, резекция яичников (при сочетанных формах бесплодия) [18,25,38,45]. Частота наступления беременности после различных лапароскопических операций составляет 19-47% (после сальпингоовариолизиса – 41%, после сальпингостомии – 19%, зндокоагуляции очагов эндометриоза – 34%, клиновидной резекции яичников – 47%, удаления кист яичников – 39%) [8].

Bunlar 1) lokalizasiya və formasına görə qulağcıq və qulaqcıqarası arakəsmədə; (uzanmış Evstax qapaq, aşağı boş vena qapaqlarının prolapsı, açıq oral pənçərə, qulaqcıqarası arakəsmənin çox da böyük olmayan anevrizması, sağ qulaqcıqda anomal trabekullar və s.): üçtaylı qapaqda (üçtaylı qapağın septal qapaq tayının sağ mədəciyin daxilinə 10mm hüdudunda yerdəyişməsi, trikuspidal qapağın prolapsı, sağ atrio-ventrikulyar dəliyin dilatasiyası); ağciyər arteriyasında (ağciyər arteriyası kötüyünün dilatasiyası), ağciyər arteriyası qapaqlarının prolapsı); aortada, Valsalva sinuslarının və s. dilatasiyası, ikitaylı aortal qapaq, aorta qapaqlarının prolapsı və qapaqların asimmetriyası), sol mədəcik (köndələn, boylama, diaqonal trabekullar), mədəcikarası çəpərin çox da böyük olmayan anevrizması, mədəciyin çıxarıcı traktının deformasiyası): mitral qapaq (mitral qapağın prolapsı), ön və (və ya) arxa qapaqların xordalarının ektopik birləşməsi və qeyri-düzgün bölünməsi, əlavə qrup papilyar əzələlər, mitral qapağın həlqəsinin yerdəyişməsi və qenişlənməsi, papilyar əzələlərin anormal yerləşməsi), 2) etioloqiyasına görə (kardiogenezin pozulması, birləşdiriçi toxuma strukturlarının displaziyası, ürəyin ontoqenez prosesləri, veqetativ disfunksiya. 3) fəsadlarına görə (ürək ritminin pozulması qəfləti ölüm, infeksion endokardit, ağciyər hipertenziyası, hemodinamikanın pozulması, qapaq taylarının fibrozlaşması, kalsifikasiyası.

Müasir dövrdə tibbi sənaye və farmakalogiyanın geniş inkişaf etməsi və pediatriyada unikal texnoloqiyaların exoKQ, doppler-exoKQ, maqnit rezonans tomoqrafiya, elektrofizioloji müayinələr, holter monitorlaşdırılması və s. [33] aparılması ilə ürək-damar sistemi xəstəliklərində hemodinamikanın xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı tam məlumatların əldə edilməsi imkanları vardır, lakin oyrənilən patologiyanın bütün variantlarında bunların kompleks şəkildə öyrənilməsi labüddür.

Bu problemlərin uşaqlar arasında öyrənilməsi təkcə tibbi deyil, həm də sosial əhəmiyyət kəsb edir, ona görə ki, bu günkü uşaqlar sabahkı çağırış yaşlı gənclər və ya dünyaya körpə gətirən analardır. Həm də bu qrup xəstəliklərin çox ciddi ağırlaşmalarını nəzərə alsaq, onun qeyri-qənaətbəxş nəticələri baxımından da problemin hərtərəfli öyrənilməsi onun fəsadlarının qarşısını almağa yönəlmiş olar.

Uzun müddət kəskin nəzərə çarpan aydın klinikası olmadığı üçün, klinik əlamətlər meydana çıxdıqda isə artıq xəstənin iş qabiliyyəti və həyat proqnozuna ciddi təsir etdiyi üçün problemin öyrənilməsi diqqəti çəkir və dövri tibbi ədəbiyyatda onun ətrafında geniş müzakirələr gedir. Beləliklə bu patologiyada dəyişikliklər əsasən qapaq, qapaqaltı aparatın strukturlarında, həmçinin keçirici sistemdə gedir ki, bu da ürəyin struktur funksional və elektrofizioloji remodelləşməsinə cavabdeh olan hemodinamik və funksional dəyişiklərə səbəb olur.

Hazırki dövrə qədər bu məsələdə həllini tapmamış bəzi formalarda təsadüf edən ağırlaşmalar (xordaların çırılması, mitral çatmamazlıq, hiss sistemində blokada və keçiriciliyin pozulması, ekstrasistoliya) var ki, öyrənilməsini tələb edir. Beləliklə, uşaq yaşlarında ürəyin kiçik anomaliyalarının aşkarlanaraq dinamik müşahidəyə götürülməsi

və uyğun profilaktik tədbirlərin aparılması, gələcəkdə meydana çıxa biləcək fəsadların qarşısını almış olar.

ƏDƏBIYYAT

1. Klein W.//Eur Heart J., 2001, v.3, p 8-11)
2. Uemura K, Piza Z.//WHO, 1988, v.41,N3-4, p.155
3. Огонов Р.Г. Первичная профилактика ишемической болезни сердца. М., 1990,112с.
4. Земенская Д. И. «Педиатрическая служба России перспективы развития //Российский вестник перинатологии и педиатрии, 1999, №2, с.4-7
5. Кантемирова М.Г., Тюрин М.А., Ибрагимова Т. Ф. и др Дисплазия соединительной ткани и уровень противоогранных антител у детей с нарушениями ритма сердца // Педиатрия, 1998, №6, с.26-29.
6. Меньшикова Л.И., Макарова В.И., Сурова О.В. Дисплазия соединительной ткани сердца в генезе кардиоваскулярной патологии у детей //Вестн. Аритмологии, 2000, №19,с. 54-56.
7. Меньшикова Л. И. Значение малых аномалий развития сердца в формировании патологии сердечно – сосудистой системы у детей // Российский вестн. перинатологии и педиатрии, 2001, №5, с.39-42.
8. Миллер О.Н., Бондарева З.Г. Предикторы возникновения желудочковых тахикардии у больных с пролапсом митрального клапана //Клин. Медицина, 2000, №7, с.40-42.
9. Головской Б.В. Особенности клинического проявления дисплазии соединительной ткани у лиц трудоспособного возраста // Клин. Медицина, 2002, №12, с.39-41,
10. Антонов Ю.С., Кузнецов В.А. Значение добавочный хорды в левом желудочке у больных, перенесших инфаркт миокарда // Клиническая медицина, 1986, №7, с.57-60.
11. Гнусаев С.Ф., Белозеров Ю.М. Виноградов А.Ф. Диагностика кардиальных и внешних малых аномалий развития у детей. Метод.пос.для врачей и студентов. Тверь, 1995,
12. Kumar P.D. Is mitral valve prolapse a manifestation of adolescent growth spurt? // Med. Hepothes., 2000, v.54 (2), p.189-192.
13. Крылов А.А., Опищенко Е.Ф. Невинные» шумы сердца комбинационного генеза // Кардиология, 1991, №6, с.100-104.
14. Abinader E.G. Mitral valve prolapse and tromboembolic events // İsr. Med. Assoc. J., 2001, v.3 (7), p.550
15. Alberto G., Novi R. F., Scalabrino E. et.al. Atrial fibrillation and mirtal prolapsed in a subject affected by Refetoff syndrome //J. Minerva Cardioangiol, 2002, v.50(2), p.157-160
16. Babuty D., CAsset – Senon D., Fauchier L., etal Mitral valve prolapsed and cardiac arrhythmias // Card. Electrophysiol. Rev., 2002, v.6 (2), p.129-131
17. Blum A., Shapira Y., Yeganh S. Mitral valve prolapse and thromboembolic events // İsr. Med. Assoc J., 2001, v.3 (4), p.282-283.
18. Boudoulas H., Schaal S. E., Stang J.M. et.al. Mitral valve prolapse syndrome: cardiac arrest with long-term survival. // Int. J. Cardiol.,1990, v.1, p.37-44.
19. Chirachariyavej T., Wohandee P., Peonim, A.V. A report case of sudden cardiac death in a young adult male from northeastern part of Thailand with mitral valve prolapsed // J. Med. Assoc. Thai., 2004, v.87 (4), p.446-449.
20. Fauchier J.P., Babuty D., Fauchier L. et. al. Mirtal valve prolapse, arrhythmias and sudden death // Arch. Mal. Coeur. Vaiss., 2000, v.93(12), p.1541-1547.
21. Mokaddem A., Sdiri W., Makni H. et.al. Mitral valve prolapse and sudden death: a case report // J. Tunis Med., 2003, v.80(6), p.349-351.
22. Özdemir N., Kaymaz C., Dağlar E. et.al. Severe mitral regurgitation may prevent mural thrombus formation within the left ventricle with systolic dysfunction // Jpn. Heart J., 2003, v.43(5), p.495-503.
23. Мартынов А.И., Степура О.Б., Шехтер А.Б. Новые подходы к лечению больных с идиопатическим пролабированием митрального клапана // Терапевтический архив, 2000, № 9, с.67-70,
24. Менышикова Л.И., Макарова В.И., Сурова О.В. Значение малых аномалий развития сердца в формировании сердечно – сосудистой системы у детей // Рос. Вест. Перинатологии и педиатрии, 2001, №5, с. 39-42
25. Школьникова М.А., Леонтьева И.В. Современная структура сердечно сосудистых заболеваний у детей, лечение и профилактика // Росс. Вестник перинатологии и педиатрии, 1997, №6, с. 14-20
26. Чемоданов В.В., Горнаков И.С.,. Буланкина Е.В.Дисплазия соединительной ткани у детей. Иваново, 2004, 200с.
27. Бельяева Л.М. Клинико – диагностические характеристики идиопатического пролапса митрального клапана у детей// Здравоохранение, 1997, 13, с.23-25
28. Enriquez – Sarano, M. Mitral regurgitation: a new clinical perspective //Clin. Proc.,1997,v72, p. 1034-1043.
29. Froom P. Willebrand factor and mitral valve prolapsed // Tromb. Haemost., 1988, v.60, p.230-231.
30. Барт Б.Я., Беневская В.Ф. Пролабирование митрального клапана // Терапевт. арх., 2003, №1,с.10-15.
31. Зубаирова Л.В. Клинико – функциональная характеристика вегето – сосудистой дисфункции у детей с синдромом дисплазии соединительной ткани сердца: Автореф. дис …. канд. мед. наук. \ Ставрополь, 2004, 22с.
32. Гнусаев С.Ф., Белозеров ЮМ.,. Виноградов А.Ф Клиническое значение малых аномалий развития сердца // Рос.вест перинатологии и педиатрии, 2006, № 4, с.20-25
33. Орлова Н.В., Солдаткин Э.В. К вопросу о функциональных кардиопатиях / Тез. Докл. Всеросс. Конгресса. Детская кардиология. 2002, с. 209-2010.

Резюме

Малые аномалии сердца у детей

И.И. Исаев, С. Г. Ханмамедова, А. И. Мустафаева

К малым аномалиям сердца (МАС) относят сложившиеся анатомические изменения структурной архитектоники сердца и магистральных сосудов, не

приводящие к грубым нарушениям функции сердечно сосудистой системы. В научно – обзорной статье анализируется современные подходы к изучению малых аномалии сердца.

Summary

Small anomalies of heart at children

I.I. Isayev S. G. Khanmamedova, A.I. Mustafayeva

To small anomalies of heart refer the developed anatomic changes of structural very tectonics of heart and the main vessels, functions of warmly vascular system not bringing to rough violations. In a scientific review it is analyzed modern approaches to studying small anomalies of heart.

Daxil olub:06.01.2013

DÜYÜNLÜ PERİARTERİİTİN KLİNİK VƏ İMMUNOLOJİ XÜSUSİYƏTLƏRİ

G.M. Nəsrullayeva, N.H.Sultanova, D.K. Axundova, R.M. Mircavadli

Azərbaycan Tibb Universiteti, Bakı

Acar sözlər: immun sistemi, düyünlü periarteriit, uşaq

Ключевые слова: иммунная система, узловой периатриит, ребенок

Key words: immune system, nodal periatriit, child


İmmun sistemi orqanizmdə dərin polivalent mexanizm daşıyaraq, ümumi homeostazının mütənasib saxlanmasına təsir göstərir. Beləki, bu sistem genetik cəhətdən yad olan infeksion və qeyri – infeksion təbiətli amillərdən orqanizmi müdafiə edən spesifik bioloji reaksiyaların cəmi kimi açıqlanılır.


İmmunologiya sahəsində əldə edilən elmi nailiyyətlərə baxmayaraq, immun sistemi ilə əlaqəli xəstəliklərin artması, onların patogenetik mexanizmlərinin molekulyar səviyyədə daha dərin öyrənilməsinə zəmin verir. Uşaqlar arasında immun sistemində yaranmış hər hansı bir dizbalans xəstəliklərin gedişatını ağırlaşdırmaqla yanaşı, infeksion iltihabı ocaqların generelizasiyasına, ənənəvi müalicə metodlarına qarşı davamlığın yaranmasına, əlilliyə və letallığa səbəb olur.

Bu xəstəliklərə, uşaqlar arasında nadir rast gələn, birləşdirici toxumanın diffuz xəstəliklərindən sayılan düyünlü periarteriiti (Periarteriitis Nodosa) misal göstərmək olar. Düyünlü periarteriit və ya sistemli nekrotik vaskulit xırda və orta arteriya divarlarının destruktiv və proliferativ dəyişkənlikləri ilə səciyələnir. Bəzi ədəbiyyatlarda bu xəstəlik, damar divarlarının bütün qatlarının zədələnməsi ilə xarakterizə olunduğu üçün panarterit adı altında da rast gəlinir [1;2].

Düyünli periarteriitin əsas etioloji faktorlarına bakterial infeksiya (vərəm çöpü, streptokokk, salmonella və s.), viruslar (EBV, Herpes), dərman preparatları (sulfanilamid preparatları, antibiotiklər, vərəm əleyhinə dərmanlar, peyvəndlər), travmatik və termik zədələnmələrdən immun reaktivliyinin dəyişməsi, uşaq orqanizminin xüsusiyyətləri və s. aiddir [4;5]. Xəstəliyin patogenezinin heterogen xarakter daşıması isə özündə immunoloji və qeyri-immonoloji mexanizmlərin birləşdirilməsi kimi açıqlanılır. Məhz patogenetik mexanizmlərinin immun və allergik mövqeyinin öyrənilməsi, molekulyar və hüceyrə səviyyəsində kompensator və destruktiv prosseslərə dair qiymətli elmi informasiyaları aşkara çıxarır. Patogenetik olaraq yeniyetmə və gənc yaşlı xəstələrdə etioloji faktorlara qarşı yerli hipererqik reaksiyalar və antigen-əkscisim kompleksinə qarşı autoimmun reaksiyalar yaranır. Bu reaksiyalar immun komplekslərinin damar divarına çökməsinə, xemotoksinlərin sintezinin artmasına səbəb olmaqla immun mənşəli iltihabı proseslərin yaranmasına və damar divarının endotel qişasının zədələnməsinə gətirib çıxarır. Xəstəlik zamanı zədələnmədə İgG–nin Fc fraqment reseptorlarının və komplement sisteminin Clq fraqmentinin də rolu böyükdür [1; 3; 7].

Xəstəliyin histoloji müayinəsi zamanı damarın endotel qişasında hüceyrə tipli infiltrativ proseslərin olması ilə yanaşı, destruktiv–proliferativ və nekrotik dəyişkənliklərin olması da qeyd edilir (Şək. 1). Şəkildən göründüyü kimi damarlarda yaranmış yerli iltihab ocağında güclu hüceyrə infiltrasiyası qeyd edilir.





Şək.1. Düyünlü periarteriit zamanı damarların histoloji şəkli

Damar divarlarının zədələnməsi trombların, daxili orqanlarda işemiyanın, infarktın və anevrizmanın yaranmasına səbəb olur. Xəstəliyin patogenetik mexanizminə müasir metodik yanaşmaların molekulyar istiqamətdə öyrənilməsinə baxmayaraq, hal-hazırki dövrə qədər tibbdə aydın olmayan mexanizmlər qalmaqdadır.

Kəskin düyünlü periarteriitinlə xəstələnmə qız uşaqlarında oğlan uşaqlarına nisbətdə daha çox rast gəlir . Xəstəliyin kəskinləşməsi bəzi hallarda ilin bütün fəsillərində, daha çox yaz və payız aylarına təsadüf edir. Dəridə yaranmış səpgilər qırmızı rənglı, xırda və iri ölçüdə, bəzən yayılmış formada, ödemli və ağrılı olur, xəstə hətta yeriyə bilmir. Bu simptomlar ümumi zəiflik, subfebritet, sümük və oynaqlarda ağrılarla və mədə- bağırsaq pozulmaları ilə müşayət edilir. Xəstəlik kəskin və xronik formada olur [6].

Düyünlü periarteriitin klinikası polimorf xarakter daşıyaraq, bir sıra müxtəlif formalarda rast gəlinir:

Düyünlü periarteriitin klassik variantı – yüksək hərarət, əzələ və oynaq ağrıları, dəri səpgiləri, iştahasızlıq və arıqlama kimi simptomlarla ilk olaraq özünü göstərir. Bu variantda aşağıda göstərilən tək bir orqan və ya sisteminin zədələnməsi xarakterikdir. Bununla yanaşı tez-tez böyrəklərin zədələnməsi - izolə olunmuş sidik sindromu, qeyri-stabil arterial hipertenziya ilə müşahidə olunan sidik sindromu, böyrək venalarının trombozu nəticəsində əmələ gəlmiş nefrotik sindrom rast gəlinir (Şək. 2).



Şək. 2. Düyünlü periarteriit xəstəliyinin nefrotik sinromla ağlrlaşması

Abdominal əlamətlərdən atreriaların trombozunu və işemiyasını geyd etmək lazımdır. Periferik sinir sisteminin zədələnmələrindən nevritlər, mialqiyalar, hipertenziyalar, əl və ayaq əzələlərin atrofiyası; ürəyin zədələnmələrindən koronarit, kiçik ocaqlı miokard infarktı, aritmiya və ürək çatışmazlığı; ağ ciyərlər tərəfindən isə plevra və ağ ciyərlərin proqresivləşmiş fibrozunu göstərmək olar. MSS-nin zədələnmələri də (psixi pozuntunun olması, epileptik tutmalar, hemioparez) müşahidə olunur.

Düyünlü periarteriitin dəri- tromboz variantı – dəri altı düyünlərin olması, *livedo reticularis,* hemorrarqik purpura ilə özünü göstərir. Dəri və dəri altı düyünlər damar boyu istiqamətində yayılmış olur (Şək. 3). Bəzən düyünlər *livedo* ilə birlikdə rast gəlməklə, nekroz və yaralara meyilli olurlar. Bu əlamətlərlə yanaşı bir sıra ümumi əlamətlər - hərarətin yüksək olması, intoksikasiya

və iştəhasızlıq, mialqiya, ümumi zəiflik, arıqlama kimi əlamətlər də qeyd edilir. *Bir cox daxili orqanları zədələyən düyünlü periarteriit variantı* çox ağır forma sayılır. Bu variantda dəri ilə yanaşı bir neçə organların birlikdə zədələnməsi müşahidə edilir. Patohistoloji müayinə aparmaqla diaqnozu dəqiqləşdirmək və sonra daha çox zədələnmiş orqandarda cərrahi müdaxilə aparılması mümkündür.


Düyünlü periarteriiti aşağıdakı gediş xüsusiyyətlərinə malikdir:

- xoş xassəli
- zəif proqresivləşən
- kəskin və dalğavarı proqresivləşən gedişli

Xoş xassəli gedişli - dəridə yaranmış düyünlü periarteriitlər yeganə simptom kimi qeyd olunur. Xəstəliyin remisiyası 3-5 ilə qədər sürə bilər. Somatik xəstəliklər residivlərin yaranmasına təkan verir.

Zəif proqresivləşən gedişli - düyünlü periarteriitin dəri - tromboz variantı zamanı daha çox rast gəlinir. Bu cür gedişli düyünlü periarteriit periferik nevritlərlə və ətraflarda qan dövranının pozulması ilə özünü göstərir. Xəstəliyin bu gedişində ağırlaşmaların olmaması 10 il və ya daha çox ola bilər.

Kəskin və dalğavarı proqresivləşən gedişi - düyünlü periarteriitin ağır variant olmasını göstərir. İl ərzində bir neçə dəfə kəskinləşmələr və ağır fəsadlar müşahidə olunur, çox vaxt bu gediş letallıqla nəticələnir.



Şək. 3. Düyünlü periarteriitin dəri- tromboz variantı

Bu xəstəliyin müalicə prinsipində müxtəlif patoloji vəziyyətlərdə aparılan kompleks müalicə ilə bərabər immunodepressiv, iltihab əleyhinə preparatların və hormonal preparatların verilməsi məsləhət görülür.

Klinik müşahidəmizin ilyustrasiyasi: Sizin diqqətinizə düyünlü periarteriiti həyatının ilk aylardan başlayan xəstənin tarixini çatdırmaq istərdik. Xəstə 18 aylıq gız, II hamiləlik, II doğuşdandır. Doğuş 38-ci həftəsində Qeysəriyyə kəsiyi ilə olub. Həyatın 8-ci günündə respirator virus infeksiyasına tutulub, 2 ayından başlayaraq hər gün təkrarlanan yüksək hərarət fonunda ayaqlarında dəri altında eritematoz səpgilər qeyd olunub. Son il ərzində aşağı ətraflardan başlayan eritematoz səpgilər, sonralar proqrassivləşərək gövdəyə və üzə yayılmışdır. Çox saylı aparılan antibakterial, iltihab və hərarət əleyhinə müalicəyə baxmayaraq, uşağının vəziyyəti daha da pisləşərək, intoksikasiya və anoreksiya ilə ağırlaşmışdır. Xəstənin fiziki inkişafında ləngimə, anemiya və sinir oyanıqlığı müşahidə edilmişdir.

Obyektiv müayinədə uşaqın vəziyyəti ağırdır, skeletin quruluşu patologiyasızdır. Psixi inkişafı yaşına uyğun olsa da, xəstədə sərbəs gəzmir, sinir sistemində oyanıqlıq müşahidə edilir. Dəri altı piy qatı zəif inkişaf edib (3-cü dərəcəli hipotrofiya), yüksək hərarət (39°) müəyyən olunmuşdur. Dəri üzərində, xüsusən də aşağı və yüxarı ətraflarda bozumtul – göy rəngə çalarlı iri ölçülü eritrematoz (diametri 2,0-3,0 sm) səpgilər, bərk və ağrılı düyünlər, əzələlərdə ağrılar müşahidə edilirdi (Şək. 4).



Sək. 4. Xəstənin yuxarı ətraflarda bozumtul – göy rəngə çalarlı iri ölçülü eritrematoz, kürək nahiyəsində isə sönmüş səpgilərin ilyustrasiyası

Laborator müalyinədə hipoxrom anemiya (Hb-61 q/l, r.g. 0,76) və yüksək EÇS (36 mm/saat) geyd edilib. İmmunoqrammada : İgG-əkscisimlərin göstəricisi yaş normasından yüksək (22,7q\l), İgA isə aşağı olumuşdur (0,4q\l). Periferik qan hüceyrələrinin fenotipində T-xelperlərin azalması (CD4+ 25%), T supressorların isə çoxalması (CD8+ 44%) və immun tənzimləyici indeksin normadan 2 dəfə aşağı olması (0,56) geyd olunur. Zərdabda EBV qarşı spesifik İgG əkscisimləri yüksək titrdə aşkarlanıb.

Qarın boşluğunun ulrtasəs müayinəsi və döş qəfəsinin Rentqenoqrammasında patologiya geyd olunmadı. Sidiyin ümumi analizində leykosituriya (15-20) və zülal izləri müşahidə edilir.

Beləliklə, müşahidə etdiyimiz xəstəyə düyünlü periarteriiitin klassik variantı, hipoxrom anemiya, hipotrofiya, fiziki inkişafın ləmngiməsi diaqnozu goyulub.

Xəstəliyin autoimmun patogenezini nəzərə alaraq müalicə iki etapda aparılıb. 1-ci etapda metotreksat immunosupressoru həftədə 2 dəfə 2,5 mq dozada (hər 3 gündən bir) – 2 həftə müddətində, sonra isə insan immunoqlobulini- Octaqam ayda 1 dəfə 2,5 qr dozada (2 ay müddətində) təyin edilmişdir. Yanaşı olaraq anemiya və qızdırma əleyhinə, dezintoksikasion müalicə aparılmışdır. Müalicə nəticəsində xəstəliyin kliniki gedişində müsbət dinamikası qeyd edilmişdir. Hərarət gün ərzində bir–iki dəfə subfebril olumuş, iştəhası yaxşılaşdı. Anemiya əlamətləri azalmış (82 q/l), ayaqlarda olan ağrılar çəkilmiş, gövdədə isə səpgilər nisbətən sönmüşdür, üzdə tək-tək kiçik səpqilərin təkrarlaması müşahidə edilirdi (Şək. 5). Uşaq aktivdir, iməkləməyə başlamış, çəkisi 800 qr, boyu isə 6 sm artmışdır.



Şək. 5. Müalicədən sonra qarın boşluğunda olan səpgilərin illüstrasiyası

Beləliklə, xəstəliyin gedişini və immun sistemində dəyişikləri nəzərə alaraq müalicədə etaplı immunosupressiv və immun terapiyanın tədbiq edilməsi müsbət dinamika əldə olunmusına imkan vermişdir. Xəstənin uzun müddətli

monitoringi məsləhətdir və hər 6 aydan bir immunoloji müayinələr olunmalıdır.

Xəstəliyin nadir rast gəlməsi bu patologiyanın praktik həkimlərin diqqətindən yayınır. Diaqnozun vaxtında qoyulması və müvafiq adekvat müalicənin aparılması xəstəliyin yarada biləcəyi ağırlaşmaların erkən olaraq qarşısının alınmasına zəmin verir.

ƏDƏBİYYAT

1. Внутренние болезни / Под. ред. проф. Г.И. Бурчинского. 4-е изд., перераб. и доп. Киев: Вища шк. Головное изд-во, 2000, 656 с.
2. Сергеева К.М. Педиатрия. М., 2007, 325 с.
3. Григорьев К.И. Педиартрия. М., 2008, 530 с.
4. Тьяжков А.Б. Педиатрия. Киев., 2008, 435 с.
5. Nelson Textbook of Pediatrics 17 edition. 2009.T.3, p.281
6. Jara – Perez J., Berbek A. // Clin .Trerapeutics, 2000, v. 22, p.748
7. Takada H., Kanegane H., Nomura A. et. al. Female agammaglobulinemia due to the Bruton tyrosine kinase deficiency caused by extremely skewer X- chromosome inactivation // Blood, 2004, v.103, p. 185-187

Резюме

Клинические и иммунологические особенности узлового периартериита

Г.М.Насруллаева, Н.Г.Султанова, Д.К.Ахундова, Р.М.Мирджавадлы

Нарушения иммунитета, преимущественно клеточного типа, утрата толерантности к собственным клеткам являются определяющими в развитии сложных патологических процессов, в том числе аутоиммунных. В прогрессирующей картине системного поражения сосудов определенное значение придают выраженным нарушениям в иммунной системе и возникновению аутоиммунной агрессии. Узелковый периартериит – системное заболевание сосудов, преимущественно среднего и мелкого калибра. Общими симптомами болезни являются повторяющаяся лихорадка, болезненные подкожные высыпания эритематозного типа, нарастающая слабость, быстрое исхудание, вплоть до истощения, потливость, боль в различных областях, в том числе в суставах и мышцах, изменения крови. На фоне тяжелого лихорадочного состояния появляются симптомы поражения органов и систем. Выраженность этих явлений определяет тяжесть течения заболевания и его исход. Своевременная иммунодиагностика с выявлением дисбаланса субпопуляций Т-лимфоцитов, снижением Т- хелперов и повышением Т-супрессоров, а также гиперпродукцию IgG и снижение IgA антител обусловило тактику этапного лечения больного. Проведение адекватной иммунотерапии позволяет добиться ремиссии аутоиммунного процесса и улучшить качество жизни больных.

Summary

Clinical and immunological features of nodular periarteriita

G.M.Nasrullayeva, N.G.Sultanova, D.K.Ahundova, R.M.Mirjavadly

Impaired immunity, mainly cell type, the loss of tolerance to own cells are crucial in the development of many pathological processes, including autoimmune. In advanced picture systemic vascular lesions certain value attached pronounced disturbances in the immune system and the emergence of autoimmune aggression. Periarteritis nodosa - a systemic disease of small and medium caliber vascular. Common symptoms of the disease are recurrent fever, painful subcutaneous erythema type lesions, increasing weakness, nervous breakdown, sweating, pain in joints and muscles, changes in the blood. The intensity of these events determines the severity of the disease and its outcome. Timely detection of imbalance in immune system, especially in T-lymphocytes subpopulations (decrease of CD4+ and increase of CD8+), and in antibody synthesis (hyperproduction of IgG and low level of IgA) make reasonable to use the treatment in two phases. The an adequate immune therapy achieves remission of the autoimmune process and improve the quality of life.

Daxil olub:19.11.2012

ПРИМЕНЕНИЕ ЛЕКАРСТВЕННЫХ ПРЕПАРАТОВ НА ОСНОВЕ ИНГИБИТОРОВ ВИРУСНЫХ ФЕРМЕНТОВ, КАК ВОЗМОЖНОСТЬ СОВЕРШЕНСТВОВАНИЯ ЭТИОТРОПНОЙ ТЕРАПИИ БОЛЬНЫХ ВИРУСНЫМ ГЕПАТИТОМ С

Н.М.Нагиева, М.К.Мамедов

Центральная больница нефтяников; Национальный центр онкологии, г.Баку

Acar sözlər: virus fermnetləri inbitoru, hepatit C, etiotrop müalicə, dərman preparatları

Ключевые слова: ингибиторы вирусных ферментов, гепатит С, этиотропная терапия, лекарственные препараты

Key words: inhibitors of viral enzymes, hepatitis C, causal treatment, medicines

Как известно, на протяжении последнего десятилетия оптимальным методом лечения больных гепатитом С (ГС) считалось применение комбинированной противовирусной терапии (ПВТ), основанной на длительном (в течение 24-48 недель) введении больным одного из препаратов пегилированного альфа-интерферона (ПЭГ-ИФН) в комбинации с пероральным приемом рибавирина (РВ) [1]. Соответственно,

применение этих препаратов в комбинации друг с другом было принято в качестве стандарта терапии больных хроническим ГС (ХГС), обоснованного с позиций доказательной медицины и официально признанным консенсусными документами AASL и EASL и названного некоторыми авторитетными исследователями "золотым" [2].

Между тем, результаты широкого применения ПВТ уже практически немедленно вынудили исследователей признать, что внедрение в клиническую практику даже ПВТ смогло лишь частично решить проблему лечения больных хроническим ГС (ХГС), а ряд вопросов в этой проблеме все еще остается без приемлемого решения.

При этом на повестке оставался не только вопрос о необходимости повышения эффективности этиотропного лечения указанного контингента больных, но и вопрос о расширении области его применения и, в частности, о возможности проведения такого лечения больным ХГС, имеющим противопоказания к назначению лекарственных препаратов, применяемых в программах ПВТ.

Это обстоятельство побуждало исследователей продолжать поиски новых более эффективных средств, применение которых позволило бы повысить действенность лечения больных ХГС и снизить частоту развития его клинически значимых побочных эффектов.

Заметим, что уже к началу нашего столетия была получена достаточно полная информация об особенностях стратегии генома вируса ГС (ВГС) и функциях большинства вирусспецифических белков и их роли в цикле репродукции вируса и процессах реализации его патогенного потенциала. Наличие такой информации позволило начать целенаправленный поиск лекарственных препаратов, пригодных для реализации принципиально нового подхода к противирусному лечению, основанного на использовании высокоселективных препаратов, действующих на конкретные процессы воспроизводтства вируса в организме больного ХГС [3].

Теоретической основой этого подхода к терапии стал поиск такой молекулярной "мишени", селективно воздействуя на которую лекарственным препаратом, возможно на том или ином этапе жизненного цикла вируса, остановить или, как минимум, замедлить процесс его репродукции и, тем самым, обеспечить остановку инфекционного процесса [4].

И хотя теоретически такой "мишенью" для воздействия потенциальных фармакологических средств мог быть любой этап жизненного цикла ВГС, к началу 2007 г сложилось представление, что наиболее перспективными группами таких средств для таргетной терапии ХГС могут стать две группы препаратов [5].

Первую группу составляли препараты на основе ингибиторов полимеразы - эти препараты проявляют противовирусную активность путем блокирования репликации вирусной РНК. Одним из таких препаратов, испытание которого продолжается, является "валопицитабин" фирмы Novartis.

Вторая группа была представлена препаратами, обладающими способностью ингибировать активность вирусных протеаз, а в основе механизма их действия лежит блокада процессинга (расщепления) вирусного полипротеина, транслируемого с генома ВГС посредством одной рамки считывания, на "зрелые" функционально активные структурные и неструктурные белки ВГС, необходимые для его полноценной репродукции. Наиболее изученными препаратами из этой группы являются ингибиторы сериновой протеазы ВГС: "боцепревир" компании Shering-Plough и "телапревир" фирмы Vertex Pharma.

Именно применение перечисленных выше препаратов для лечения больных ХГС, которые в предклинических исследованиях обеспечили высокую эффективность терапии, которая в аналогии с применением высокоселективных лекарственных препаратов в противоопухолевой и антиретровирусной терапии, получило условное название "таргетной" противовирусной терапии.

С учетом изложенного выше можно полагать, что сегодня для лечения больных ХГС возможна тройная комбинированная ПВТ, при которой помимо традиционных препаратов ПЭГ-ИФН и РВ используются препараты на основе ингибиторов вирусспецифичесих ферментов.

С применения этих препаратов начинается терапия нового уровня, при которой мишенью для лекарственных препаратов становятся ключевые белки ВГС. Впереди перспективные разработки, которые позволят надеяться на успешный результат даже у больных, не

достигших устойчивого вирусологического ответа при существующей тройной терапии.

Таким образом, результаты клинических многоцентровых рандомизированных плацебо-контролируемых (а в части случаев, двойных слепых) исследований оценки эффективности и безопасности применения программы лечения, включающей ингибиторы вирусных ферментов, прямо свидетельствуют не только об его хорошей переносимости и достаточном уровне безопасности, но и способности обеспечивать выраженный терапевтический эффект в форме существенного увеличения, по сравнению со стандартными программамами ПВТ, частоты достижения устойчивого противовирусного ответа у пациентов с ХГС генотипа 1, наиболее редко "отвечающих" на стандартную ПВТ.

И хотя названные выше лекарственные препараты являются лишь одними из первых препаратов, предназначенных для таргетной терапии больных ХГС, результаты их применения уже показали большую перспективность. Между тем, сегодня завершаются испытания нескольких других препаратов, также пригодных для таргетной ПВТ, что позволяет полагать, что их внедрение в клиническую практику расширит реальные возможности фармакологического подавления репродукции ВГС и остановки обусловленного ею заболевания.

Можно надеяться на то, что дальнейшее развитие этого направления в лечении ХГС уже в обозримом будущем позволит решить проблемы, обусловленные наличием генетической резистентности ВГС к таргетным препаратам, снизит риск селекции резистентных штаммов в ходе терапии и снизит частоту развития побочных эффектов лечения.

Скорее всего, на протяжении ближайших 5 лет в клиническую практику будут внедрены новые программы комбинированной ПВТ, в которых вместе с ПЭГ-ИФН и РВ будут использоваться один (тритерапия) или два (квадротерапия) таргетных препарата.

Дальнейшее же развитие этого направления, по всей вероятности, позволит на основе более совершенных таргетных препаратов, разработать принципиально новые программы лечения, не включающие препараты ПЭГ-ИФН и возможно РВ, что расширит ныне существующие возможности обеспечения адекватным противовирусным лечением тех больных ХГС, которые имеют противопоказания к назначению этих лекарственных препаратов.

ЛИТЕРАТУРА

1. Мамедов М.К. Вирусный гепатит С. Баку: Элм, 2010, 192 с.

2. Мамедов М.К., Керимов А.А. Современные подходы к этиопатогенетическому лечению трансфузионных вирусных гепатитов // Азерб. мед. Ж, 2002, N.2, с.95-98

3. Мамедов М.К., Кадырова А.А. Интерфероны и их применение в клинической медицине. М.: Кристалл, 2005, 288 с.

4. Хронические вирусные гепатиты / Клинические рекомендации. Гастроэнтерология: 2006-2007. Под ред. В.Т.Ивашкина. М.: ГЭОТАР-Медиа, 2006, с.99-122

5. Hepatitis C virus. Eds. P. Karayiannis, J.Main, H.Thomas. London: International Medical Press, 2009, 210 p.

6. Мамедов М.К. Перспективы этиотропного лечения больных вирусным гепатитом С. // Современные достижения азербайджанской медицины, 2011, N.4. с.3-11

Xülasə

Virus fermentlərinin inhibitorları əsasında hazırlanmış preparatların istifadəsi hepatit C olan xəstələrin etiotrop müalicəsinin təkmilləşdirilməsi vasitəsi kimi

N.M.Nağıyeva, M.Q.Məmmədov

Müəlliflər virus fermentlərinin inhibitorları əsasında hazırlanmış preparatların istifadəsinin hepatit C olan xəstələrin etiotrop müalicəsinin təkmilləşdirilməsi vasitəsi kimi vacib informasiyanı təqdim etmişlər. Bu preparatlar hepatit C- in virusəleyhinə müalicəsinin target prinsipini həyata keçriməyə imkan verir.

Summary

Application of drugs on the base of viral enzymes' inhibitors as a possibility for improvement of hepatitis C patients etiotropic therapy

N.Nagiyeva, M.Mamedov

The authors presented main information reflected modern approaches to antiviral therapy of chronic hepatitis C patients, based on including viral enzymes' inhibitors in the treatment programmes, permitted to realize principles of target antiviral therapy of hepat. C

Daxil olub:19.11.2012

REANIMASIYADAN SONRAKI BƏRPA DÖVRÜNDƏ LIMFADA BƏZI FERMENTLƏRIN AKTIVLIYININ VƏ QARACIYƏRIN HISTO-KIMYƏVI GÖSTƏRICILƏRININ ÖYRƏNILMƏSI

G.H.Ibrahimova, A.C.Əliyeva

Azərbaycan Tibb Universiteti, Bakı


Açar sözlər: reanimasiya, limfa, qaraciyər
Ключевые слова: реанимация, лимфа, печень
Key words: reanimation, lymph, liver.

Ədəbiyyat məlumatlarına əsasən, terminal vəziyyətdə artan hipoksiyanın təsirindən orqan və toxumaların funksiyaları pozulur. Reanimasiyadan sonrakı dövrdə daxili orqanların funksiyası tədricən bərpa olunduğu halda , qaraciyərin funksiyasında daha çox əksikliklər aşkarlanır [1,2]. Qaraciyər funksiyasının pozulması, əsasən fermentativ aktivliyin dəyişməsi hemosirkulyator qan dövranının yetməzliyi ilə xarakterizə olunur. Qaraciyər fermentlərinin aktivliyinin dəyişməsi qanda daha çox öyrənildiyi halda, limfada ferment aktivliyinin tədqiqinə nisbətən az yer verilib. Hansı ki, limfa hüceyrə metabolizmi haqqında daha çox məlumata malikdir [3,4,5]. Bu baxımdan biz reanimasiyadan sonrakı bərpa dövründə (10 gün ərzində) limfada bəzi fermentlərin aktivliyinin və qaraciyərin histo-kimyəvi göstəricilərinin öyrənilməsi məqsədilə tədqiqat apardıq.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqat ” şinşilla ” cinsindən olan (çəkisi 2,0-3,0 kq) 13 dovşan üzərində aparılıb. Narkoz məqsədilə nembutal periton boşluğuna (25 mq / kq)yeridilir. Davam etmə müddəti 3 dəqiqə olan kliniki ölüm vəziyyətini xüsusi üsulla M. D. Qayeva və b. (1984) [6]; və bizim modifikasiya [7,8] əsasında yaratdıq. Reanimasiya tədbirləri ümumi V.A. Neqovski üsuluna [1] əsaslanıb. Tədqiqat boyu heyvanın əsas fizioloji göstəriciləri (arterial təzyiq, ürək vurğularının və tənəffüsün sayı, çox kanallı elektrokardioqram ”Minqoqraf-34 ”qeyd olunaraq, reo-encefaloqramma çəkilir. Limfa döş limfa axacağından götürülür [8]. Qaraciyər toxuması 10%-li formalin məhlulunda Buena, Gelli, Karnua reaksiyasının köməyilə 90%-li spirt məhlulunda fiksə olunmuşdur. Götürülən material parafində işlənərək Okomota, Kayota, Ayama üsulu ilə rənglənir. Alınan göstəricilər variasion statistika üsulu ilə təhlil edilmişdir. Limfada laktat-dehidroğenaza (LDH), qələvi fosfataza (QF), aspartat-aminotransferaza (AsAT), alanin-aminotransferaza (AlAT) kimi fermentlərin aktivliyi və qaraciyərin histo-kimyəvi göstəriciləri öyrənilir.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏLƏR. Tədqiqatın nəticələri göstərir ki, reanimasiyadan sonrakı bərpa dövründə (60 dəqiqədən sonra) heyvanın arterial təzyiqi normadan aşağı 62,3%($p<0,01$) olur və gün ərzində artaraq normal həddə çatır. Reanimasiyadan sonrakı 3saat müddətində ürək vurğularının sayı artaraq, tədqiqatın sonunda normaya çatır. Tənəffüsün tezliyi isə reanimasiyadan sonrakı 30 dəqiqədə normal göstəricinin 78.6% ($p<0,02$) təşkil edərək, 3-cü sutkasından etibarən normallaşır. Tədqiqatın nəticələri göstərir ki, reanimasiyadan sonrakı bərpa dövründə limfada öyrənilən bəzi fermentlərin aktivliyinin dəyişməsi və qaraciyərin histo-kimyəvi göstəricilərinin pozulması müşahidə olunur. Reanimasiyadan sonrakı bərpa dövrdə 30,60,180 dəqiqə müddətində öyrənilən AsAT və LDH fermentinin aktivliyi limfada artır 172,1%($P<0,001$), 239,1%($p<0,001$), 221,8%($p<0,001$) və 245,1% ($p<0,001$) , 287,3%($p<0,001$), 411,7%($p<0,001$), bu fermentlərin aktivliyi maksimuma 180 dəqiqədə çataraq ilkin göstəricidən 3,9 və 5,1 dəfə çox olur. Tədqiqatın sonunda bu göstərici limfada normallaşır. QF fermentinin aktivliyi isə limfada göstərilən müddətdə azalır 74%($p<0,05$), 68%($p<0,01$), 67%($p<0,01$), göstərici tədqiqatın sonuna qədər saxlanılır ($p<0,05$) .AlAT fermentinin aktivliyi reanimasiyadan sonrakı dövrdə bir sutka ərzində 110,3 %($p<0,001$)ilkin göstəriciyə nisbətən artmışdır. Tədqiqat müddətində limfanın axma sürəti 60 dəqiqədə 2 dəfə, 3 saatdan sonra normal göstəricinin 45% təşkil edir ($p<0,001$).

Reanimasiyadan sonrakı 60,180 dəqiqədə qaraciyər toxumasında qlikoliz və toxuma tənəffüsü fermentlərinin aktivliyinin dəyişməsi müşahidə olunur. Periportal və periferik qaraciyər hepatositlərində “ferment diffuziyası” əlaməti aşkarlanır. Bir qrup hepatositlərdə qlükoza , pentoza siklinin və toxuma tənəffüsü fermentlərinin fəaliyyətdən qalması qeyd olunur. İntermedial və mərkəzi lobulyar hissədə Q-6-FDH və 6-FDH aktivliyi (2+) dan (3+) qədər artır, LDH–isə yüksək aktivliyə malik olur(3+).Reanimasiyadan sonrakı 24 saat müddətində qaraciyərin periportal və periferik hepatositlərində nekrobiotik vəziyyət mikroocaqlı nekrozun, limfasitar infiltrasiyanın əmələ gəlməsi ilə nəticələnir. Hepatositlərdə “ferment diffuziyası” əlaməti yayılır. Pentoz siklinin, qlikolitik fermentlərinin aktivliyi zəifləyir.



Şək.1. Reanimasiyadan sonra bərpa dövründə (72 saatdan sonra) nekrobioz və distrofiya qaraciyər payının periportal zonasında yerləşən hepatositlərdə görünür.Rəng:immersion, eozinofil Böy:ob.40;ok.12,5.

Mərkəzi lobulyar hepatositlərdə fermentlərin aktivliyi LDH (3+),6-FDH(3+), oksidləşmə potensialı isə Q-6-FDH(2+), CDH(2+) olur. Reanimasiyadan sonrakı 72 saat müddətində destruktiv zədələnmə periferik və periportal hepotositlərdə aşkarlanır. Histokimyəvi analizə əsasən 72 saatdan sonra qlikoliz və toxuma tənəffüsü fermentlərinin aktivliyinin dəyişməsi gətirici damar sisteminin ətrafında və periferiyada LDH (3+), MDH (3+), NAD-N-aza (3+) qeyd olunur. Fermentativ marker hepatosit nüvəsinin ətrafında lokallaşır və standart ölçülərə, formaya malik olur. Qaraciyərin histo-kimyəvi göstəriciləri ancaq 7 gündən etibarən normallaşır. Qaraciyərdə hepatositlərin miqdarı artır ,ferment aktivliyi Q-6-FDH (2+) 6-FDH (1+ və ya 2+) normallaşır. Mərkəzi hepatositlərdə NAD-N-aza (3+) artır. Hepatositlərdə qlikogen və qlükoza çoxalır, limfoid hüceyrələrinin infiltrasiyası zəifləyir, pozulmuş hemosirkulyasiya bərpa olunur. Nəticə olaraq demək olar kı, zədələnmış qaraciyərdən xaric olan fermentlər ilk əvvəl drenaj funksiyaya malik limfaya, sonra döş limfa axarına və ümumi qan dövranına daxil olurlar. Limfa toxumarası sahədən başlanğıc götürür. Fermentlərin aktivliyi ilkin limfada artır. Limfanın biokimyəvi tərkibi hüceyrə membranının zədələnmə səviyyəsi göstərir [10]. Reanimasiyadan sonrakı bərpa dövründə qaraciyərin funksiyasının yetməzliyinin erkən diaqnostikasında limfa sisteminin öyrənilməsinin rolu böyükdür.

ƏDƏBIYYAT

1. Неговский В.А., Мороз В.В. Теоретические и клинические проблемы реаниматологии //Анестезиол. и реаниматология, 2000, №6, с.4-7

2. Ларин С.А., Ившин В.Г., Андреев Ю.Г. Экспериментальные аспекты эффективности пункционной биопсии печени // Bulleten of the International Scientific Surg. Associat., 2008, v.3, №1,

3. Шутеу Ю., Бэндилэ Т., Кафрице А. и др. Шок: терминология и классификация. Шоковая клетка. Патофизиология и лечение / Пер.с румынск. Бухарест: Воен. изд.,1981, с.515.

4. Левин Ю.М., Мамедов Я.Д., Сорокатый А.Е. и др. Проблемы клинической лимфологии. Практическая лимфология. Баку,1982, с.12-118

5. Мамедов Я.Д., Курбанов Я.З., Гараев Г.Ш., и др. Стимуляция лимфатического дренажа при интенсивной терапии острого инфаркта миокарда//Анест. и реаниматол, 1993, №1, с.32-33.

6. Гаева М.Д., Погорелый В.Е., Санкина Ш.В. и др. Методика воспроизведения острых изменений артериального давления для изучения регуляторных реакций сосудов головного мозга // Пат.физ., 1984, №1, с.72-74

7. Мехралиев Р.Р., Алиев М.Х. Способ моделирования клинической смерти у кроликов. Рац. предложение АМИ им. Н.Нариманова. 1988, №194

8. Корниенко А.А., Куликовский Н.Н., Сорокатный А.Е. Актуальные вопросы топографической анатомии и оперативной хирургии. М.,1977, Вып.1, с.22-26

9. Лужникова Е.А. Медицинская токсикология: национальное руководство. М.,2012, с.425

10. Миннебаев М.М. Вопросы методологии в изучении патофизиологии лимфатической системы в эксперименте / Венозное кровообращение и лимфообращение: Тез. докл. IV-й Всесоюз.конф. Казань,1989, Ч.2, с.34-35.

Резюме

Изучение гистохимические изменения в печени и активность некоторых ферментов в лимфе в постреанимационном периоде

Г.Г. Ибрагимова, А.Д.Алиева

Опыты поставлены на 13 кроликах. В качестве наркоза исполь-зовали нембутал , который вводили внутрибрюшинно в дозе 25мг/кг массы животного. Из ферментов определяли активность АсАТ ,

АлАТ, ЛДГ, ЩФ как в лимфе, так и в крови, а также гистохимические изменения печени в постреанимационном периоде. Результаты исследования показали, что в постреанимационном периоде активность изучаемых ферментов выраженно изменялась в лимфе. Через 3 дня пост - реанимационном периоде активность изучаемых ферментов в лимфе постепенно уменьшалась. Через сутки деструктивные процессы в гепатоцитах усиливаются. В печени через72 часа постреанимационном периоде "ферментативная диффузия" в гепатоцитах не проявляется . Активность ферментов центро- лобулярных и интермедиарных гепатоцитах выражены в высокой степени. Только через 72 часа исследования, отмечено нормализации активность изучаемых ферментов в лимфе, а также гистохимические изменения печени в постреанимационном периоде.

Summary

Histochemical indexes liver and activity of some enzymes in lymph in postreanimation period

G.H. Ibrahimova, A.C.Alieva

The investigation was carried out on 13 rabbits. It was administered nembutal (25mq/kq) for narcosis into peritoneal cavity. AsAT, AlAT, LDH, alkaline phosphatase activity in lymph and histo-chemical disturbances of liver were studied. Results of the investigation showed that during the postreanimation period .Three days later the enzymes activity in whole was normalized. After the first day the destructive disorders in liver were more intensive. The "diffusion of enzymes" phenomenon didn't appear in hepatocytes72 hours later. The studied enzymes were activated in intermediary and central lobular hepatocytes.72 hours later the enzymatic activity and histo-chemical indexes of liver were stabilized.

Daxil olub:22.11.2012

XRONİKİ DUODENAL KEÇMƏMƏZLİYİN DİAQNOSTİKASINDA TƏKMİLLƏŞDİRİLMİŞ MANOMETRİYANIN TƏTBİQİ

A.M.Yusubov

A.M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi, Bakı

Açar sözlər: xroniki duodenal keçməməzlik, diaqnostika, manometriya, müalicə nəticələri

Ключевые слова: хроническая дуоденальная непроходимость, диагностика, манометрия, результаты лечения

Key words: chronic duodenal obstruction, diagnosis, manometry outcomes

Məlumdur ki, postxolesistektomik sindromun bir qrup patoloji vəziyyəti əməliyyatönü dövrdə yanaşı orqanlarının təyin edilməyən xəstəliklərinin kəskinləşməsi nəticəsində inkişaf edir [1,2,3]. Ədəbiyyat məlumatlarına əsasən xolesistektomiyadan sonra 8%-67% xəstələrdə ağrı və ya dispepsik təzahürlərin olması müşahidə edilir [1]. Bu xəstəliklərin arasında 12 barmaq bağırsağın motor-evakuator funksiyasının pozulması mühüm rol oynayır. Müəlliflərin məlumatlarına əsasən xroniki daşlı xolesistitli xəstələrin 10%-32%-ndə xroniki duodenal keçməməzlik (XDK) müşahidə edilir [4,5].

Ədəbiyyat məlumatlarında XDK-nin diaqnostikasına və müalicəsinə dair müəlliflər müxtəlif, bəzən isə biri-birinə qarşı ziddiyyətli fikirlər irəli sürürlər [6,7,8,9]. Bu, göstərilən xəstəlik və onun törətdiyi dəyişikliklər bərədə məlumatların kifayət qədər olmaması və ya müayinələrin natamamlığı səbəbindən dürst qiymətləndirilməməsi nəticəsində yaranan mülahizələrdir.

İşin MƏQSƏDI xroniki daşlı xolesistitli xəstələrdə xroniki duodenal keçməməzliyin müayinə və müalicəsində təklif edilən üsulların səmərəliyinin öyrənilməsidir.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqat işi 2005-2012-ci illər müddətində akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin qaraciyər, öd yolları, mədəaltı vəzi cərrahlığı şöbəsində müalicə almış 37 xəstənin müayinə və müalicə nəticələrinin müqayisəli şəkildə öyrənilməsinə əsaslanmışdır. Tədqiq edilən xəstələrin arasında 26 (70,3%) qadın, 11 (29,7%) kişi vardır. Xəstələrin çox hissəsi əmək qabiliyyəti yüksək olan xəstələr olmuşdur ki (orta yaş həddi 36,5±1.6), bu da problemin sosial əhəmiyyətini bir daha sübut edir.

Tədqiq edilən xəstələrin müayinəsi onların şikayətlərinin öyrənilməsindən başlanmışdır. XDK aid olan şikayətlər öz qeyri-spesifikliyi ilə fərqlənmişdir. Anamnestik məlumatları toplayarkən XDK-yin diaqnozunu qoymaq çətinliklər törətmişdir. Dispepsik təzahürləri

xarakterizə edən, qarında yeməkdən sonra ağrıların olması şikayətləri bir çox xəstələr hətta uşaq yaşlarından başladığın qeyd edirlər.

Tədqiq etdiyimiz xəstələrin 31 və ya 83.8%-zi xəstəliyin başlanması dövründən 3 il sonra klinikaya cərrahi əməliyyatın aparılması üçün müraciət etmişdir. Xəstəliyin müddəti (anamnezis morbi) müxtəlif olub, bir ildən 15 ilə qədər, bəzən isə bundan artıq müddətli olması müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, xəstələrin hamısı klinikamıza müraciət etməmişdən əvvəl bir neçə dəfə ambulator və stasionar şəraitdə konservativ müalicələr alsalar da, effekti qısa müddətli olmuş, ağrı sindromu və dispepsik təzahürlər tez-tez kəskinləşmişdir.

Göstərilən xəstələrə prosesin vaxt aşırı kəskinləşməsinə görə konservativ tədbirlər təyin edilsə də, yaxşılaşma müvəqqəti xarakter daşımışdır. Bu xəstələr xəstəliyin yenidən kəskinləşməsinə görə klinikamıza müraciət etmişlər.

Müşahidə edilən xəstələrin hamısında xroniki daşlı xolesistit ilə yanaşı xroniki duodenal keçməməzlik əlamətləri vardır.

Funksional formalı XDK 8 (21,6%), mexaniki isə 29 (78,4%) xəstədə qeydə alınmışdır. XDK-nin hipertonik funksional forması 3 (8,1%) xəstədə, hipotonik funksional forma 5(13,5%), 12 b/b çapıq deformasiyası və perioduodenit 27(72,97%), 2(5,4%) xəstədə isə arteriomezenterial kompressiya müəyyən edilmişdir.

Müqayisəli şəkildə aparılmış müayinələr göstərmişdir ki, öd daşı xəstəliyinin kliniki əlamətlərindən əlavə xroniki duodenal keçməməzliyə xas olan digər simptomlar da qeyd edilirdi. Belə ki, 14 (37,8%) xəstədə ağrılar epiqastral nahiyyədə lokallaşıb, qida qəbulu ilə də əlaqəli olmamışdır. Ürəkbulanma 29 (78,4%) xəstədə, ödlə qarışıq qusmaların olması isə 26 (70,3%) xəstədə qeydə alınmışdır.

Cədvəl 1-də tədqiq etdiyimiz xəstələrdə XDK ağırlıq dərəcəsi göstərilir. Belə ki, müşahidə edilən xəstələrin çox hissəsində XDK kompensasiya və subkompensasiya mərhələsində olması qeyd edilirdi.

Cədvəl 1

Müşahidə edilən xəstələrdə xroniki duodenal keçməməzliyin ağırlıq dərəcəsi

Ağırlıq dərəcəsi	Say
Kompensasiya	14(37,8%)
Subkompensasiya	21(56,8%)
Dekompensasiya	2(5,4%)

Cədvəl 2

Laparoskopik xolesistektomiya ilə yanaşı xroniki duodenal keçməməzliyin korreksiya üsulları

Əməliyyat	XDK forması	Xəstələrin sayı	
		abs	%
Duodenoadqeziolizis	12 b.b. çapıq deformasiyası	28	75,7
Stronq əməliyyatı	Arteriomezenterial kompressiya	1	2,7

Simptomların analizi göstərmişdir ki, şikayətlərin çoxluğu və xəstəliyin klinikasının aydın olması, xroniki duodental keçməməzliyin tək formasından asılı deyil, onun kompensasiya dərəcəsindən də asılıdır.

Növbəti cədvəldə cərrahi əməliyyatların növü və həcmi təsvir edilmişdir.

Müqayisəli şəkildə tədqiqatın aparılması, eləcə də təklif edilən müalicə kompleksinin səmərəliyinin qiymətləndirilməsi üçün xəstələr nisbi olaraq 2 qrupa bölünmüşdür:

I qrupu 16 xəstə daxil olmuşdur. Bu xəstələrin kompleks müalicəsi klinikada qəbul edilmiş ənənəvi üsulla icra edilmişdir. Əməliyyat zamanı xolesistektomiya ilə yanaşı xroniki duodenal keçməməzliyin cərrahi korreksiyası aparılmamışdır. II qrup xəstələrə isə 21 xəstə aid edilmişdir. Göstərilən xəstələrə I qrup xəstələrdən fərqli olaraq xolesistektomiya ilə yanaşı laparoskopik üsulla xroniki duodenal keçməməzliyin korreksiyası üçün "Stronq" və ya duodenoadqeziolizis əməliyyatı icra olunmuşdur.

Tərəfimizdən təklif etdiyimiz müalicə kompleksinin səmərəliyinin qiymətləndirilməsi məqsədi ilə II qrup xəstələr öz növbəsində 2 yarım qrupa (A və B) bölünmüşlər: A yarımqrupuna 8 xəstə daxil edilmişdir ki, bunların müalicə kompleksi yalnız laparoskopik üsulla xolesistektomiya ilə yanaşı xroniki duodenal keçməməzlik korreksiya edilmişdir. B (13 xəstə) yarımqrupuna aid olan xəstələrə isə A yarımqrupundan fərqli olaraq təklif etdiyimiz

üsulla mədənin və 12 barmaq bağırsağın xüsusi tezlikli ultrasəs dalğalarının köməyi ilə (intrakorporal-nazoqastral və transkutan yolla) stimulyasiya aparılmışdır.

Müalicə nəticələri qrup və yarımqruplar arasında müqayisəli şəkildə öyrənilmişdir. Qeyd etmək lazımdır ki, xəstələr yaşa, cinsinə, xəstəliyin müddətinə, etiologiyasına, yanaşı patologiyasına və ümumi vəziyyətinə görə qruplar arasında statistik eyni bölünmüşlər.

Nəticələr və onların müzakirəsi: təkmilləşdirilmiş manometriyanın köməyi ilə biz tədqiq edilən xəstələrdə 12 barmaq bağırsaq daxilində təziqi müalicə mərhələrində əməliyyatönü və sonra tədqiq etmişik. Göstərilən orqanlarda boşluqdaxili təziqin dəyişməsi sinir-əzələ apparatının fəaliyyəti ilə əlaqəlidir. Nəticə olaraq peristaltikanın fəallığı, amplitudu, sürəti və müddəti dəyişir ki, bu da boşluq dazili təziqin kompensasiya dərəcəsindən asılı olaraq dəyişməsinə gətirib çıxarır.

Manometriya zamanı biz xüsusi cihazdan istifadə etmişik (Şək.1).



Şək.1. Tədqiqatda istifadə olunan təkmilləşdirilmiş manometriya

Göstərilən cihazın bir sıra üstünlükləri vardır. Əsas üstünlüyü ondan ibarətdir ki, müəyyən vaxt intervalında cihaz təziqin dəyişməsini analiz edərkən orta rəqəmi bizə verə bilir. Digər ənənəvi cihazlarda isə nəticə ölçülən zamanı təziqi göstərir.

Növbəti slaydda qruplar arasında manometriya nəticələrinin müayisəsi göstərilir. Manometriyanı biz əməliyyatdan əvvəl və əməliyyatdan sonrakı dövrün yaxın və uzaq dövründə tədqiq etmişik.

Bunun üçün biz nazointenstinal zonddan istifadə etmişik. Əməliyyatönü və əməliyyatdan sonrakı uzaq dövrdə isə biz boşluqdaxili təziqi EQDS zamanı ölçmüşük. Ənənəvi üsullardan fərqli olaraq EQDS zamanı manometriyanın aparılması bizim tərəfimizdən istifadə eilən cihazın köməyi ilə aparmaq imkanı olmuşdur.

Cədvəl 3

Təkmilləşdirilmiş manometriya nəticələrinin müalicə dövründə dinamikası

Müşahidə dövrü		I qrup		II qrup		
		Ə.ə.	Ə.s.	Ə.ə.	Ə.s.	
Yaxın	Bazal	137	151	135	95	
	Stimulyasiyadan sonra	268	256	231	125	Norma: 69-118 mm.s.s.

Manometriya zamanı biz bazal və həqiqi təziqləri müəyyən vaxt intervalında ölçmüşük. Mədə və 12 barmağın divarı hava və ya maye müəyyən həcmdə vurulan zaman reaksiya verir və biz bunu ölçürük.

Cədvəl 3-də II qrup xəstələrdə əməliyyatdan sonrakı yaxın dövrdə olan müsbət dəyişikliklər təklif edilən müalicə üsullarının səmərəliyini göstərir.

Müayinələr göstərmişdir ki, bütün xəstələrdə əməliyyatönü dövrdə 12 barmaq bağırsaq daxili təziqin artması müşahidə edilirdi. Əməliyyatdan sonrakı ilk günlərdə II qrup xəstələrdə 12 b.b. daxilində boşluq daxili təziqin I qrup xəstələrə nisbətən azalması müşahidə edilirdi.

Müşahidənin uzaq dövrdəki nəticələr isə II qrupun B yarımqrupuna aid olan xəstələrdə daha səmərəli nəticələr təklif etdiyimiz üsulla ultrasəs tezlikli impuls terapiyanın 12 b.b. divarının elastikliyinə eləcə də çapıqlaşmanın profilaktikasının səmərəliyini göstərir.

Beləliklə müayinələr göstərmişdir ki, mərhələli manometriya müayinəsi xroniki duodenal keçməməzliyin diaqnostikası üçün vacibdir.

Göstərilən müayinə üsulu sadə olub yüksək informativliyi ilə seçilir.

Yaxın əməliyyatdan sonrakı dvrdə aparılan müşahidələr göstərmişdir ki, müşahidə etdiyimiz xəstələrin ultrasəs tezlikli terapiyanın kompleks müalicəsində tətbiqi ənənəvi müalicə almış xəstələrə nisbətən daha erkən zamanda 12 barmaq bağırsağın motor evakuator fəaliyyətinin stimulyasiyası üçün yardımçı olmuşdur.

II qrup xəstələrdə müalicənin 3 günündə dispepsik təzahürlərin keçməsi qeydə alınmışdır. Bu əsasən ağrı sindromunun, habelə dispepsik təzahürlərin tezliklə aradan qaldırılması, bağırsaq peristaltikasının daha erkən bərpası ilə özünü göstərmişdir.

Müqayisəli şəkildə aparılan kliniki müşahidələr göstərmişdir ki, II/b qrupuna aid olan xəstələrin kompleks müalicəsində təklif edilən müalicə tədbirlərin aparılması daha sürətlə 12 barmaq bağırsaqda peristaltikanın fəallaşmasına yardımçı olaraq, onun motor-evakuator qabiliyyətinin erkən bərpası ilə səciyyələnir.

ƏDƏBİYYAT

1. Дадаев Р.М. Оптимизация современных методов хирургического лечения желчнокаменной болезни и её осложнений: Автореф. Дис…. д-ра. мед.наук,М., 2000, 305 с.
2. Пушкарев А.Г. Малоинвазивная хирургия желчнокаменной болезни 5-летний опыт // Эндоскоп, хирургия, 2000, Т.6, №2, с.55-56.
3. Grubnik V.V. Complications after laparoscopic cholecystectomy // Klin-Khir., 1999. №4, P.38-41.
4. Азимова С. М., Мансурова Ф. Х., Джураева Ш. Ф. Современные подходы к лечению различных форм неязвенной диспепсии, Материалы юбилейной конференции посвященной 75-летию акад. АН. РТ. Х. Х. Мансурова, Душанбе, 2000, С. 28-32
5. Репин М.В. Хирургическое лечение хронической дуоденальной непроходимости // Рос.гастроэнтерол. журн., 1999, №4, с. 149
6. Бахаев К.А. Рентгеноэндоскопическая диагностика и лечение желчнокаменной болезни // Вестн. нов. мед. технолог., 2000, Т.7, №1,с.112-114.
7. Булгаков Е.А., Дивилин В.Я., Черныш Т.И. Редкая причина хронической дуоденальной непроходимости // Хирургия, 2001, №5, с.49
8. Чернякевич С. Методики исследования моторной функции желудка и двенадцатиперстной кишки // Врач, 2000, №3, с.23-25
9. Strong E.K. Mechanics of arteriomesentric obstruction and direct surgical artack upon etiology // Am. Surg., 1998, v. 148, № 5, p.725-730.

Резюме

Использование усовершенствованной манометрии в диагностике хронической дуоденальной непроходимости

А.М.Юсубов

Настоящее исследование основано на изучении эффективности усовершенствованной манометрии в диагностике хронической дуоденальной непроходимости на этапах хирургического лечения. Результаты показали высокую эффективность и преимущества указанного способа диагностики для выявления скрытых форм заболевания, а также определить эффективность проведенного лечения.

Summary

By using sophisticated manometry in the diagnosis of chronic duodenal obstruction

A.M.Yusubov

This study is based on a study of the effectiveness of the improved manometry in the diagnosis of chronic duodenal obstruction in the stages of the surgical treatment. The results showed the high efficiency and advantages of this method of diagnosis for detection of latent forms of the disease, and to determine the effectiveness of the treatment.

Daxil olub:19.11.2012

HAMILƏLIYIN HIPERTENZIV VƏZIYYƏTLƏRININ PROFILAKTIKASI VƏ ERKƏN DIAQNOSTIKASININ IMMUNOLOJI ASPEKTLƏRI

M.K. Həsənova, V.O. Hüseynzadə, X.M. Təhmazi, A.F. Əmirova, K.A. Heydərova

Elmi Tədqiqat Mamalıq və Ginekologiya institutu, Bakı

Açar sözlər: hamiləlik, hipertenziya, immunoloji aspektlər, diaqnostika, profilaktika

Ключевые слова: беременность, гипертензия, иммунологические аспекты, диагностика, профилактика

Key words: pregnancy, hypertension, immunological aspects, diagnosis, prevention

Hamiləlik zamanı hipertenziv vəziyyətlər ana ölümünün əsas səbəbləri arasında ikinci yerdə qalmaqdadır. Hər il dünyada 63000-ə yaxın hamilə qadın preeklampsiya və eklampsiyadan dünyasını dəyişir ki, bu da ÜST-nün (2006) məlumatına əsasən ana ölümünün strukturunda 16% təçkil edir.

Müasir ədəbiyyatda immunoloji proseslərin hamiləliyin hipertenziv vəziyyətlərinin nəinki inkişaf etməsində, həmçinin ağırliq dərəcəsinin yaranmasında da rolu barədə məlumat vardır [1, 3].

Preeklampsiyanın müalicəsi çox çətindir. Bununla əlaqədar, müasir etapda preeklampsiyanın öyrənilməsində əsas nailiyyət

preeklampsiyanın klinik əlamətləri özünü biruzə verməzdən əvvəl orqanizmidə baş verən dəyişiklikləri aşkar etmək, profilaktik tədbirlər axtarmaq və preventiv müalicəyə başlamaqdır [4].

Son zamanlar kliniki praktikada təbii auto-AT səviyyəsinə əsaslanaraq ümumi və reproduktiv sağlamlıqda baş verən və ya verə biləcək dəyişiklikləri proqnozlaşdırmaq mümkün olmuşdur. Bu metodun - ELİ-P kompleks (ELİSA –detected Probability of Pathology in Pregnancy) üsulunun tətbiqi ilə hamiləliyin hipertenziv vəziyyətlərinin qarşisini almaq və onunla əlaqədar ağırlaşmaların tezliyini azaltmaq olar [1,2,3].

İŞİN MƏQSƏDİ: hipertenziv vəziyyətdən əziyyət çəkən qadınlarda fərdiləşmiş patoqenetik istiqamətlənmiş müalicə - profilaktik yanaşmanın işlənib hazırlanması.


TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Müayinə və müalicəyə anamnezində hamiləlik dövründə hipertenziv pozğunluq olan 43 pasient cəlb edilmişdir. Anamnezində hipertenziv pozğunluqlar qeyd olunan qadınlar xroniki hipertenziya – 13,9% (6 nəfər), hestasion hipertenziya və preeklampsiya – 86,1% (37 nəfər) olmaqla ayrı-ayrı təhlil olunmuşlar. Hamiləliklə bağlı hipertenziv vəziyyətlərin strukturunda: hestasion hipertenziya - 62,2% (23 nəfər), orta dərəcəli preeklampsiya–29,7% (11nəfər), ağır dərəcəli preeklampsiya – 8,1% (3nəfər) halda qeyd olunmuşdur.

Anamnezində hamiləlik dövründə hipertenziv vəziyyətlər qeyd olunan qadınların yaşı: 35-dən yuxarı – 11,6%; 18-35 arası – 88,4% olmuşdur. Ekstragenital xəstəliklərdən ürək damar sisteminin patologiyası – 4,6%, endokrin – 7%, sidik-ifrazat sistemi patoloğiyası – 4,6% hallarda rast gəlinmişdir.

Kontrol qrup kimi 25 nəfər sağlam hamilə götürülmüşdür.

ALINAN NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ. Aparılan immunoloji müayinələr nəticəsində məlum olmuşdur ki, hamiləlik dövründə hipertenziv pozğunluq zamanı normal immunoqramma - 13,9% (6 qadın), patoloji dəyişikliklər - 86,1% (37 qadın) hallarda müşahidə olunmuşdur. ELİP-testin nəticələrinə əsasən orqanizmin ümumi reaktivliyi dəyərləndirilmişdir: immun sistemin normal vəziyyəti 15 nəfərdə (34,8%), immunoaktivasiya vəziyyəti 8 nəfərdə (18,6%), immunosupressiya vəziyyəti 20 nəfərdə (46,5%) qeyd olunmuşdur.


Hamiləlik dövründə hipertenziv pozğunluqlar qeyd olunan qadınlarda immunoloji markerlərin rastgəlmə tezliyi öyrənilmiş və bu göstəricilər sağlam hamilələrlə (kontrol qrup, n=25) müqayisə edilmişdir (şək.1).




Şək.1. Hipertenziya zamanı immunoloji markerlərin rastgəlmə tezliyi

Şəkildən göründüyü kimi hipertenziv vəziyyətlərin immunoloji markerləri kimi aşağıdakıları qeyd etmək lazımdır: B-2-GP-1 AC, KİM-05 AC, ANCA AC, insulinə qarşı AC,


tireoqlobulinə qarşı AC, kollagenə qarşı AC ($p<0,01$). Müayinələrin nəticələrinin təhlili nəticəsində müəyyən olunmuşdur ki, xroniki hipertenziya zamanı (şək.2) - B2-GP1; TG AC; KİM-05, hestasion hipertenziya və ağır preeklampsiya zamanı isə (şək.3) ANCA-AC; B-2-GP; kollagenə qarşı AC və insulinə qarşı AC üstünlük təşkil etmişdir.



Şək.2. Xroniki hipertenziya zamanı ELİP-test göstəricilərin rastgəlmə tezliyi



Şək.3 Hamiləliklə bağlı hipertenziv vəziyyətlərdə ELİP test göstəricilərinin rastgəlmə tezliyi



Şək.4. Hamiləliklə bağlı hipertenziv vəziyyətlərdə immunoloji markerlərin rastgəlmə tezliyi və preeklampsiyanın ağırlıq dərəcəsi

ELİP-testdə hər hansı göstəricinin səviyyəsində dəyişikliklər aşkar olunduğu halda II mərhələ müayinələri aparılır. Elmi-tədqiqat işi çərçivəsində müayinənin II mərhələsi üçün diaqnostik kompleks işlənib-hazırlanmışdır. II mərhələdə aşağıda qeyd olunan müayinə üsulları tətbiq edilir:

1. B 2-qlikoprotein- koaquloqramma və total kardiolipin, qırmızı qurd eşənəyi (QQE) antikoaqulyantı, d-dimer, trombofiliya üzrə genetik markerlərin təyini.

2. KİM-05 AC - sidiyin ümumi analizi, sidiyin bakterioloji analizi, qanın biokimyəvi analizi (azot qalığı, sidik cövhəri, kreatinin) və böyrəklərin USM.

3. ANCA AC – koaquloqramma, lazım olduqda hematoloqun və damar cərrahının konsultasiyası.

4. İnsulinə-qarşı AC - qanda şəkərin səviyyəsinin təyini, qanda yüklənmədən sonra şəkərin səviyyəsinin təyini. Şəkərli diabet təsdiq edilərsə - endokrinoloqun nəzarəti.

5. Tireoqlobulinə qarşı AC – qalxanvari vəzin funksiyası yoxlanılır: TSH, sərbəst T4. Patologiya aşkar olunduğu halda - endokrinoloqun nəzarəti.

6.Kollagenə qarşı AC – daxili cinsiyyət orqanlarının USM, lazım olduqda histeroskopiya.

Xroniki hipertenziya. Xroniki hipertenziya zamanı ELİP - testdə aşkar olunan dürüst immun dəyişikliklərin (B-2 GP1; TG AC; KİM-05) II mərhələdə kliniki-laborator müayinələrin nəticələri ilə müqayisəli təhlili aparılmışdır. Xroniki hipertenziyalı 6 qadından 5-də (83,3%) Elip testin nəticələri II mərhələnin müayinə kompleksi ilə təsdiqlənmişdir.

Xroniki hipertenziyanın səbəbləri və müalicə prinsipləri. Xroniki pielonefrit- 16,7% (1), xroniki qlomerulonefrit-16,7% (1), tireotoksikoz – 16,7% (1), AFS-33,3% (2), şəkərli diabet-16,7% (1) hallarda rast gəlmişdir. Xroniki hipertenziya zamanı hamiləlikdən öncə nefroloqla, uroloqla, endokrinoloqla birgə əsas xəstəliyin müalicəsi aparılmışdır.

Hamiləlik dövründə əsas xəstəliklərin müalicəsi davam etdililmişdir.

Nəticədə 4 qadının hamiləliyi vaxtında doğuşla, 2 qadının hamiləliyi vaxtından qabaq doğuşla başa çatmışdır.

Hamiləliklə bağlı hipertenziv vəziyyətlər. Hamiləliklə bağlı hipertenziv vəziyyətlərdə kontrol qrupla müqayisədə dürüstlüklə üstünlük təşkil edən immunoloji göstəricilər: B-2-GP-1, ANCA-AC, kollagenə qarşı AC və insulinə qarşı AC –dir. ELİP testin nəticələri II müayinə mərhələsində 79% hallarda (43 nəfərdən 34-də) itəsdiqlənmişdir.

Hamiləliklə bağlı hipertenziv pozğunluqlar zamanı hamiləlikdən öncə müalicə təyin edilmişdir: AFS və trombofiliya zamanı antikoaqulyant terapiya - 12 qadına, antiaqreqant terapiya - 10 qadına təyin edilmişdir. Müalicə hemostazioqrammanın nəzarəti altında hemostaz göstəriciləri normallaşana qədər aparılmışdır. Metabolik sindromlu 8 pasientə pəhriz, fiziki yükləmələr, 3- 6 ay ərzində metformin təyin edilmişdir. Hamiləlik zamanı AFS və trombofiliyalı qadınlara antikoaqulyant və antiaqreqant terapiya hemostazioqrammanın nəzarəti altında davam etdirilmişdir (22 hamilədə), metabolik sindromlu 8 qadın daimi aspirin və Ca-preparatlarının qəbulu ilə yanaşı hamiləliyin hər üçaylığında şəkərə tolerantlıq testindən keçirilmiş onlardan 1-də hestasion diabet aşkarlanmışdır. Bu hamiləyə pəhriz və sonradan insulinoterapiya təyin edilmişdir. Şəkərli diabetli 1 qadın – şəkərin səviyyəsinə nəzarət altında daimi insulinoterapiya almışdır. ELİP-testdə patoloqiya aşkar edilməyən qadınlara daimi aspirin (75-80mg/sut) və Ca-preparatları (1,0 q/sut) təyin edilmişdir. Bütün hamilələrdə I trimestrdən başlayaraq dopplerometriya üsulu ilə uşaqlıq-cift qan dövranının vəziyyətinə dinamik nəzarət aparılmışdır.

Aparılan müalicədən sonra biz aşağıdaki nəticələri əldə etdik: 29 qadında (78,4%) hamiləlik fəsadsız keçmişdir, 8 qadında (21,6%) isə yüngül dərəcəli hestasion hipertenziya və orta dərəcəli preeklampsiya qeyd olunmuşdur. 8 halda hamiləlik vaxtından qabaq doğuşla nəticələnmişdir.

Qeyd etmək lazımdır ki, tədqiqata cəlb edilən qadınların heç birində ağır dərəcəli preeklampsiya müşahidə olunmamışdır, bu da müalicənin düzgün istiqamətdə aparıldığını bildirir. Yekun nəticədə hipertenziv qrupa cəlb olunmuş 43 qadının 33-də (76,7% hallarda) hamiləlik fəsadsız keçmişdir. Bu qrupda perinatal itkilər qeyd olunmamışdır.

ƏDƏBİYYAT

1. Полетаев А.В. Иммунология беременности и эмбритропные антитела. Вестник МЕДСИ. Лекция для практикующих врачей №8, июль-сентябрь 2010, стр. 38-44.

2. Полетаев А.В., Алиева Ф., Мальцева Л.И. Иммунопатология беременности и здоровье ребенка // РМЖ, 2010, 18, 4, 162-167.

3. Макаров О.В., Осипова Н.А., Полетаев А.В. Клиническое значение аутоантител в диагностике гестоза. Медицина XXI век. 2009, 14, 1, 28-32.

4. Мальцева Л.И. Гестоз: Методические рекомендации. Казань, 2006. 51с.

Summary

Early diagnosis of the preeclampsia and recurent pregnanncy of autoimmune antibodies

M.K. Hasanova, V.O. Huseynzade, X.M. Tahmazi, A.F. Amirova, K.A. Heydarova

The main aim of this article is to investigate the necessarity of determination of the level of autoimmune antibodies in pregnant women with the preeclampsia. The high level of some autoimmune antibodies have the neqative influence to the development of the embryo during the early stage of

pregnancy. If the pregnant women have autoimmune desease it is possible that this pregnancy will have difficults in the future. It is important in this type of patients to check the function of the kidneys more often than the healthy pregnant women. It is possible to know the early stage of the desease before clinical signs with using ELIP-test and also to protect the reproductive health of the women.

Резюме

Ранняя диагностика преэклампсии и невынашивания аутоиммунными аутоантителами

М.К.Гасанова, В.О.Гусейнова, Х.М.Тахмази, А.Ф.Амирова, К.А.Гейдарова

Целью проведенного исследования явилось определение уровня аутоиммунных антител у беременных с преэклампсией. Высокий уровень некоторых аутоиммунных аутоантител оказывает негативное влияние на развитие эмбриона на ранних стадиях беременности. Если у беременной женщины повышен уровень аутоиммунных антител, то возможны осложнения при беременности в будующем. Необходимо проверить функцию почек у этих пациенток чаще по сравнению со здоровыми беременными женщинами. При использовании ЭЛИП-теста также возможно определить раннюю стадию заболевания намного раньше проявления клинических признаков, а также сохранить репродуктивное здоровье женщины.

Daxil olub:16.10.2012

QAX RAYON ƏHALİSİ ÜZRƏ SİDİK DAŞLARININ MİNERAL TƏRKİBLƏRİ VƏ ONLARIN YAŞ QRUPLARI ARASINDA TƏHLİL

R.T.Hüseynzadə

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: sidik daşı xəstəliyi (SDX), yaş və cins

Ключевые слова: мочекаменная болезнь, возраст, пол

Key words: urinary stone disease (USD), age, gender

Sidik daşı xəstəliyi (SDX) elmə məlum olan ən qədim xəstəliklərdən biri olaraq bilinir. Miladdan Əvvəl (MƏ) 4800-cü illərdən qalan Misir mumyalarında böyrək və sidik kisəsi daşlarına rast gəlinmişdir. Hipokrat MƏ IV yüzillikdə yazdığı məhşur tibbi təlimində "daş olsa belə kəsməyəcəyəm və bu işi ustasına verəcəyəm" sözü ilə bu xəstəlikdən bəhs etmişdir [8].

SDX istər müşahidə olma tezliyi, istərsə də xəstəliyin yayılması səviyyəsinə görə kişilərdə qadınlara nisbətən 2-4 dəfə qüksəkdir [5,6].

Baker və əməkdaşlarının birgə araşdırmasından alınan nəticədə göstərilir ki, SDX 70% hallarda kişilər arasında müşahidə edilmişdir. Eyni zamanda oksalat mineral duzu tərkibli daşların 73% və urat mineral duzu tərkibli daşların isə 79%-i kişi xəstələrində qeydə alınmışdır. Qadın xəstələri üçün infeksion daşlar daha böyük risk təşkil edir-58% [1].

Kanada da Gaulf və Chafe tərəfindən aparılmış tədqiqatın nəticəsində göstərilir ki, fosfat mineral duzu tərkibli daşlar qadınlar arasınada daha çox yayılmışdır [4].

Baker və əməkdaşlarının birgə araşdırmasından alınan nəticədə göstərilir ki, oksalat mineral duzu tərkibli daşlar 50-60, urat mineral duzu tərkibli daşlar 60-65, infeksion daşlar isə 20-50 (xüsusilə qadınlar arasında) yaş intervallarında daha çox müşahidə olunmuşdur. Eyni zamanda sidik daşlarının 68%-ni oksalat, 17%-ni urat, 12%-ni infeksion və 3%-ni isə fosfat mineral duzu tərkibli daşlar təşkil edir [1].

Lavan və əməkdaşlarının birgə çalışmalarından alınan nəticədə göstərilir ki, tədqiqat qrupuna daxil olan xəstələrin 64%-i kişi olmuş və bunların da 69%-i 20-49 yaş intervalında qeydə alınmışdır [7].

Amerika Birləşmiş Ştatlarında (ABŞ) kişi əhalisi qrupu üzrə aparılan tədqiqatda SDX-i olanların 71.5%-də oksalat, 23.1%-də utar, 5%-də struvit və 0.5%-də isə sistin daşları təyin edilmişdir. Qadın əhalisi qrupu üzrə aparılan tədqiqatda isə SDX-i olanların 86.2%-də oksalat, 11.3%-də urat, 1.3%-də struvit, 1.3%-də isə sistin tərkibli daşlar aşkar olunmuşdur [2,3].

Urat daşları xüsusilə yay (69%) və payız (62%) aylarında daha çox qeydə alınırsa, infeksion daşların yaz (27%) və yay (37%) aylarında müşahidə səviyyəsində azalma müşahidə edilir. Lakin bu o demək deyil ki, SDX-nin formalaşması və yayılma intensivliyi ilə ilin fəsilləri arasında birbaşa əlaqə mövcuddur [1].

Yuxarıdakı istinadlardan da göründüyü kimi SDX-nin mineral duz tərkibinə görə cinslər və yaş qrupları üzrə yayılma səviyyəsi haqda müxtəlif fikirlər mövcuddur. Məhz bu aspekt araşdırdığımız elmi araşdırmanın aktuallığından xəbər verir.

TƏDQIQATIN MƏQSƏDI. Qax rayon əhalisi üzrə tədqiat qrupuna daxil olan SDX-i təyin edilmiş xəstələrdə ilin ayları üzrə daşın aşkarlanan mineral duz tərkibi və onların yaş mərhələləri arasında əlaqənin təhlilini aparmaq əsas məqsədimiz olmuşdur.

TƏDQIQATIN MATERIAL VƏ METODU. Tədqiqat materialı olaraq Qax rayon Mərkəzi Xəstəxanasında 2007-2011-ci illər üzrə stasionar müayinə və müalicə olunmuş SDX olan 82 xəstə təşkil etmişdir. Xəstələrdən 51-i (62.2%) kişi, 31-i isə (37.8%) qadın olmuşdur. Xəstlərin minimum və maksimum yaş həddləri <15 və >71-dür. Ümumi orta yaş 44,6±16,7 olmuşdur. Kişilərin orta yaş həddi 46,9±19,2, qadınların orta yaş həddi isə 40,8±10,65 olaraq təyin edilmişdir. Kişi qadın nisbəti uyğun olaraq 1,64:1 olmuşdur.

Qeyd etməliyik ki, işlənmiş bütün hesablamalar Microsoft Office Excel 2007 və "Statistika 6.0" proqramlarında həyata keçirlir. Hər bir qrup daxilində hesablamaların tərkib hissəsi kimi bir sıra hallarda verilmiş ədədlərin orta ədəd və nisbi xətası hesablanmışdır. Məqalə daxilində tez-tez təkrara yol verilməsin deyə, verilmiş qrup üzrə ədədlərin hesablanmış orta ədəd və nisbi xətası riyazi olaraq qısaldılmış şəkildə qeyd ediləcəkdir: (M±m). Sidik daşlarının mineral duz tərkibi xəstələrin sidiyinin ümumi analizinin nəticələrinə əsasən öyrənilmişdir.

Cədvəl 1
Oksalat mineral duz tərkibli daşı olan xəstələrin yaş qrupları ilə xəstəliyin təzahür etdiyi aylara nəzərən bölgü

Oksalat mineral duzu tərkibli SD-nın aylara görə bölgüsü		Xəstələrin yaş qrupları															
		ümumi		<15		16-30		31-40		41-50		51-60		61-70		>71	
		s	%	**s**	%	S	%	s	%	s	%	s	%	s	%	s	%
Yan	ümumi	8	9.76	**1**	1.22	1	1.22	1	1.22	2	2.44	2	2.44	-	-	1	1.22
	kişi	5	9.8	1	1.96	1	1.96	1	196	1	1.96	-	-	-	-	1	1.96
	qadın	3	9.675	-	-	-	-	-	-	1	3.225	2	6.45	-	-	-	-
Fev	ümumi	2	2.44	-	-	1	1.22	-	-	1	1.22	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	2	6.45	-	-	1	3.225	-	-	1	3.225	-	-	-	-	-	-
Mart	ümumi	4	4.88	-	-	1	1.22	1	1.22	1	1.22	1	1.22	-	-	-	-
	kişi	2	3.92	-	-	1	1.96	-	-	-	-	1	1.96	-	-	-	-
	qadın	2	6.45	-	-	-	-	1	3.225	1	3.225	-	-	-	-	-	-
Apr	ümumi	9	10.98	-	-	-	-	1	1.22	3	3.66	1	1.22	2	2.44	2	2.44
	kişi	6	11.76	-	-	-	-	1	1.96	-	-	1	1.96	2	2..92	2	3.92
	qadın	3	9.675	-	-	-	-	-	-	3	9.675	-	-	-	-	-	-
May	ümumi	3	3.66	-	-	2	2.44	-	-	-	-	1	1.22	-	-	-	-
	kişi	3	5.88	-	-	2	3.92	-	-	-	-	1	1.96	-	-	-	-
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Iyun	ümumi	1	1.22	-	-	-	-	-	-	1	1.22	-	-	-	-	-	-
	kişi		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın		3.225	-	-	-	-	-	-	1	3.225	-	-	-	-	-	-
Iyul	ümumi		6.1	-	-	2	2.44	2	2.44	1	1.22	-	-	-	-	-	-
	kişi		5.88	-	-	1	1.96	1	1.96	1	1.96	-	-	-	-	-	-
	qadın		6.45	-	-	1	3.225	1	3.225	-	-	-	-	-	-	-	-
Avqust	ümumi		1.22	-	-	-	-	-	-	1	1.22	-	-	-	-	-	-
	kişi		1.96	-	-	-	-	-	-	1	1.96	-	-	-	-	-	-
	qadın		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Sent	ümu		4.88	-	-	1	1.22	-	-	-	-		2.44	1	1.22	-	-

	mi																
	kişi		7.84	-	-	1	1.96	-	-	-	-	2	3.92	1	1.96	-	-
	qadın		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Okt	ümumi		2.44	-	-	-	-	-	-	-	-	-	-	2	2.44	-	-
	kişi		3.92	-	-		-	-	-	-	-	-	-		3.92	-	-
	qadın		-	-	-		-	-	-	-	-	-	-		-	-	-
Noy	ümumi		3.66	-	-		-	-	-	1	1.22	1	1.22		1.22	-	-
	kişi		5.88	-	-		-	-	-		1.96	1	1.96		1.96	-	-
	qadın		-	-	-		-	-	-		-	-	-		-		-
Dek	ümumi		4.88	-	-	1	1.22	2	2.44		1.22	-	-		-	-	-
	kişi		1.96			1	1.96	-	-		-	-	-		-	-	-
	qadın		9.675				-	2	6.45		3.225	-	-		-	-	-

Cədvəldə göstərilən bütün faizlər hər bir qrupa daxil olan xəstələrin yalnız öz saylarına nəzərən hesablanmışdır.

Xəstələrin ümumi sayına nəzərən oksalat mineral duz tərkibli daşlar ən çox yanvar (8 xəstə (9.76%) 43.75±19.8 yaş) və aprel (9 xəstə (10.98%) 57.89±15.15 yaş) aylarında digər aylarla müqayisədə xüsusilə üstün olmuşdur. Eyni zamanda yanvar və aprel ayları üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, xəstə sayı yanvar ayında 41-50 (2 xəstə (2.44%) 48.5±0.71 yaş) və 51-60 (2 xəstə (2.44%) 53±1.41 yaş) yaş qruplarında digərləri ilə müqayisədə nisbətən artıq olmuşdursa, aprel ayında 41-50 (3 xəstə (3.66%) 46.33±2.08 yaş) yaş qrupu üzrə daha çox qeydə alınmışdır.

Mart (4 xəstə (4.88%) 40.25±16.74 yaş), iyul (5 xəstə (6.1%) 34.8±9.12 yaş), sentyabr (4 xəstə (4.88%) 50±16.63 yaş) və dekabr (4 xəstə (4.88%) 32±12.25 yaş) ayları üzrə oksalat mineral duz tərkibli daş müşahidəsi ümumi saya nəzərən ikinci sırada yer alır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: mart ayında 16-30, 31-40, 41-50 və 51-60 yaş qruplarında hər birində 1 xəstə (1.22%); iyul ayındakı yaş qrupları üzrə 16-30 2 xəstə (2.44%) , 31-40 2 xəstə (2.44%) və 41-50 1 xəstə (1.22%); sentyabr ayındakı yaş qrupları üzrə 16-30 1 xəstə (1.22%) , 51-60 2 xəstə (2.44%) və 61-70 1 xəstə (1.22%); dekabr ayındakı yaş qrupları üzrə 16-30 1 xəstə (1.22%) , 31-40 2 xəstə (2.44%) və 41-50 1 xəstə (1.22%).

Oksalat mineral duz tərkibli daşı olan xəstələrə ümumi baxdıqda, 16-30 (9 xəstə (10.97%) və 41-50 (12 xəstə(14.63%) yaş qruplarında digər qruplara nisbətən daha çox, 31-40 (7 xəstə (8.54%), 51-60 (8 xəstə (9.76%) və 61-70 (6 xəstə (7.32%) yaş qruplarında isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda isə ya minimum sayda xəstə olmuş, ya da heç olmamışdır.

Xəstələrin ümumi sayına nəzərən okslat mineral duz tərkibli daşlar 56.03% təşkil etmişdir.

Kişi xəstələrinin sayına nəzərən oksalat mineral duz tərkibli daşlar ən çox yanvar (5 xəstə (9.8%) 39±24.7 yaş) və aprel (6 xəstə (10.98%) 63.67±15.67 yaş) aylarında digər aylarla müqayisədə xüsusilə üstün olmuşdur. Eyni zamanda yanvar və aprel ayları üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, yanvar ayında <15, 16-30, 31-40, 41-50 və >71 yaş qruplarının hər birində 1 xəstə (1.96%) olmaqla bərbər say olmuşdursa, aprel ayında 61-70 (2 xəstə (3.92%) və >71 (2 xəstə (3.92%) yaş qruplarında digərləri ilə müqayisədə nisbi üstünlük qeydə alınmışdır.

Kişi xəstələrində oksalat mineral duz tərkibli daşların müşahidə sayında sentyabr (4 xəstə (7.84%) 50±16.63 yaş) ayı ikinci sırada yer alır. Göstərilən ay üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: sentyabr ayındakı yaş qrupları üzrə 16-30 1 xəstə (1.96%) , 51-60 2 xəstə (3.92%) və 61-70 1 xəstə (1.96%).

Oksalat mineral duz tərkibli daşı olan kişi xəstələrinə ümumi baxdıqda, 16-30 (7 xəstə (13.7%), 51-60 (6 xəstə (11.76%) və 61-70 (6 xəstə (11.76%) yaş qruplarında digər qruplara nisbətən daha çox, 31-40 (4 xəstə (7.84%) yaş qrupunda isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda isə ya minimum sayda xəstə olmuş, ya da heç olmamışdır.

Kişi xəstələrinin ümumi sayına nəzərən oksalat mineral duz tərkibli daşlar 58.80% təşkil etmişdir.

Qadın xəstələrin sayına nəzərən oksalat mineral duz tərkibli daşlar ən çox yanvar (3 xəstə (9.675%) 51.67±2.52 yaş), aprel (3 xəstə (9.675%) 46.33±2.08 yaş) və dekabr (3 xəstə (9.675%) 37±8.66 yaş) aylarında digər aylarla müqayisədə xüsusilə üstün olmuşdur. Eyni zamanda yanvar və aprel ayları üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, yanvar ayında 51-60 (2 xəstə (6.45%)

53±1.41 yaş), aprel ayında 41-50 (3 xəstə (9.675%) 46.33±2.08 yaş), dekabr ayında isə 31-40 (3 xəstə (9.675%) 37±8.66 yaş) yaş qruplarında digərləri ilə müqayisədə tam üstünlük qeydə alınmışdır.

Qadın xəstələrində oksalat mineral duz tərkibli daşların müşahidə sayında fevral (2 xəstə (6.45%) 35.5±13.43 yaş), mart (2 xəstə (6.45%) 43±7.07 yaş) və iyul (2 xəstə (6.45%) 30±7.07 yaş) ayları ikinci sırada yer alır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: fevral ayındakı yaş qrupları üzrə 16-30 (1 xəstə (3.225%) , 41-50 (1 xəstə (3.225%); mart ayındakı yaş qrupları üzrə 31-40 (1 xəstə (3.225%) , 41-50 (1 xəstə (3.225%); iyul ayındakı yaş qrupları üzrə 16-30 (1 xəstə (3.225%) , 31-40 (1 xəstə (3.225%).

Oksalat mineral duz tərkibli daşı olan qadın xəstələrinə ümumi baxdıqda, 31-40 (4 xəstə (12.9%) və 41-50 (8 xəstə (25.81%) yaş qruplarında digər qruplara nisbətən daha çox, 16-30 (2 xəstə (6.45%) və 51-60 (2 xəstə (6.45%) yaş qruplarında isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda xəstə olmamışdır.

Qadın xəstələrinin ümumi sayına nəzərən okslat mineral duz tərkibli daşlar 51.60% təşkil etmişdir.

Cədvəl 2

Urat mineral duz tərkibli daşı olan xəstələrin yaş qrupları ilə xəstəliyin təzahür etdiyi aylara nəzərən bölgü

Urat mineral duzu tərkibli SD-nın aylara görə bölgüsü		Xəstələrin yaş qrupları															
		Ümum		<15		16-30		31-40		41-50		51-60		61-70		>71	
		s	%	s	%	s	%	s	%	s	%	s	%	s	%	s	%
Yanvar	üm	*2*	*2.44*	-	-	-	-	*1*	*1.22*	-	-	*1*	*1.22*	-	-	-	-
	kişi	*2*	*3.92*	-	-	-	-	*1*	*1.96*	-	-	*1*	*1.96*	-	-	-	-
	qad	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Fevral	üm	*2*	*2.44*	-	-	*1*	*1.22*	-	-	-	-	-	-	-	-	*1*	*1.22*
	kişi	*2*	*3.92*	-	-	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	*1*	*1.96*
	qad	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Mart	üm	*2*	*2.44*	-	-	-	-	-	-	*1*	*1.22*	*1*	*1.22*	-	-	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	*1*	*1.96*	-	-	-	-
	qadı	*1*	*3.225*	-	-	-	-	-	-	*1*	*3.225*	-	-	-	-	-	-
Aprel	üm	*1*	*1.22*	-	-	-	-	-	-	*1*	*1.22*	-	-	-	-	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	*1*	*1.96*	-	-	-	-	-	-	-	-
	qadı	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
May	ümu	*2*	*2.44*	-	-	-	-	*1*	*1.22*	-	-	*1*	*1.22*	-	-	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	*1*	*1.96*	-	-	-	-
	qad	*1*	*3.225*	-	-	-	-	*1*	*3.225*	-	-	-	-	-	-	-	-
Iyun	üm	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qad	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Iyul	üm	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qad	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Avqust	üm	*3*	*3.66*	-	-	-	-	*1*	*1.22*	*1*	*1.22*	-	-	-	-	*1*	*1.22*
	kişi	*3*	*5.88*	-	-	-	-	*1*	*1.96*	*1*	*1.96*	-	-	-	-	*1*	*1.96*
	qadı	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Sentyabr	üm	*3*	*3.66*	-	-	*2*	*2.44*	-	-	*1*	*1.22*	-	-	-	-	-	-
	kişi	*3*	*5.88*	-	-	*2*	*3.92*	-	-	*1*	*1.96*	-	-	-	-	-	-
	qad	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Oktyabr	üm	*4*	*4.88*	-	-	*1*	*1.22*	*1*	*1.22*	*1*	*1.22*	*1*	*1.22*	-	-	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	*1*	*1.96*	-	-	-	-
	qad	*3*	*9.675*	-	-	*1*	*3.225*	*1*	*3.225*	*1*	*3.225*	-	-	-	-	-	-
Noyabr	üm	*2*	*2.44*	-	-	*1*	*1.22*	-	-	-	-	-	-	*1*	*1.22*	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	-	-	*1*	*1.96*	-	-
	qad	*1*	*3.225*	-	-	*1*	*3.225*	-	-	-	-	-	-	-	-	-	-
Dekabr	ümu	*2*	*2.44*	*1*	*1.22*	*1*	*1.22*	-	-	-	-	-	-	-	-	-	-
	kişi	*2*	*3.92*	*1*	*1.96*	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	-	-

	qad.	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-

Cədvəl üzrə nəticələri ümumiləşdirsək, oksalat tərkibli daşı olan xəstələrin yaş tipləri və ilin ayları səbəbinədən yüksək olduğu qrupları aşağıdakılardır: 1) aylara görə bölgü: a) ümumi xəstə sayına nəzərən yanvar və aprel ayları; b) kişi xəstələrində yanvar və aprel ayları; c) qadın xəstələrində yanvar, aprel və dekabr ayları. 2) yaş qruplarına görə bölgü: a) ümumi xəstə sayına nəzərən 16-30 və 41-50 yaş qrupları; b) kişi xəstələrində 16-30, 51-60, 61-70 yaş qrupları; c) qadın xəstələrində 31-40 və 41-50 yaş qrupları.

Cədvəldə göstərilən bütün faizlər hər bir qrupa daxil olan xəstələrin yalnız öz saylarına nəzərən hesablanmışdır.

Yanvar *(2 xəstə (2.44%) 44.5±9.19 yaş),* fevral *(2 xəstə (2.44%) 48±36.77 yaş),* mart *(2 xəstə (2.44%) 49±7.07 yaş)*, may *(2 xəstə (2.44%) 46.5±13.43 yaş)*, noyabr *(2 xəstə (2.44%) 48±28.28 yaş)* və dekabr *(2 xəstə (2.44%) 22.5±10.6 yaş)*. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: yanvar ayında 31-40 və 51-60 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; fevral ayında 16-30 və >71 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; mart ayında 41-50 və 51-60 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; may ayında 31-40 və 51-60 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; noyabr ayında 16-30 və 61-70 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; dekabr ayında <15 və 16-30 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*.

Urat mineral duz tərkibli daşı olan xəstələrə ümumi baxdıqda, 16-30 *(6 xəstə(7.32%)* və 31-40 *(5 xəstə (6.09%)* yaş qruplarında digər qruplara nisbətən daha çox, 41-50 *(4 xəstə (4.88%)* və 51-60 *(4 xəstə (4.88%)* yaş qruplarında isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda isə ya minimum sayda xəstə olmuş, ya da heç olmamışdır.

Xəstələrin ümumi sayına nəzərən urat mineral duz tərkibli daşlar 28.06% təşkil etmişdir.

Kişi xəstələrinin sayına nəzərən urat mineral duz tərkibli daşlar ən çox avqust *(3 xəstə (5.88%) 52.67±25.15 yaş)* və sentyabr *(3 xəstə (5.88%) 30±15.72 yaş)* aylarında digər aylarla müqayisədə nisbətən üstün olmuşdur. Eyni zamanda avqust və sentyabr ayları üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, avqust ayında 31-40 və 41-50 yaş qruplarının hər birində 1 xəstə *(1.96%)*, sentyabr ayında 16-30 *2 xəstə (3.92%) və* 41-50 *1 xəstə (1.96%)*.

Kişi xəstələrində urat mineral duz tərkibli daşların müşahidə sayında yanvar *(2 xəstə (3.92%) 44.5±9.19 yaş)*, fevral *(2 xəstə (3.92%) 48±36.77 yaş)* və dekabr *(2 xəstə (3.92%) 22.5±10.61 yaş)* ayı ikinci sırada yer alır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: yanvar ayında 31-40 və 51-60 yaş qruplarının hər birində 1 xəstə *(1.96%)*, fevral ayında 16-30 və >71 yaş qruplarının hər birində 1 xəstə *(1.96%)*, fevral ayında <15 və 16-30 yaş qruplarının hər birində 1 xəstə *(1.96%)*.

Xəstələrin ümumi sayına nəzərən urat mineral duz tərkibli daşlar ən çox avqust (3 xəstə (3.66%) 52.67±25.14 yaş), sentyabt (3 xəstə (3.66%) 30±15.72 yaş) və oktyabr (4 xəstə (4.88%) 40.5±14.48 yaş) aylarında digər aylarla müqayisədə nisbətən üstün olmuşdur. Eyni zamanda avqust, sentyabr və oktyabr ayları üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, avqust ayında 31-40, 41-50 və >71 yaş qruplarında hər birində 1 xəstə (1.22%); sentyabr ayında yaş qrupları üzrə: 16-30 (2 xəstə (2.44%), 41-50 (1 xəstə (1.22%); oktyabr ayında yaş qrupları üzrə: 16-30, 31-40, 41-50 və 51-60 yaş qruplarında hər birində 1 xəstə (1.22%).

Urat mineral duz tərkibli daşı olan kişi xəstələrinə ümumi baxdıqda, 16-30 *(4 xəstə (7.84%)* və 51-60 *(4 xəstə (7.84%)* yaş qruplarında digər qruplara nisbətən çox, 31-40 *(3 xəstə (5.88%)* yaş qrupunda isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda isə ya minimum sayda xəstə olmuş, ya da heç olmamışdır.

Kişi xəstələrinin ümumi sayına nəzərən urat mineral duz tərkibli daşlar 33.32% təşkil etmişdir.

Qadın xəstələrinin sayına nəzərən urat mineral duz tərkibli daşlar ən çox oktyabr *(3 xəstə (9.675%) 34.67±10.5 yaş)* ayında digər aylarla müqayisədə xüsusilə üstün olmuşdur. Eyni zamanda oktyabr ayı üzrə 16-30, 31-40 və 41-50 yaş qrupları üzrə hər qrupda 1 xəstə *(3.225%)* olmuşdur.

Qadın xəstələrində urat mineral duz tərkibli daşların müşahidə sayında mart *(1 xəstə (3.225%),* may *(1 xəstə (3.225%)* və noyabr *(1 xəstə (3.225%)* ayları ikinci sırada yer alır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: mart ayındakı yaş qrupları üzrə 41-50 *(1 xəstə-3.225%);* may ayındakı yaş qrupları üzrə 31-40 *(1 xəstə-3.225%);* noyabr ayındakı yaş qrupları üzrə 16-30 *(1 xəstə-3.225%)*.

Urat mineral duz tərkibli daşı olan qadın xəstələrinə ümumi baxdıqda, 16-30, 31-40 və 41-50 yaş qruplarında hər birində *2 xəstə (6.45%)* olmuşdur. Digər qruplarda xəstə olmamışdır.

Qadın xəstələrinin ümumi sayına nəzərən urat mineral duz tərkibli daşlar 19.35% təşkil etmişdir.

Cədvəl üzrə nəticələri ümumiləşdirsək, urat tərkibli daşı olan xəstələrin yaş tipləri və ilin ayları səbəbinədən yüksək olduğu qrupları aşağıdakılardır: 1*) aylara görə bölgü:* a) ümumi xəstə sayına nəzərən avqust, sentyabr və oktyabr ayları; b) kişi xəstələrində avqust və sentyabr ayları; c) qadın xəstələrində oktyabr ayı. *2) yaş qruplarına görə bölgü:* a) ümumi xəstə sayına nəzərən 16-30 və 31-40 yaş qrupları; b) kişi xəstələrində 16-30 və 51-60 yaş qrupları; c) qadın xəstələrində 16-30, 31-40 və 41-50 yaş qrupları.

Cədvəldə göstərilən bütün faizlər hər bir qrupa daxil olan xəstələrin yalnız öz saylarına nəzərən hesablanmışdır.

Xəstələrin ümumi sayına nəzərən fosfat mineral duz tərkibli daşı olan xəstə sayı iyun *(3 xəstə (3.66%)*

29.33±16.92 yaş) ayında digər aylarla müqayisədə nisbətən üstün olmuşdur. Eyni zamanda iyun ayı üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, <15, 16-30 və 41-50 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)* olmuşdur.

Fevral *(2 xəstə (2.44%) 32±0 yaş),* iyul *(2 xəstə (2.44%) 60.5±13.43 yaş),* oktyabr *(2 xəstə (2.44%) 51±12.73 yaş)*, noyabr *(2 xəstə (2.44%) 60±15.56 yaş)* ayları üzrə nisbətən az sayda xəstə qeydə alınmışdır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: fevral ayında 31-40 qrupunda 2 xəstə *(2.44%)*; iyul ayında 51-60 və 61-70 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; oktyabr ayında 41-50 və 51-60 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*; noyabr ayında 41-50 və >71 yaş qruplarında hər birində 1 xəstə *(1.22%)*.

Fosfat mineral duz tərkibli daşı olan xəstələrə ümumi baxdıqda, 41-50 *(5 xəstə (6.09%)* yaş qrupunda digər qruplara nisbətən daha çox, 31-40 *(2 xəstə (2.44%)* və 51-60 *(2 xəstə (2.44%)* yaş qruplarında isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda isə ya minimum sayda xəstə olmuş, ya da heç olmamışdır.

Xəstələrin ümumi sayına nəzərən urat mineral duz tərkibli daşlar 15.86% təşkil etmişdir.

Kişi xəstələrinin sayına nəzərən fosfat mineral duz tərkibli daşı olan xəstə sayı fevral *(2 xəstə (3.92%) 32±0 yaş)* ayında digər aylarla müqayisədə nisbətən üstün olmuşdur. Eyni zamanda fevral ayı üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə yalnız 31-40 yaş qrupunda 2 xəstə *(3.92%)* olmuşdur.

İyul və noyabr ayları hər birində 1 xəstə *(1.96%)* olmaqla xəstə sayına görə ikinci sarıda yer alır. Göstərilən aylar üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: iyul ayında 61-70 yaş qrupunda 1 xəstə *(1.96%)*, noyabr ayında >71 yaş qrupunda 1 xəstə *(1.96%)*.

Fosfat mineral duz tərkibli daşı olan kişi xəstələrinə ümumi baxdıqda, 31-40 *(2 xəstə (3.92%)* yaş qrupunda digər qruplara nisbətən çox, 61-70 və >71 yaş qruplarında hər birində *1 xəstə (1.96%)* olmaqla isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda xəstə olmamışdır.

Kişi xəstələrinin ümumi sayına nəzərən fosfat mineral duz tərkibli daşlar 7.84% təşkil etmişdir.

Qadın xəstələrinin sayına nəzərən fosfat mineral duz tərkibli daşlar digər aylarla müqayisədə nisbətən daha çox iyun *(3 xəstə (9.675%) 29.33±16.92 yaş)* ayında olmuşdur. Eyni zamanda iyun ayı üzrə xəstə müşahidəsinin yaş qruplarına nəzərən bölgüsünə gəldikdə, <15, 16-30 və 41-50 yaş qruplarında hər birində *1 xəstə (3.225%)* qeydə alınmışdır.

Cədvəl 3

Fosfat mineral duz tərkibli daşı olan xəstələrin yaş qrupları ilə xəstəliyin təzahür etdiyi aylara nəzərən bölgü

Fosfat mineral duzu tərkibli SD-nın aylara görə bölgüsü		Xəstələrin yaş qrupları															
		ümumi		<15		16-30		31-40		41-50		51-60		61-70		>71	
		s	%	s	%	s	%	s	%	s	%	s	%	s	%	s	%
Yanvar	Üm.	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Fevral	üm	*2*	*2.44*	-	-	-	-	*2*	*2.44*	-	-	-	-	-	-	-	-
	kişi	*2*	*3.92*					*2*	*3.92*								
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Mart	üm	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Aprel	üm	*1*	*1.22*	-	-	-	-	-	-	*1*	*1.22*	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	*1*	*3.225*	-	-	-	-	-	-	*1*	*3.225*	-	-	-	-	-	-
May	üm	*1*	*1.22*	-	-	-	-	-	-	*1*	*1.22*	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	*1*	*3.225*	-	-	-	-	-	-	*1*	*3.225*	-	-	-	-	-	-
Iyun	üm	*3*	*3.66*	*1*	*1.22*	*1*	*1.22*			*1*	*1.22*						
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	*3*	*9.675*	*1*	*3.225*	*1*	*3.225*	-	-	*1*	*3.225*	-	-	-	-	-	-
Iyul	üm	*2*	*2.44*	-	-	-	-	-	-	-	-	*1*	*1.22*	*1*	*1.22*	-	-
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	-	-	*1*	*1.96*	-	-
	qadın	*1*	*3.225*	-	-	-	-	-	-	-	-	*1*	*3.225*	-	-	-	-
Avqust	üm	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
Sentyabr	üm	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-

Oktyabr	üm	*2*	*2.44*	-	-	-	-	-	-	*1*	*1.22*	*1*	*1.22*	-	-	-	-
	kişi	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın	*2*	*6.45*	-	-	-	-	-	-	*1*	*3.225*	*1*	*3.225*	-	-	-	-
Noyabr	üm	*2*	*2.44*	-	-	-	-	-	-	*1*	*1.22*	-	-	-	-	*1*	*1.22*
	kişi	*1*	*1.96*	-	-	-	-	-	-	-	-	-	-	-	-	*1*	*1.96*
	qadın		*3.225*	-	-	-	-	-	-	*1*	*3.225*	-	-	-	-	-	-
Dekabr	üm		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	kişi		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-
	qadın		-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-	-

Qadın xəstələrində fosfat mineral duz tərkibli daşların müşahidə sayına görə oktyabr ayı *2 xəstə (6.45%) 51±12.73 yaş)* ilə ikinci sırada yer alır. Göstərilən ay üzrə xəstə müşahidəsinin yaş qruplarına görə bölgüsü: oktyabr ayındakı yaş qrupları üzrə 41-50 və 51-60 yaş qruplarında hər birində *1 xəstə* (*3.225%)*.

Fosfat mineral duz tərkibli daşı olan qadın xəstələrinə ümumi baxdıqda 41-50 *(5 xəstə (16.13%)* yaş qrupunda digər qruplara nisbətən daha çox, 51-60 *(2 xəstə (6.45%)* yaş qruplarında isə nisbətən az sayda xəstə qeydə alınmışdır. Digər qruplarda ya minimum sayda xəstə olmuş, ya da heç xəstə olmamışdır.

Qadın xəstələrinin ümumi sayına nəzərən fosfat mineral duz tərkibli daşlar 29.03% təşkil etmişdir.

Cədvəl üzrə nəticələri ümumiləşdirsək, fosfat tərkibli daşı olan xəstələrin yaş tipləri və ilin ayları səbəbinədən yüksək olduğu qrupları aşağıdakılardır: 1*) aylara görə bölgü:* a) ümumi xəstə sayına nəzərən iyun ayları; b) kişi xəstələrində fevral ayları; c) qadın xəstələrində iyun ayları. *2) yaş qruplarına görə bölgü:* a) ümumi xəstə sayına nəzərən 41-50 yaş qrupları; b) kişi xəstələrində 31-40 yaş qrupları; c) qadın xəstələrində 41-50 yaş qrupları.

Yekun nəticə aşağıdakı qruplarda ümumiləşmiş şəkildə göstərilmişdir:

1) Ümumi xəstə qrupunda sidik daşlarının mineral tərkibinə görə oksalat 56.03%, urat 28.06% və fosfat 15.86%-dir.

2) Kişi xəstələri qrupunda sidik daşlarının mineral tərkibinə görə oksalat 58.80%, urat 33.32%, fosfat 7.84%-dir.

3) Qadın xəstələri qrupunda sidik daşlarının mineral tərkibinə görə oksalat 51.60%, urat 19.35%, fosfat 29.03%-dir.

4) Ümumi xəstə sayına nəzərən SDX-nin mineral duz tərkibi və ilin aylarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: yanvar və aprel ayları; b) urat: avqust, sentyabr və oktyabr ayları; c) fosfat: iyun ayı.

5) Ümumi olaraq kişi xəstələrinə nəzərən SDX-nin mineral duz tərkibi və ilin aylarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: yanvar və aprel ayları; b) ura: avqust və sentyabr ayları; c) fosfat: fevral ayı.

6) Ümumi olaraq qadın xəstələrinə nəzərən SDX-nin mineral duz tərkibi və ilin aylarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: yanvar, aprel və dekabr ayları; b) ura: oktyabr ayı; c) fosfat: iyun ayı.

7) Ümumi xəstə sayına nəzərən SDX-nin mineral duz tərkibi və yaş qruplarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: 16-30 və 41-50 yaş qrupları; b) urat: 16-30 və 31-40 yaş qrupları; c) fosfat: 41-50 yaş qrupu.

8) Ümumi olaraq kişi xəstələrinə nəzərən SDX-nin mineral duz tərkibi və yaş qruplarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: 16-30, 51-60 və 61-70 yaş qrupları; b) urat: 16-30 və 51-60 yaş qrupları; c) fosfat: 31-40 yaş qrupu.

9) Ümumi olaraq qadın xəstələrinə nəzərən SDX-nin mineral duz tərkibi və yaş qruplarına görə daha çox müşahidə olunma səviyyəsi: a) oksalat: 31-40 və 41-50 yaş qrupları; b) urat: 31-40 və 41-50 yaş qrupları; c) fosfat: 41-50 yaş qrupu.

Tədqiqatda alınan bütün nəticələr beynəlxalq məlumatlarla uyğunluq təşkil edir. Beləliklə tədqiqatdan son çıxarış olaraq deyə bilərik ki, SDX-nin istər xəstələrin yaş tipləri, istər mineral duz tərkibi, istərsə də ilin ayları üzrə tədqiqatı mühüm elmi əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Baker P.W., Coyle P., Bais R. et al. Influence of season, age, and sex on renal stone formation in South Australia // Med. J. Aust., 1993, v.159, p.390–92.

2. Curhan G.C., Willett W.C., Speizer F.E. et al. Comparison of dietary calcium with supplemental calcium and other nutrients as factors affecting the risk for kidney stones in women // Ann. Intern. Med, 1997, v.126, p.497–504.

3. Curhan G.C., Willett W.C., Rimm E.B. et al. A prospective study of dietary calcium and other nutrients and the risk of symptomatic kidney stones // N. Engl. J. Med., 1993, v.328, p.833–8.

4. Gault M.H., Chafe L. Relationship of frequency, age, sex, stone weight and composition in 15 624 stones: Comparison of results for 1980 to 1983 and 1995 to 1998 // J. Urol, 2000, v.164, p.302–7.

5. Hiatt R.A., Dales L.G., Friedman G.D. et al. Frequency of urolithiasis in a prepaid medical care program // Am. J. Epidemiol., 1982, v.115, p.255–65.

6. Johnson C.M., Wilson D.M., O'Fallon W.M. et al. Renal stone epidemiology:A 25 year study in Rochester, Minnesota // Kidney Int. 1979, v.16, p.624–31.

7. Lavan J.N., Neale F.C., Posen S. Urinary calculi: Clinical, biochemical and radiological studies in 619 patients //Med. J. Aust., 1971, v.2, p.1049–61.

8. Menon M., Resnick M.I. Urinary Lithiasis: etiology, diagnosis, and medical management. Campbell's Urology, Editor-in-chief: Patrick C. Walsh. Sounders, 2002, 8. Baskı, 96. Bölüm.

Резюме

Минеральные составов мочекамней и их распределение по возрасту среди населении Кахского района

Р.Т.Гусейнзаде

Целью исследования явилось определение минеральных составов мочекамней и их распределение по возрасту среди населении Кахского района. В исследование вошли 82 больных мочекаменными болезнями из Кахского района в 2007- 2011 года. Из них 51(62.2%) были мужчинами, 31 (37.8%) женщинами. Минимальный и максимальные возрастные значение были <15 и >71 лет. Среднее возрастное значение 40,8±10,65 лет. По результатам исследований было выявлено население Кахского района имеет особое значение по мочекаменным болезням учитывая минерального состава солей и возрастных групп.

Summary

Mineral compositions urolithiasis and age distribution of the population of the district Kakh

R.T.Guseynzade

The aim of the study was to determine the mineral composition urolithiasis and age distribution of the population Kakhi district. The study included 82 patients with urolithiasis of Kakhi region in 2007 - 2011. Of these, 51 (62.2%) were men, 31 (37.8%) women. The minimum and maximum age value was <15 and> 71 years. The mean age value of 40,8 ± 10,65 years. According to the research found people Kakhi region is of particular importance for urolithiasis given mineral salt composition and age groups.

Daxil olub:01.10.2012

КОЛОРЕКТАЛЬНЫЕ АНАСТОМОЗЫ ПРИ ЛЕЧЕНИИ РАННИХ ФОРМ РАКА ПРЯМОЙ КИШКИ

З.А.Меджидов

Санкт-Петербургский государственный педиатрический университет

Açar sözlər: düz bağırsağın xərçəngi, kolorektal anastomozlar.
Ключевые слова: рак прямой кишки, колоректальные анастомозы
Key words: cancer of a rectum, colorectal anastomoses.

В последние годы отмечается увеличение количества больных с опухолевыми заболеваниями толстой кишки. Ежегодно в мире диагностируется около 1 миллиона больных колоректальным раком. При этом тенденция роста заболеваемости раком толстой кишки продолжается [5, 9].

Рак прямой кишки составляет 2-10% общего числа злокачественных новообразований человека и около 40% опухолей всей толстой кишки [7].

Основным методом радикального лечения рака прямой кишки является хирургический, направленный на удаление первичной опухоли и регионарных лимфатических узлов [1].

Современные требование к хирургическим вмешательствам при раке прямой кишки чрезвычайно высоки. В качестве одной из целей оперативного лечения, наряду с безусловным соблюдением онкологических принципов, рассматривается сохранение сфинктерного аппарата прямой кишки [8,10].

Расширение показаний к сфинктерсохраняющим вмешательствам является наиболее очевидной тенденцией в современной хирургии рака прямой кишки [4].

За последние 10 лет соотношение экстирпаций прямой кишки и сфинктерсохраняющих операций стойко изменились в пользу последних. Это связано с усовершенствованием техники операций, успехами анестезиологии и реаниматологии [6].

Сохранение сфинктерного аппарата прямой кишки достигается созданием анастомозов с дистальными отделами прямой кишки. Формирование анастомоза выполняют как ручным способом, так и с помощью сшивающих аппаратов [3]. В связи с внедрением в практику новых сшивающих аппаратов количество сфинктерсохраняющих операций при раке прямой кишки значительно увеличилось. Как правило, при этом ссылаются на хорошие непосредственные результаты [5]. Действительно,

функциональные результаты таких операций хорошие, но они не всегда являются достаточно радикальными, так как при этих операциях не всегда удаляется полностью параректальная клетчатка вместе с лимфоузлами. Это подтверждается частыми местными рецидивами рака, которые встречаются у 30% больных, оперированных таким способом [2,11, 12]. Поэтому проблема выработки показаний и формулирования условий выполнения сфинктерсохраняющих операций становится актуальной.

ЦЕЛЬ ИССЛЕДОВАНИЯ. Улучшение результатов лечения рака прямой кишки путем разработки показаний, противопоказаний и условий выполнения сфинктеросохраняющих операций, с учетом особенностей патологического процесса и современных возможностей проведения операций.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. В клинике за период с 1997 по 2005 годы оперировано 260 больных раком прямой кишки различной локализации. Из них 105 (40%) больным была выполнена сфинктерсохраняющая операция. Мужчин было 52 (49%), женщин 53 (51%). Средний возраст больных составил 64±1 года.

В зависимости от расположения опухоли в прямой кишке больные разделились следующим образом. У 22 (21%) больных опухоль локализовалась в ректосигмоидном отделе толстой кишки, у 31 (29,5%) - в верхне-ампулярном, у 32 (30,5%) в среднеампулярном, у 19 (18%) в нижнеампулярном.

По данным гистологического исследования операционного препарата у 94 (89,5%) больных выявлена аденокарцинома различной степени дифференцировки.

Сфинктерсохраняющие операции выполнены у 68 (65%) больных в III стадии; у 18 (17%) - во II; у 19 (18%) больных - в I.

Внутрибрюшная резекция прямой кишки с формированием колоректального анастомоза ручным способом выполнена у 39 (37%) больных. Внутрибрюшная резекция прямой кишки с применением сшивающего аппарата произведена у 21 (20%) больного; брюшно-анальная резекция прямой кишки с низведением ободочной кишки у 37 (35%), брюшно-анальная резекция прямой кишки с низведением проксимального отрезка прямой кишки у 5 (5%), трансанальное иссечение опухоли прямой кишки у 3 (3%).

Брюшно-анальная резекция прямой кишки с низведением выполнялась по разработанной нами методике. Основные отличия между традиционной и разработанной нами методикой брюшно-анальной резекции прямой кишки с низведением заключались в следующем.

1. При традиционной методике мобилизованную прямую и сигмовидную кишку вместе с опухолью проводят через узкий анальный канал с сохранением наружного сфинктера. При этом повышается давление в венах и лимфатических протоках кишки, что способствует обсеменению опухолевыми клетками, как стенок таза, так и самой низведенной кишки. Это приводит к развитию местного рецидива и переносу опухолевых клеток на другие органы. В разработанной нами методике мобилизованная кишка выше опухоли прошивается аппаратом и пересекается. Таким образом, через анальный канал первоначально удаляется только прямая кишка с опухолью, то есть значительно меньший объем тканей. Это снижает риск повышения давления в венах и лимфатических сосудах и уменьшает возможность распространении опухолевых клеток.

2. При традиционной методике есть опасность повреждения краевого сосуда низводимой сигмовидной кишки в момент ее мобилизации в малом тазу. Такая же реальная опасность повреждения краевого сосуда низводимой сигмовидной кишки возникает при проведении большого объема тканей, включая сигмовидную и прямую кишку с опухолью, через узкий анальный канал. В нашей методике низведение сигмовидной кишки проводят после удаления препарата. При этом низведение кишки производится свободно, без риска повредить краевой сосуд в момент проведения через анальный канал.

Принимая во внимание полученные данные, свидетельствующие о снижении концентрации сывороточного IFN-γ в периоде обострения БА независимо от тяжести и давности заболевания, возраста обследованных детей, наличия у них отягощенной по аллергии наследственности, мы считаем, что в периоде обострения БА возможно нарушение продукции IFN-γ Th1-клетками. Данный факт приводит к недостаточному синтезу IFN-γ клетками-продуцентами. Возможно также, что активация макрофагального звена иммунитета, имеющая место при обострении БА может приводить к повышению продукции макрофагами веществ, ингибирующих синтез IFN-γ. Данные нарушения интерфероногенеза согласно проведенному исследованию не зависят от клинических и анамнестических параметров и имеют место у любого ребенка, страдающего БА.

Учитывая супрессирующее действие IFN-γ на синтез сывороточного иммуноглобулина Е (IgE), являющегося маркером атопического процесса, можно предположить, что дефицит IFN-γ обуславливает развитие выраженного атопического воспаления, и как следствие, тяжелого течения БА.

Следовательно, сниженное содержание сывороточного IFN-γ при БА у детей, играющего в этом случае роль противовоспалительного агента, может служить одним из факторов, предрасполагающих к развитию обострений заболевания и его прогрессирования.

ЛИТЕРАТУРА

1. Авдеева Ж.И., Алпатова Н.А., Медуницын Н.В. Цитокины как адъюванты вакцин // Intern.J. on Immunorehab., 2001, v.3, № 3, p.14-19
2. Балаболкин И.И. Вчера, сегодня и завтра детской аллергологии // Педиат., 2002, № 5, с.38-43
3. Вельтищев Ю.Е., Мизерницкий Ю.Л. Экологические аспекты педиатрической пульмонологической патологии / Пульмонология детского возраста: проблемы и решения. Под ред. С.Ю.Каганова, Ю.Л.Мизерницкого. М., 2001, вып.1, с.55-67
4. Доклад рабочей группы GINA. “Глобальная стратегия лечения и профилактики бронхиальной астмы”. Пересмотр 2008 г. М.: Атмосфера, 160 с.
5. Зайцева О.В., Лаврентьев А.В., Самсыгина Г.А. Роль некоторых цитокинов при бронхиальной астме у детей // Педиатрия, 2001, № 1, с.13-19
6. Зайцева О.В., Малиновская В.В. Роль интерферона-γ в генезе бронхиальной астмы у детей // Астма, 2001, т. 2, № 2, с.15-23
7. Каганов С.Ю., Розинова Н.Н., Богорад А.Е. Различные формы бронхолегочной патологии в международной статистической классификации болезней X пересмотра // Педиатрия, 2003, № 4, с.45-46
8. Любимова О.И. Иммунологические маркеры аллергического воспаления при бронхиальной астме у детей // Рос. вестник перинатологии и педиатрии, 2002, № 2, с.39-42
9. Нестерова И.В., Малиновская В.В., Роменская В.А. и др. Система интерферонов при осложненной язвенной болезни

двенадцатиперстной кишки // Аллергология и иммунология, 2003, т. 4, № 2, с.32-36

10. Фрейдлин И.С. Паракринные и аутокринные механизмы цитокиновой иммунорегуляции // Иммунология, 2001, № 5, с.4-7

11. Хаитов Р.М., Игнатьева Г.А., Сидорович И.Г. Иммунология. М.: Медицина, 2000, с.191-334

12. Berezhnaya N. Cytokine regulation in atopy: how close is the traditional concept to reality // Intern. J. on Immunorehab., 2002, v.4, № 3, p.433-436

13. Hessel E., Van Oosterhout A., Van Esch B. Gamma interferon and independent from eosinophil infiltration // Am. J. Respir. Cell. Mol. Biol., 1997, v. 16, № 3, p.325-334

14. Holt P. Development of allergic sensitisation during childhood / Proc.of the World Congress on Immunopathology. Singapore: Intern. J. on Immunorehab., 2002, v. 4, № 3, p. 412-413

15. Holt P. Genetic risk for atopy is associated with delayed postnatal maturation of T cell competence // Clin. Exp. Allergy, 1992, v. 22, p.1093-1095

16. Jones C., Holloway J., Warner J. Does atopic disease start in foetal life? // Allergy, 2000, v.55, № 1, p.22-26

17. Larche M. Inhibition of human T-cell responses by allergen peptides // Immunology, 2001, v. 104, p.377-382

18. Takizawa H., Sato M., Ito K. The interactions of eosinophils with bronchial epithelial cell in asthma // AC I International, 1997, v.9, № 5, p.149-155

19. Zaitseva O., Malinovskaya V., Koltsov V. Role of interferon in the pathogenesis of bronchial asthma in children // Russian Journal of Immunology, 2002, v.7, № 2, p.143-150

Summary

The modern aspects of pathogenesis of bronchial asthma on children

N.A.Hajiyeva

Given the relevance of the study of immunological mechanisms of the pathogenesis of atopic inflammation, serum interferon-gamma (IFN-γ) has been measured in 117 children: 102 children with bronchial asthma (BA) and 15 healthy children. The content of this neurotransmitter has been studied according to the following parameters: severity and duration of the disease, as well as the age of the children surveyed, and whether they have family history of allergy. The data obtained was compared with data of the healthy children. The result revealed a reduction in the content of IFN-γ in all surveyed patients, independent of the above parameters.

Xülasə

Uşaqlarda bronxial astmanın müasir aspektləri

N.A.Hajıyeva

Atopik iltihabın immunoloji mexanizmlərinin patohenezinin öyrənilməsinin aktuallığını nəzərə alaraq 117 uşaqda: 112 bronxial astmalı xəstə uşaqlarda və 15 praktik sağlam uşaqlarda interferon-qammanın (IFN-γ) qan zərdabında səviyyəsi müəyyənləşdirilmişdir. Mövcud mediatorun səviyyəsi xəstəliyin ağırlığı və müddəti, eləcə də müayinə olunan uşaqların yaş səviyyəsindən və onların allerqoloji ağırlaşmış irsiyyəti baxımından öyrənilmişdir. Əldə olunmuş nəticələr praktik sağlam uşaqlardan alınmış göstəricilərlə müqayisələndirilmişdir. Nəticədə bütün müayinə olunmuş uşaqlarda yuxarıda qeyd olunmuş parametrlərdən asılı olmayaraq IFN-γ-nın səviyyəsi aşağı olması aşkarlanmışdır.

Daxil olub:04.12.2012

SALPİNGİT ZAMANI LAZER TERAPİYASININ TƏTBİQİ

Ü.G.Rüstəmli

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: salpingit, lazer terapiyası

Ключевые слова: сальпингит, лазерная терапия

Key words: salpingitis, laser therapy

Hazırkı dövrdə qadın cinsiyyət sisteminin iltihabi xəstəlikləri ginekoloqların diqqət mərkəzində bir problem olaraq qalır. Bu bir neçə faktorla, o cümlədən xəstəliklərin rast gəlmə tezliyinin yüksək olması, seksual-transmissiv xəstəliklərin (cinsi yolla ötürülən) artması, infeksiyanın dölə yoluxma ehtimalı ilə əlaqədardır. Digər tərəfdən sosial-iqtisadi vəziyyətin aşağı olması, urbanizasiya,insanların bir çoxunun qeyri-düzgün həyat tərzi keçirməsi və uşaqlıqdaxili manipulyasiyalar (hamiləliyin süni yolla pozulması, UDV və s.) xəstəliyin artmasına təkan verən amillərdəndir [1,4].

Daxili cinsiyyət üzvlərinin iltihabi xəstəlikləri arasında kəskin salpingitlər daha çox rast gəlinir. Kəskin salpingitlər 65-77% hallarda xroniki formaya keçir.

Bu ya immun sistemin zəifliyi, ya da vaxtında və düzgün aparılmayan müalicə nəticəsində baş verir. Əksər hallarda iltihab prosesinə yumurtalıqlar da cəlb olunur və salpinqooforit inkişaf edir. Tipik klinik əlaməti qarnın aşağısında və (və ya) bel nahiyəsində olan ağrı sindromudur və bu ağrı ginekoloji müayinə zamanı güclənir. Eləcə də ağrının visserosensor və vesserokutan refleksi mexanizmi vasitəsilə irradiasiyası xarakterikdir [2,3]. Bundan başqa uşaqlıq

artımlarının qalınlaşması, uşaqlıq yolu tağlarının qısalması, cinsiyyət yollarndan patoloji ifrazatın gəlməsi müşahidə olunur. Cinsiyyət yollarından gələn patoloji ifrazat çox halda yanaşı gedən kolpit və endoservisit nəticəsində baş verir. Bəzən isə piosalpinksin boşalması nəticəsində periodik irinli axıntı ola bilər. Kəskin proses zamanı febril və hiperpiretik qızdırma olur və temperaturun aşağı enməsi heç də həmişə iltihabi prosesin sakitləşməsindən xəbər vermir, bu absesin boşalması nəticəsində də ola bilər [1,3]. Bundan başqa 40-42% halda menstrual funksiyanın pozulması (qeyri-müntəzəm uşaqlıq qanaxmaları, oliqo-, alqomenoreya və s .), astenovegetativ sindrom (tez yorulma, əhval-ruhiyyənin aşağı düşməsi, yuxu pozğunluğu, baş ağrıları, trofik pozğunluqlar, iş qabiliyyətinin aşağı düşməsi və s.), qan göstəricilərində dəyişikliklər (leykositoz, EÇS-nin artması, müsbət C-reaktiv zülal,disproteinemiya) müşahidə olunur.

Uşaqlıq borularının iltihab nəticəsində əmələ gələn anatomik və funksional dəyişiklikləri çox hallarda birincili və ya ikincili sonsuzluğa səbəb olur. Salpingitli xəstələrdə boru faktorlu sonsuzluğun rast gəlmə tezliyi 80-82% təşkil edir. Bundan başqa, uşaqlıq artımlarının iltihabi xəstəlikləri uşaqlıqdankənar hamiləlik riskini 6-7 dəfə artırır, belə ki, uşaqlıqdankənar hamiləlik keçirmiş qadınların anamnezində uşaqlıq artımlarının iltihabi xəstəliklərinə rast gəlinib[1,2].

Diaqnozu ətraflı toplanmış anamnezə və vaginal müayinəyə, uşaqlıq yolu və servikal kanaldan götürülmüş materialın mikrobioloji və qanın ümumi müayinəsinə, transabdominal və transvaginal USM-nə əsasən qoyulur [3,5].

Əgər vaxtında və tam müalicə aparılmazsa, parametrit, tam və qeyri-tam genital svişlər (artım-bağırsaq, artım-kisə, artım-uşaqlıq yolu, mürəkkəb), ekstragenital irin ocaqlarının formalaşması, peritonit, sepsis kimi ağırlaşmalar verə bilər [1].

Müalicəsində isə ənənəvi olaraq antibakterial, qeyri-steroid iltihab əleyhinə, infuzion, desensibilizəedici, antifunqal, sorucu, antiaqreqant, immun sistemi möhkəmləndirici, vitamin terapiyasından, eləcə də yerli müalicədən (uşaqlıq yolunun antiseptiklərlə sanasiyası, antimikrob vaginal şamlar) istifadə olunur.

Son dövrlərdə xroniki iltihabi xəstəliklərdə lazer terapiyasının immun sistemə stimuləedici təsiri bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Lazer terapiyasının immun sisteminə möhkəmləndirici təsiri hüceyrə və humoral immuniteti, eləcə də immunkomponent hüceyrələrin zülal sintez etmə qabiliyyətini, hidrolitik fermentlərin aktivliyini artırması hesabına baş verir.

TƏDQIQATIN MƏQSƏDI: Salpingit müşahidə olunan qadınlarda ənənəvi müalicə ilə yanaşı lazer terapiyasının tətbiqinin effektini öyrənməkdən ibarətdir.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Müşahidə altına 20-35 yaş qrupu (orta yaş 28,7) arasında xroniki salpingitdən əziyyət çəkən 36 qadın alınmışdır. Bunlardan 27 (75 %) nəfərə salpingit, 9 (25 %) nəfərə isə salpinqooforit diaqnozu qoyulmuşdur və onlar qəbul etdikləri müalicə üsuluna görə 2 qrupa ayrılmışdır: I qrupa (müqayisə qrupu) 18 xəstə daxil olmuşdur ki, bunlar yalnız ənənəvi üsulla müalicə almışlar (antibakterial, qeyri-steroid iltihab əleyhinə, sorucu, antifunqal, desensibilizəedici, antiaqreqant, vitamin terapiya). II qrupa (əsas qrup) daxil olan xəstələr ənənəvi üsulla yanaşı müxtəlif ötürmə yolları ilə lazer terapiyası qəbul etmişlər. Bu terapiya He-Ne tipli lazer aparatının transkutan və vaginal ötürücüləri vasitəsilə müvafiq olaraq uşaqlıq artımlarının dəri üzərindən proyeksiyası nahiyəsinə və arxa tağ nahiyəsinə tətbiq olunub. Kiçikintensivlikli lazer dalğaları fasiləsiz rejimlə menstrual tsiklin 5-25-ci günləri arasında 10 gün müddətində və 12 dəqiqə ərzində tətbiq edilib. Müşahidə altına alınan qadınların 14 (38,9 %)-ü birincili, 8 (22,2%)-i ikincili sonsuzluqdan əziyyət çəkmiş və 12 (33,3%) qadının anamnezində isə uşaqlıqdankənar hamiləlik olmuşdur.

Müayinə olunmuş qadınlarda 22 (61,1%) halda yanaşı patologiyalar aşkar olunmuşdur (endoservisit 11 (30,5 %) halda, uşaqlıq boynunun eroziyası 8 (22,2 %) halda, endometrit 2 (5,5%) halda, uşaqlığın mioması 1(16,6%) halda).

Müayinə olunan xəstələrin klinik şəkli cədvəl 1.də göstərildiyi kimi xarakterizə olunur. Cədvəldən göründüyü kimi, xəstələr daha çox qarnın aşağı hissəsində və (və ya) bel nahiyəsində olan müxtəlif intensivlikdə ağrılardan, uşaqlıq yolundan gələn patoloji ifrazatın olmasından şikayətlənmişlər. Bu əlamətlərin rast gəlmə tezliyi müvafiq olaraq 86,1 % və 80,5% təşkil etmişdir. Daha az hallarda isə cinsi funksiyanın pozğunluqlarından (58,3%), əhval-ruhiyyənin və iş qabiliyyətinin aşağı düşməsi, tez yorulma, baş ağrıları kimi astenovegetativ sindromdan (38,8%) şikayətlənmişlər.

Cədvəl 1

Müayinə olunmuş qadınlarda subyektiv əlamətlərin rast gəlmə tezliyi

Şikayət	Xəstə qrupu	Cəmi (36)

	I (18)		II (18)			
	mütl.	%	mütl.	%	mütl.	%
Ağrı	15	83,3	16	83,3	31	86,1
Sekresiya pozğunluğu	16	88,9	13	72,2	29	80,5
Astenovegetativ sindrom	8	44,4	6	33,3	14	38,8
Dispareuniya	11	61,1	10	55,5	21	58,3

Cədvəl 2

Müayinə olunan qadınlarda menstrual funksiyanın xüsusiyyətləri.

Menstrual funksiyanın xarakteri	Xəstə qrupu				Cəmi (36)	
	I (18)		II (18)			
	mütl.	%	mütl.	%	mütl.	%
alqodismenoreya	4	22,2	6	33,3	10	27,7
olqomenoreya	3	16,6	4	22,2	7	19,4
polimenoreya	1	5,5	2	11,1	3	8,3

Müayinə olunun qadınlarda menstrual funksiyanın pozulması 30,5 % halda rast gəlinmişdir, digər 69,5 % qadında aybaşı tsikli dəyişilməmişdir. Salpingit diaqnozu ilə müşahidə altına alınan qadınlarda menstrual funksiyanın pozulması cədvəl 2.də əks olunmuşdur.

Vaginal müayinə zamanı uşaqlıq boynunu hərəkət etdirərkən ağrı, artımlar nahiyəsində hərəkətliliyin məhdudlaşması, pastozluğu, arxa və yan tağların ağrılılığı, qısalması, yumurtalıqların böyüməsi, cinsiyyət yollarından irinli ifrazatın gəlməsi müşahidə olunub.

Bakterioloji müayinə üçün uşaqlıq yolundan götürülmüş yaxmalar müayinə olunmuşdur və daha çox III (50,0 %) və IV (30,6 %) təmizlik dərəcəsi aşkar olunmuşdur. Uşaqlıq yolundan götürülmüş yaxmanın təmizlik dərəcəsi cədvəl 3.də göstərilmişdir. Servikal kanaldan götürülmüş yaxmada isə çox halda leykositlərin sayının yüksək olması (83,3 %) kokk florası (66,6 %) aşkar olunmuşdur. Müayinələr aybaşı tsiklinin I fazasında (5–9-cu günlər arasında)aparılmışdır. Bununla yanaşı qanda immunoqlobulinlərin (Ig A, Ig M, Ig G) konsentrasiyasının immunoferment analizi aparılıb və çox halda Ig M-in səviyyəsinin yüksək, Ig A və Ig G-nin səviyyəsinin isə əksinə, aşağı olması müşahidə olnub

Cədvəl 3

Uşaqlıq yolundan götürülmüş yaxmanın təmizlik dərəcəsi

Uşaqlıq yolunun təmizlik dərəcəsi	Xəstə qrupu				Cəmi (36)	
	I (18)		II (18)			
	mütl.	%	mütl.	%	mütl.	%
II	4	22,2	3	16,7	7	19,4
III	8	44,4	10	55,5	18	50,0
IV	6	33,3	5	27,8	11	30,6

USM zamanı uşaqlıq borularının genişlənməsi,arxa duqlasda çoxlu sərbəst mayenin olması, tuboovarial törəmə aşkar olunur.

Kliniki-laborator müayinələr aparıldıqdan sonra bütün xəstələrə ənənəvi üsulla müalicə təyin edilmişdir. Bu müddət ərzində xəstələr cinsi pəhrizdə olmuşdur və cütlük birlikdə müalicə almışdır. II qrupa daxil olan xəstələrə əlavə olaraq 10 gün ərzində lazer terapiyası aparılmışdır. Kiçikintensivlikli lazer dalğaları hər gün 12 dəqiqə müddətində vaginal ötürücü vasitəsilə uşaqlıq yolunun arxa tağı nahiyəsinə, transkutan ötürücü vasitəsilə uşaqlıq artımlarının dəri üzərindən proyeksiyası nahiyəsinə tətbiq edilmişdir.Bu qrupa daxil olan xəstələrin 8-i (44,4%) bir aybaşı tsiklindən sonra təkrar lazer müalicəsi, eyni zamanda immunomodulyator və vitamin terapiyası qəbul etmişlər.

NƏTICƏLƏR VƏ MÜZAKIRƏ. Aparılan müalicələrin nəticələrini araşdırarkən məlum olmuşdur ki, II qrup xəstələrdə sağalma prosesi I qrupa nisbətən daha tez getmişdir.Müalicə müddəti xəstənin fiziki vəziyyətini subyektiv qiymətləndirərkən əmək qabiliyyətinin II qrupda I qrupa nisbətən daha tez bərpa olunması müşahidə olunur ki, bu da ağrılar və uşaqlıq yolundan gələn patoloji ifrazatın azalması ilə özünü göstərir. II qrupa daxil olan qadınlarda müalicənin 4-cü günündə 4 (22,2%) nəfərdə, 7-ci günü 10 (55,5%) nəfərdə vaginal müayinə zamanı ağrının xeyli azalması, uşaqlıq artımları nahiyəsində hərəkət məhdudluğu və pastozluğun olmaması diqqəti

cəlb edir ki, bu klinik göstəriciləri norma kimi qiymətləndirmək olar. I qrupa daxil olan qadınlarda həmin əlamətlər müalicənin 5-ci günü 3 (16,6%) nəfərdə, 9-cu günü 10 nəfərdə müşahidə olunub. II qrup xəstələrdə servikal kanaldan götürülmüş yaxmaların bakterioloji müayinəsi zamanı leykositlərin sayının, kokk florasının azalması, müalicənin sonunda uşaqlıq yolu yaxmalarının müayinəsində 12 (66,6%) qadında II təmizlik dərəcəsi, 2 (11,1%) qadında I təmizlik dərəcəsi müşahidə olunub. Bu rəqəmlər müvafiq olaraq I qrupda 9 (50,0%) və 1 (5,55%) dir. II qrupda USM-də arxa duqlas nahiyəsində sərbəst mayenin, boru şişkinliyinin xeyli azalması 10 (55,5 %) halda, hətta 4 xəstədə (22,2 %) təmamilə itməsi müşahidə olunur. I qrupda bu rəqəmlər müvafiq olaraq 9 (50,0 %) və 5 (27,8%)-dir. Qanda Ig A, Ig G-nin titrinin I qrupa nisbətən daha çox yüksəlməsi, Ig M-in səviyyəsinin azalması, 7 xəstədə (38,8%) isə silinməsi rast gəlinmişdir. Lazer terapiyası almış xəstələrdə heç bir əlavə təsirə rast gəlinməmişdir.

Beləliklə, salpingit diaqnozu qoyulmuş xəstələrdə apardığımız müşahidələrin nəticələrini nəzərə alaraq kompleks müalicəyə lazer terapiyasının daxil edilməsini daha məqsədəuyğun hesab etmək olar.

ƏDƏBIYYAT

1.Практическое руководство по клинический гинекологии. Под редакцией Сидоровой И.С., Овсянниковой Т.В., 2006, с.223-251.

2.Сметник В.П., Тумилович Л.Г. Неоперативная гинекология, 2005, с.592-611.

3.Безношенко Г.Б. Неоперативная гинекология, 2001, с.153-179.

4.Гинекология. Под редакцией акад. РАМН Савельевой Г.М., Брусенко В.Г., 2004, с.108-154.

5. Подзолкова Н.М., Глазкова О.Л. Симптом. Синдром. Диагноз. Дифференциальная диагностика в гинекологии. 2-е изд., испр. и доп. М.:ГЕОТАР-Медиа, 2005. с.288-312.

Резюме

Применение лазерной терапии при лечении женщин больных сальпингитом

У.Г.Рустамли

36 женщин, страдающих от сальпингита (в возрасте от 20 до 35 лет) были подвержены лазерной терапии. В сравнительную группу были включены женщины, которых лечили традиционными методами, в основную группу входили женщины, которые наряду с традиционными методами принимали лазерную терапию. Эта терапия проводилась лазерным аппаратом типа He-Ne. В результате иммунологических анализов крови, бактериологических и клинических обследований было определено, что у женщин получивщих лазерное лечение, клинически-микробиологический эффект выше.

Summary

Using of laser therapy in treatment of woman with salpingitis

U.G.Rustamli

36 woman, suffering from salpingitis (at the age of 20-35) were undergone laser therapy. Comparative group involved woman who were treated by traditional methods, but main group included woman which simultaneously got laser therapy traditional methods. This therapy was performed by laser device of He-Ne type. In the result of immunological test of the blood, bacteriological and clinical research it has been determined, that clinico-microbiological effect is higher in woman who got laser treatment.

Daxil olub:10.12.2012

XLORID (HCL) TURŞUSU BUXARI ILƏ XRONIKI ZƏHƏRLƏNMƏ ZAMANI QANDA LIPID PEROKSIDLƏŞMƏSININ VƏZIYYƏTI.

R.C.Kərimova, G.Y.Hacıyeva

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: xroniki zəhərlənmə, xlorid turşusu, lipid peroksidləşməsi, biokimyəvi müayinələr

Ключевые слова: хронические отравления, соляная кислота, перекись липидов, биохимические анализы

Key words: chronic poisoning, hydrochloric acid, contrary to lipids, biochemical analyze

Maddələr mübadiləsinin tənzimlənməsində və orqanizmdə daxili mühitin sabit saxlanmasında qaraciyərin böyük rolu vardır. Qaraciyərin bu funksiyası xarici mühitlə sıxı surətdə bağlı olduğu üçün xarici mühitin təsirindən asılı olaraq dəyişə bilər. İnsan xarici mühitlə, o cümlədən istehsalat növündən asılı olaraq bir sıra təsirlərə məruz qalır.

Son illərdə yeni texnologiyaların tətbiqi ilə bağlı olaraq insanlar ən çox kimyəvi prosseslərlə təmasda olurlar. Kimyəvi maddələrin qaraciyərə təsiri sayəsində onun funksiyalarının fizioloji gedişi pozularaq müxtəlif patalogiyaların əmələ gəlməsi ilə nəticələnir. Müəyyən edilmişdir ki, kimyəvi maddələr, o cümlədən, qeyri-üzvi turşular, qələvilər, oksidlər, ağır metal və arsen birləşmələri, üzvi turşular, karbohidrogenlərin xlorlu törəmələri və digər zəhərli maddələr orqanizmə tənəffüs yolları, ağız və dəri vasitəsilə, həmcinin parenteral yolla daxil olurlar [1,2].

Ekzogen zəhərlənmələr nəticəsində hepositlərdə gedən destruktiv prosseslər zamanı pozulmuş metabolizmdən əmələ gələn

metabolitlər, o cümlədən lipidlərin peroksidləşməsi və ondan əmələ gələn aralıq məhsulları intoksikasiyanın ikincili dalğasını-endogen intoksikasiyanı yaratmaqla, baş vermiş patalogiyanı daha da dərinləşdirir [7,8,10].

Qaraciyərin fizioloji funksiyalarına təsir göstərən kimyəvi maddələr içərisində HCl xüsusilə fərqlənir [9].

Aparılan tədqiqatlar nəticəsində bəlli olmuşdur ki, HCl təsirindən qaraciyərdə amin turşular parçalanır, üzvü turşuların oksidləşmə surəti azalır, lipoproteidlərin sintezi pozulur (6). Bununla bağlı olaraq biz eksperimentdə k.e.d., professor X.İ.Həsənovun təklifi üzrə tərəfimizdən hazırlanmış xüsusi qurğudan istifadə etməklə ağ siçovulları H.H.Каркищенко (2004) metodu ilə HCl buxarı ilə zəhərlənməyə məruz qoymaqla xroniki intoksikasiya modelinin inkişaf dinamikasında qanda lipidlərin peroksidləşməsindən əmələ gələn məhsulların qatılığını və antioksidant müdafiə sistemi göstəricilərinin dəyişmə dinamikasını öyrənməyi qərara aldıq [3,4,5].

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Tədqiqatlar Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzində 25 baş ağ siçovul üzərində aparılmışdır. Təcrübə heyvanları 2 qrupa intakt və təcrübə qruplarına bölünmüşdür. 1-ci qrupa 5 baş, 2-ci qrupa isə 20 baş ağ siçovul daxil edilmişdir.

İntakt vəziyyətində olan ağ siçovullar dekaputasiya edilərək qanda lipid peroksidləşmə məhsullarından malon dealdehidi (MDA), dien konyuqantları (DK)-nın qatılığı və antioksidant müdafiə sisteminin markeri olan katalazanın qatılığı təyin edilmişdir.

2-ci qrupa daxil olan ağ siçovullarda ekzogen intoksikasiyanı yaratmaq üçün 20%-li xlorid (HCl) turşusundan istifadə edilmişdir.

Ağ siçovullar xüsusi kameraya yerləşdirilmiş 3 gün müddətində hər dəfə 10 dəqiqə 20% HCl turşusu ilə buxarlandırılmışdır. Sonra təcrübə heyvanları kameradan çıxarılaraq adi şəraitdə vivariumda yerləşdirilmişdir. Ağ siçovullarda xroniki intoksikasiya yaratmaq məqsədilə sonrakı 3 gün müddətində buxarlandırılma davam etdirilərək 20 dəqiqəyə çatdırılmışdır. Təcrübə heyvanlarında bu rejimə adaptasiya yarandıqdan sonra HCl-la buxarlandırılma 30 dəqiqəyə çatdırılmış, 1 həftə müddətində davam etdirilmişdir. Təcrübə başa çatdıqdan sonra ağ siçovullar 3,7,15,30-cu günlərdə hər birində 5 baş olmaqla dekaputasiya edilərək qanda lipid peroksidləşmə məhsullarından MDA-nın, DK-nın qatılığı, antioksidant müdafiə sisteminin nümayəndəsi olan katalazanın qatılığı təyin edilmişdir. MDA və katalazanın təyini Roşe firmasının istehsalı olan reaktiv dəstlərindən istifadə etməklə Bioscreen MS-2000 analizatorda, DK-nın təyini V.B.Qavrilovun təklif etdiyi metodla СФ-46 ломо (спектофотометр) analizatorda təyin edilmişdir. Alınmış kəmiyyət göstəriciləri müasir tövsiyyələri nəzərə almaqla statistik təhlil edilmişdir.

ALINMIŞ NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. 1-ci qrupa daxil olan ağ siçovullardan götürülmüş qanda MDA-nın qatılığı 1-1,5 mkmol/l arasında olub orta kəmiyyət göstəricisi 1,26±0,08 mkmol/l-ə; DK-nın qatılığı 1,35-2,4 D_{233}/ml arasında olub orta kəmiyyət göstəricisi 1,62±0,20 D_{233}/ml-ə bərabərdir. 2-ci qrupa daxil olmuş ağ siçovullarda xroniki ekzogen intoksikasiya modeli yaradıldıqdan 3 gün sonra götürülmüş qanda lipid peroksidləşmə məhsullarında aşağıdakı dəyişikliklər aşkar edilmişdir. MDA-nın qatılığı intakt vəziyyətlə müqayisədə 428,6%; DK-nın qatılığı 25,3% artmışdır.

Xroniki intoksikasiya modelinin yaradılmasının 3-cü günündə MDA-nın qatılığı 4,9-9,4 mkmol/l arasında olub orta kəmiyyət göstəricisi 6,66±0,76 mkmol/l-ə; ($p<0,01$), DK-nın qatılığı 1,85-2,2 D_{233}/ml arasında olub orta kəmiyyət göstəricisi 2,03±0,06 D_{233}/ml-ə; ($p>0,05$) bərabərdir.

Təcrübədən aldığımız nəticələrə əsasən müəyyən etdik ki, qanda lipid peroksidləşmə məhsullarından MDA-nın, DK-nın qatılığı xroniki intoksikasiya modelinin yaradılmasının 3-cü günündə intakt vəziyyətlə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır.

Xroniki intoksikasiya modelinin yaradılmasının 7-ci günündə qanda lipid peroksidləşmə məhsullarından MDA-nın qatılığı intakt vəziyyətlə müqayisədə 68,9%; Dk-nın qatılığı 76,5% artmışdır. Belə ki, qanda MDA-nın qatılığı 1,28-3,53 mkmol/l arasında olub orta kəmiyyət göstəricisi 2,13±0,43 mkmol/l-ə; ($p>0,05$), DK-nın qatılığı 2,5-3,5 D_{233}/ml arasında olub orta kəmiyyət göstəricisi 2,86±0,17 D_{233}/ml-ə; ($p<0,01$) bərabərdir.

Xroniki intoksikasiya modelinin yaradılmasının 15-ci günündə lipid peroksidləşməsi məhsullarının qatılığı artmaqda davam etmişdir. Qanda MDA-nın qatılığı 121,1%, DK-nın qatılığı 107,4% artmışdır. Belə ki, modelin yaradılmasının 15-ci günündə MDA-nın qatılığı 1,37-3,72 mkmol/l arasında olub orta kəmiyyət göstəricisi 2,79±0,41 mkmol /l-ə; ($p<0,01$), DK-nın qatılığı 2,7-4-5 D_{233}/ml arasında olub orta kəmiyyət göstəricisi 3,36±0,33 D_{233}/ml-ə;($p<0,01$) bərabərdir.

Xroniki intoksikasiya modelinin yaradılmasının 30-cu günü qanda MDA-nın qatılığı intakt vəziyyətlə müqayisədə 144,9%, DK-nın qatılığı 159,3%, artmışdır. Modelləşdirmənin 30-cu günü MDA-nın kəmiyyət göstəricisi 2,58-3,79 mkmol/l arasında olub orta kəmiyyət göstəricisi 3,09±0,24 mkmol/l-ə; ($p<0,01$), DK-nın qatılığı 3,2–5,8 D_{233}/ml arasında olub orta kəmiyyət göstəricisi 4,20±0,45 D_{233}/ml-ə; ($p<0,01$) bərabərdir.

1-ci qrupa daxil olan ağ siçovullardan götürülmüş qanda antioksidant müdafiə sisteminin nümayəndəsi olan katalazanın qatılığı 2,64-2,75 mkatl/l arasında olub orta kəmiyyət göstəricisi 2,69±0,02 mkat/l-ə bərabərdir. 2-ci qrupa daxil olmuş ağ siçovullarda xroniki ekzogen intoksikasiya modeli yaradıldıqdan 3 gün sonra götürülmüş qanda katalazanın qatılığı 7,7% artmışdır.

Xroniki intoksikasiya modelinin yaradılmasının 3-cü günündə katalazanın qatılığı 1,7-4,6 mkatl/l arasında olub orta kəmiyyət göstəricisi 2,90±0,49 mkat/l -ə; ($p>0,05$) bərabərdir. Xroniki intoksikasiya modelinin yaradılmasının 7-ci günündə qanda katalazanın qatılığı 7,7% artmışdır. Belə ki, katalazanın qatılığı 2,3-3,8 arasında olub orta kəmiyyət göstəricisi 2,90±0,25 mkat/l-ə; ($p>0,05$) bərabərdir. Xroniki intoksikasiya modelinin yaradılmasının 15-ci günündə qanda katalazanın qatılığı 58,2% artmışdır. Belə ki, modelin yaradılmasının 15-ci günündə qanda katalazanın qatılığı 1,2-7,8 Hmol /ml arasında olub orta kəmiyyət göstəricisi 4,26±1,14 mkat/l-ə; ($p>0,05$) bərabərdir. Xroniki intoksikasiya modelinin yaradılmasının 30-cu günü qanda katalazanın qatılığı 133,3% artmışdır. Modelləşdirmənin 30-cu günü qanda katalazanın qatılığı 2,3–9,1 mkat/l /ml arasında olub orta kəmiyyət göstəricisi 6,28±1,42 mkat/l -ə; ($p>0,05$) bərabərdir.

Beləliklə apardığımız təcrübələrin nəticəsi göstərir ki, HCl-la xroniki zəhərlənmə baş verdikdə hepositlərdə gedən destruktiv prosseslə bağlı qanda katalazanın qatılığı artmış və lipid peroksidləşməsi intensivləşmişdir ki, buda tədqiqatçıların fikrincə endogen intoksikasiyanın vüsətlənməsinə səbəb olmuşdur [8,9].

Cədvəl

HCl-la xroniki zəhərlənmə dinamikasında ağ siçovulların qanında lipidperoksidləşmə məhsullarının göstəricilərinin dəyişməsi

Göstəricilər	I qrup	II qrup			
	İntakt vəziyyət	Ekzogen intoksikasiyadan sonra lipidperoksidləşmə məhsullarının göstəricilərinin dəyişməsi.			
		3-cü gün	7-ci gün	15-ci gün	30-cu gün
MDA mkmol/l	1,26±0,08 1-1,5	6,66±0,76 4,9-9,4 P<0,01	2,13±0,43 1,28-3,53 P>0,05	2,79±0,41 1,37-3,72 P<0,01	3,09±0,24 2,58-3,79 P<0,01
DK D_{233}/ml	1,62±0,20 1,35-2,4	2,03±0,06 1,85-2,2 P>0,05	2,86±0,17 2,5-3,5 P<0,01	3,36±0,33 2,7-4,5 P<0,01	4,20±0,45 3,2-5,8 P<0,01
Katalaza mkat/l	2,69±0,02 2,64-2,75	2,90±0,49 1,7-4,6 P>0,05	2,90±0,25 2,3-3,8 P>0,05	4,26±1,14 1,2-7,8 P>0,05	6,28±1,42 2,3-9,1 P>0,05

ƏDƏBİYYAT

1. Бабанов С.А. Профессиональные заболевания медицинсих работников вследствие ваздействия химических факторов, журнал // Главная медицинская сестра, 2010, №7, с.158-162.

2. Гончарова А.Г., Куликов В.В., Ковальский О.Н. Управленые качеством медицинского освидетельствования граждан работающих на обьектах хранения и уничтожения химического оружия. // Вестник Росздравнадзора, 2010, №8. с.20-24

3. Каркищенко Н.Н. Основы Биомоделирования. Межакадемическое издательство ВПК. М., 2004, с.227-231.

4. Курилович С.А., Кручинина М.В., Громов .А. Обоснование применения эссенциальных фосфолипидов при хронических заболеваниях печени: динамика электрических и вязкоупругих параметров эритроциттов // Экспериментальная и клиническая гастроэнтерология, 2010, №11, с.46-52.

5. Нестеров Ю.В., Чумакова А.С., Турченко Н.В. Влияние стресс-индуцированных воздействий разной модальности и антиоксиданта на свободнорадикальные процессы в легких и печени белых крыс // Естественные науки, 2010, №3, с.122-126.

6. Тугушева Ф.А., Зубина И.М., Митрофанова О.В. Оксидативный стресс и хроническая болезнь почек // Нефрология,2007,Т.11, №3, с.29-47.

7. Хидирова Л.Д. Изменение баланса между активностью перекисного окисления липидов, антиоксидантной защитой и содержанием железа у крыс при экспериментальном инфаркте миокарда //Рациональная фармакотерапия в кардиологии, 2010, Т.2, №25, с.216-219.

8. Чумакова А.С., Теплый Д.Л., Нестерова Ю.В. Изменение свободноради-кальных процессов в различных органов крыс разного возроста при остром стрессе // Биологические исследования, 2009, №4, с.34-37.

9. Большая Энциклопедия. Нефти Газа. М., 2010, с.78-85.

10. Descamps – Latscha B, Khoa Th.N., Witko-Sarsat V. Oxidative stress and cardiovascular disease in end-stage renal failure // Cardivascular disease in end – stage renal failure / Ed. By. Loscaizo J. and London: G.M.- New York Oxford University Press, 2000, p.245-271.

Резюме

Состояние липидной пероксидации в крови при хроническом парами соляной кислоты (HCl)

Р.Дж. Керимова, Г.Я. Гаджиева

В результате исследований было изучено состояние продуктов липидной пероксидации и системы антиоксидантной защиты крови в динамике хронической интоксикации парами (HCl). Модель хронической интоксикации была создана по методу Каркищенко. Опыты проводились на 25 белых крысах, которые разделены на 2 группы. Таким образом было выяснено, что в результате хронической интоксикации значительно уменьшилась общая антиоксидантная защитная система организма, вследствие чего увеличилась интенсивность липидной пероксидации.

Summary

The condition of lipid peroxidation in the blood during chronic intoxication with steam of hydrochloric acid

R.J. Kerimova, G.Y. Hajiyeva

The condition of the products of lipid peroxidation and system of antioxidant protection of the blood in dynamics of chronic intoxication with steam of hydrochloric acid have been studied in present investigation. The model of chronic intoxication has been created by Karkishenko□s method. The tests were carried out on 25 white mice which were divided into 2 groups.

By this way it has been revealed that the acute form of intoxication resulted in decrease of general antioxidant protective system of organism, consequently intensity of lipid peroxidation has increased.

Daxil olub:17.12.2012

ФАКТОРЫ РИСКА ЗАРАЖЕНИЯ ГЕПАТИТОМ В СРЕДИ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА

Г.З.Алиева

Азербайджанский Медицинский Университет, г.Баку

Açar sözler: Hepatit B- virusu, risk faktorları, narkomanlar

Ключевые слова: вирус гепатита В, факторы риска, наркоманы

Key words: Hepatit B- virüs, risk factors, narcomans

На современном этапе вирусный ГВ является самым распространенным инфекционным заболеванием печени. Согласно оценкам Всемирной организации здравоохранения (ВОЗ), треть населения планеты, что составляет около 2 миллиардов человек, имеют доказательства перенесенной или имеющейся инфекции HBV, 350 миллионов населения земного шара инфицированы ВГВ хронически и обладают риском развития связанных с вирусом заболеваний печени [1].

В этиологической структуре вирусных гепатитов удельный вес острого ГВ занимает 15 - 18,4%, хронического ГВ - 39,9 - 50% [2,3]. По данным ВОЗ, вирусом ГВ ежегодно первично инфицируются более 50 млн человек. От 5 до 10% случаев острого HBV трансформируются в хронический [4,5].

По оценкам ВОЗ, каждый год во всем мире от вирусного гепатита В умирает от 1,3 до 1,5 миллионов детей и взрослых.

Механизм передачи инфекции - кровоконтактный. Восприимчивость людей к ВГВ высокая. Количество крови, достаточное для инфицирования вирусом ГВ составляет 10^{-6} -10^{-7} мл вируссодержащей крови [6]. Вирус гепатита В чрезвычайно устойчив во внешней среде.

Повышенный риск инфицирования вирусом ГВ отмечается среди больных гематологических и диализных отделений, наркоманов, лиц, страдающие хроническими гематологическими заболеваниями, которым показаны повторные переливания крови и ее продуктов. Устойчивые группы повышенного риска заражения гепатитом В представляют проститутки и гомосексуалисты.

К группе высокого риска заражения ВГ принадлежат также медицинские работники, контактирующие с кровью больных и вирусоносителей. Риск заболевания гепатитом В после «укола иглой» и контакта с чьей-либо зараженной кровью колеблется от 2% — если пациент является негативным по е-антигену вируса гепатита В, до 30% в случае, если е-антиген определяется. Ежедневно в мире умирает один врач от отдаленных последствий вирусного гепатита. Установлено, что ежегодно в США заражаются трансмиссивными гепатитами свыше 12000 работников здравоохранения, примерно 250 из них умирают. Сообщается, что уровень заболеваемости медицинского персонала в Казахстане указанными инфекциями превышает показатели заболеваемости населения страны в 1,5-6 раз.

Пути передачи HBV могут быть как естественными, так и искусственными.

К естественным путям передачи относят следующие.

- Вертикальный - от матери плоду (ребенку), при этом инфицирование чаще происходит во время родов.

-Половой - при сексуальных контактах, особенно среди гомосексуалистов.

-Бытовое парентеральное инфицирование (через бритвенные приборы, зубные щетки и т.п.).

Доказана и возможность передачи вируса в процессе совместной трудовой деятельности, при реализации скрытых контактов через ссадины и микротравмы. В странах с тропическим климатом и эндемичных по гепатиту В в качестве механических переносчиков HBV могут быть кровососущие насекомые.

Изучение трансмиссивного пути передачи вируса гепатита В через кровососущих насекомых, комаров, клопов, москитов, клещей не выявило его значения в распространении инфекции. Доказанным фактом является отсутствие репликации вируса гепатита В в организме насекомых. Вместе с тем, в странах с тропическим климатом и эндемичных по гепатиту В передача вируса может происходить при помощи насекомых, которые служат чисто механическими переносчиками возбудителя.

Искусственный путь передачи - парентеральный - реализуется при проникновении вируса через поврежденную кожу и слизистые оболочки при лечебно-диагностических, косметических и ритуальных манипуляциях: проколы мочки уха, татуировки, бритье, обрезание, ритуальные насечки.

Преимущественные пути заражения в отдельных регионах мира существенно различаются. Так, в странах Западной Европе и Северной Америке большинство подростков и взрослых заражаются при сексуальных контактах или в результате внутривенного введения наркотиков, в странах Юго-Восточной Азии преобладает вертикальный путь инфицирования от матери к плоду, В Южной Америке - вертикальный, половой, в Индии – вертикальный, шприцевой, внутрибольничный (7, 8).

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. Мы провели исследование возможных путей заражения среди 132 больных острым гепатитом В в возрасте от 20 до 55 лет. Учитывались анамнестические сведения о парентеральных вмешательствах на протяжении последних 6 месяцев до заболевания, клинические и серологические данные, подтверждающие диагноз.

Диагностическими критериями острого гепатита В являлись следующие прямые и косвенные факторы.

Прямыми факторами являлись:

-наличие у больного первичного клинико-биохимического симптомокомплекса острого паренхиматозного гепатита;

-выявление в сыворотке крови HBsAg и/или анти-HBc IgM при отсутствии положительных серологических маркеров других вирусных гепатитов;

-отсутствие указаний на перенесенный в прошлом вирусный гепатит;

-при наркомании продолжительность внутривенного употребления наркотиков не превышала 6 месяцев.

К косвенным аргументам, подтверждающими диагноз острого вирусного гепатита В, были отнесены:

-медицинские и косметические парентеральные вмешательства на протяжении шестимесячного периода перед развитием заболевания: использование общих шприцов

при введении наркотиков, нанесение татуировок, оперативные вмешательства, манипуляции в процедурных кабинетах поликлиник, посещение стоматолога и гинеколога, контакты с больными гепатитом В;

-особенности профессиональной деятельности (сотрудники медицинских лабораторий, хирурги и другие категории лиц, контактирующие с кровью больных).

РЕЗУЛЬТАТЫ И ОБСУЖДЕНИЕ. Результаты исследования представлены в таблице.

Пути заражения гепатитом В среди взрослого населения были весьма многообразны, но все они включали факторы, предполагавшие возможность заражения перкутанным (кровоконтактным) путем.

За 3– 6 месяцев до начала заболевания 28,0% заболевших гепатитом В использовали общие шприцы при введении инъекционных наркотических средств, что явилось основным путем заражения.

Таблица

Возможные пути заражения больных гепатитом В

Путь заражения	Кол-во (чел.)	%
Использование общих шприцов при введении наркотиков	37	28,0
Посещение процедурных кабинетов в поликлинике	21	15,9
Стоматологические манипуляции	18	13,6
Посещение гинеколога	14	10,6
Половой путь заражения	11	8,3
Нанесение татуировок	8	6,1
Медработники, контактирующие с кровью	12	9,1
Неустановленные факторы	11	8,3

На втором месте (15,9%) среди возможных путей инфицирования было посещение процедурных кабинетов, где проводился забор крови для анализов либо инъекции лекарственных препаратов. Следующими по частоте возможного заражения являлись манипуляции при посещении стоматолога (13,6%) и гинеколога (также 10,6%). Половой путь заражения, вызванный контактом с больными хроническим гепатитом В, оказывался менее значимым и выявлен у 8,3%. Нанесение татуировок было причиной заражения в 6,1% случаев.

Отдельно рассмотрели инфицирование вирусом гепатита В медицинских работников. Гепатит был выявлен у 12 человек (9,1%), контактирующих с кровью пациентов, в частности, у хирургов (5 человек), сотрудников лабораторий, выполнявших анализы крови (3 человека), работников процедурных кабинетов (3 человека) и у 1 сотрудника диализного отделения.

Таким образом, среди взрослого населения наиболее частыми путями заражения гепатитом В являлось инфицирование через общие шприцы при введении наркотиков и манипуляции, связанные с посещением процедурных кабинетов поликлиник и стоматолога. Значительное число зараженных (9,1%) составляли медицинские работники, входящие в повышенную группу риска инфицирования кровоконтактными формами гепатитов.

Накопленный опыт свидетельствует, что проведение профилактической вакцинации приводит к снижению заболеваемости гепатитом В в 10-12 раз, а носительства HBsAg в популяции с 9-12% до 1% (9).

Полученные нами сведения предполагают необходимость проведения более широкой санитарно-просветительной работы и вакцинирования населения, прежде всего - лиц, входящих в группы повышенного риска инфицирования гепатитом В.

ЛИТЕРАТУРА

1. WHO, WHO/CS/CSR/LYO/2002.2: Hepatitis B
2. Васильева Е.А. Сравнительная характеристика вирусных гепатитов В и С по данным клинико-лабораторного и эпидемиологического обследования: Автореферат дисс. … канд. мед. наук. СПб., 1995, 23с.
3. Учайкин В.Ф. Гепатит В. Клиника и диагностика. //Вирусный гепатит В: 350 млн. хронических носителей, 1999, №4, с.25-27.
4. Hart S. P., Alexander K. M., Dransfield I. Immune complexes bind preferentially to Fc gamma RIIA (CD32) on apoptotic neutrophils, leading to augmented phagocytosis by macrophages and release of proinflammatory cytokines// J.Immunol.,2004, No 172, p. 1882-1887.
5. Wiersma S.T., McMahon B., Pawlotsky J.M. et al. Treatment of chronic hepatitis B virus infection in resource-constrained settings: expert panel consensus //

Journal Epid Infect Dis. Current Items, 2012, №2, p.988 -997

6. Рахманова А.Г., Неверов В.А., Кирпичникова Г.И. и др. Вирусные гепатиты (этиопатогенез, эпидемиология, диагностика и терапия). СПб.: 2001, 57с.

7. Hart S. P., Alexander K. M., Dransfield I. Immune complexes bind preferentially to Fc gamma RIIA (CD32) on apoptotic neutrophils, leading to augmented phagocytosis by macrophages and release of proinflammatory cytokines // J.Immunol., 2004, No 172, p. 1882-1887.

8. Lok A.S., Heathcote E.J., Hoofnagle J.H. Management of hepatitis B: Summary of a Workshop // Gastroenterology, 2001, No.120, p. 1858-1853.

9. Брико Н.И. Эпидемиология парентеральных гепатитов В и С // Вирусные гепатиты, 2001, №6, с.26 - 28

Xülasə

Azərbaycanda yaşlı əhali arasında B-hepatitlə yoluxmanın risk faktorları

G.Z.Əliyeva

Məqalədə 20-55 yaşlarda olan 132 nəfər kəskin B-virus hepatitli xəstələrin yoluxma risk faktorları öyrənilmişdir. Məlum olmuşdur ki, xəstələrin 28,0 %-de yoluxmanın səbəbi narkomanlar tərəfindən narkotiklərin istifadəsində eyni şprislərin istifadəsi,15,9% hallarda poliklinikaların əməliyyat otaqlarında aparılmış manipulyasyalar, 13,6% - stomatoloji əməliyyatlar səbəb olmuşlar. Hepatit B-virus ilə yoluxanlar sırasında 9,1 %-ni tibb işçiləri təşkil etmişlər.

Summary

The risk factors of invasion among by virus b-hepatitis adults in Azerbaijan

G.Z.Aliyeva

The article presents results of a study condueted to define risk factors of invasion by virüs B- hepatitis among adults in Azerbaijan.The results showed that 28.0 % of patients risk factors of invasion was associated with using common syringes by patients for injection of narcotics,in 15.9 % cases with medical manipulations in ambulances and 13.6% stomatologic manipulations.İt is necessary note, that among invasion with B - virüs hepatitis 9.1% were medical personals.

Daxil olub:14.11.2012

DİFERENSƏ OLUNMAYAN BİRLƏŞDİRİCİ TOXUMA DİSPLAZİYASI SİNDROMU OLAN UŞAQLARDA ÜRƏK RİTMİNİN VARİABELLİYİNİN DÖVRÜ PATAMETRLƏRİ

İ.İ.İsayev,G.Ə.Muradova, M.M.Fətəliyeva A.İ. Mustafayeva

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: birləşdirici toxuma displaziyası sindromu, uşaqlar, ürək ritminin variabelliyinin

Ключевые слова: синдром дисплазии соединительных тканей, дети, вариабельность сердечных ритмов

Key words: connective tissue dysplasia syndrome, children, heart rate variability

Müasir pediatriyanın ən aktual problemlərindən biri uşaq yaşının müxtəlif dövrlərində sağlamlığa təsir edə bilən proseslərin vaxtında aşkar edilərək preventiv tədbirlərin həyata keçirilməsidir [9,11]. Bu baxımdan son illərin məlumatına görə uşaqlar arasında geniş yayılmış birləşdirici toxumanın displaziya sindromuna tədqiqatçıların marağının artması təbiidir. Tədqiqatçıların nəticələrinə görə diferensə olunmayan birləşdirici toxuma displaziyasının (DOBTD) elementləri uşaqlar və gənclər arasında 13,5-85,4% hallarda təsadüf edilməklə [3,6,8,14] əksərən prosesə VSS-nin qoşulması ilə əlaqədar bir çox sistemlərin qarşılıqlı fəaliyyətində davamlı pozğunluglara gətirib çıxarır [7,10,12]. Bu zaman организмин fizioloji funksiyaları çoxtəbəqəli tənzim sistemi ilə idarə edilir və ən çox təsirə məruz qalan kardiovaskulyar sistem olur. Aparılmış tədqiqatlar qan dövranı sisteminin ömumi orqanizmin adaptasiya imkanlarının və cavab reaksiyalarının çox həssas indikatoru olduğunu sübut etmişdir [1,4,5]. Müəyyən edilmişdir ki, müxtəlif stress vəziyyətlərinin təsirinə cavab olaraq hipofiz-böyrəküstü vəzilərin və simpatiko- adrenal sistemin fəallaşması zamanı ürək ritminin

vareabelliyi (ÜRV) tənzimləmə sistemlərinin системляринин yetkinlik dərəcəsini əks etdirir [4]. Bu zaman ürək ritminin dəyişilməsi orqanizmin müxtəlif təsirlər nəricəsində ümumi adaptasiya sindromunun mərhələlərinin təzahürü kimi özünü güstərir. Bu baxımdan orqanizmin tənzimləmə proseslərinin indikatoru kimi qəbul edilən inteqral parametr sayılan ürək ritminin dəyişkənliyinin öyrənilməsininə geniş yer verilir [4,5].

Son illərin məlumatına görə ürəyə uzun müddət davam edən simpatik və parasimpatik təsirlərin disbalansı müxtəlif aritmogen kardiomiopatiyaların yaranmasında əsas yer tutur. Ürək ritminin pozulması bilavasitə orqanizmdə vegetativ disbalansın yaranmasını sübut edir və gələcəkdə qan dövranı sistemində deyil müxtəlif orqanlarda da ağır halların yarana biləcəyini göstərir [2,10,12].

Hal hazırda simpatik və parasimpatik sinir sisteminin qarşılıqlı balansını qiymətləndirmək üçün ürək ritminin variabelliyinin təyini əvəz edilməz üsul hesab edilir [1,2,4,5,13]. Bütün bunlara baxmayaraq DOBTD olan uşaqlarda orqanizmin ümumi halını səciyyələndirən vegetativ sinir sisteminin funksional vəziyyətinin ÜRV vasitəsilə öyrənilməsinə pediatriyada kifayət qədər yer verilməmişdir. Bu məsələlərin araşdırılması belə uşaqlarda adaptasiyanın imkanlarının və patologiyaönü halların aşkar edilməsinin, onların sağlamlığının vəziyyətinin düzgün qiymətləndirilməsinə imkan yarada bilər.

TƏDQIQATIN MƏQSƏDI. DOBTDS olan uşaqlarda yaşdan və displaziyanın fenotipik əlamətlərinin təzahür dərəcəsindən asılı olaraq ÜRV-nin dövrü parametrlərinin xüsusiyyətlərinin öyrənilməsi.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. DOBTDS olan xəstələrdə ÜRV-nin dövrü parametrlərinin xüsusiyyətlərini təyin etmək ücün 7-16 yaşlı 142 məktəbli müayinə edilmişdir. Uşaqlar yaşdan asılı olaraq iki qrupa ayrılmişdır: 7-11 (kiçik məktəbli 78 nəfər) və 12-16 (böyük məktəbli 64 nəfər) yaş. Müayinəyə cəlb olunanlar patoloji prosesin fenotipik əlamətlərinin təzahür dərəcəsindən asılı olaraq bal sistemi ilə qiymətləndirilməklə 3 yarımqrupa bölünmüşdür [3,6,8]. Birinci yarımqrupa DOBTDS-nun fenotipik əlamətlərinin təzahür dərəcəsi 12 bala qədər uyğun gələn 78 xəstə (hər yaş qrupunda 39 uşaq olmaqla); ikinci yarımqrupa fenotipik əlamətlərinin təzahür dərəcəsi 23 bala qədər uyğun gələn 33 (onlardan 19 uşaq 7-11, 14 uşaq 12-16 yaşlı) və üçüncü yarımqrupa fenotipik əlamətlərinin təzahür dərəcəsi 23 baldan çox olan 31 nəfər (onlardan 20 uşaq 7-11, 11 uşaq 12-16 yaşlı) aid olmuşdur. Müqayisə qrupuna hər bir yaş dövründən 18 məktəbli olmaqla 36 praktiki sağlam uşaq daxil edilmişdir.

Tədqiq olunan uşaqlarda ümumi klinik müayinələrlə yanaşı gündüz vaxtları saat 10-12 radələrində 5 dəqiqə müddətində EKQ çəkilmiş, EXOKQ aparılmışdır. ÜRV-nin göstəriciləri Avropa kardiologları və Şimali Amerika elektrokardiostimulyasiya və elektrokardioloqları cəmiyyəti tərəfindən irəli sürülən konsepsiyalara əsasən təyin olunmuşdur [4,5]. Dövrü analizin aşağıdakı parametrləri öyrənilmişdir: SDNN-normal RR intervallarının orta davam etmə müddətindən standart kənara çıxma (ms); SDNNi – normal RR intervallarının orta davam etmə müddətindən standart kənara çıxma (ms); rMSSD – RR intervallarının orta davam etmə müddətinin orta kvadratik fərqi (ms); pNN30%, pNN50%, pNN70% - müddətləri uyğun olaraq 30 ms, 50 ms və 70 ms-dən çox fərqlənən RR intervallarının faizlə miqdarı.

Tədqiqatların nəticələrinin işlənməsi parametrik (Student meyarları) və qeyri-parametrik (Manna-Uitni) statistik üsullarla Exsel kompyuter proqramının köməyi ilə aparılmışdır.

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKIRƏSI. DOBTDS olan uşaqlarda ÜRV-nin dövrü parametrlərinin yaşdan və patoloji prosesin təzahür dərəcəsindən asılı olaraq dəyişilmə xüsusiyyətləri cədvəl 1 və 2-də verilmişdir.

Cədvəllərdən göründüyü kimi ÜRV-nin öyrənilən dövrü parametrlərinin əksəriyyətinin xəstələrin I yarımqrupunda yaşdan asılı olaraq nəzərə çarpan dəyişikləri müşahidə edilməmişdir. Yalnız bir-birindən 70 ms fərqlənən RR intervallarının orta sayı - pNN70 həm kiçik, həm də böyük məktəbli qruplarında hesablama zamanı statistik olaraq nəzarət qrupundan dürüst artmışdır ($P<0,001$). Vegetativ tənzimlənmənin ümumi balansını səciyyə edən SDNN göstərəcisi II yarımqrupa aid olan həm kiçik, həm də böyük yaşlı məktəblilərdə praktiki sağlamlarla müqayisədə uyğun olaraq 19,4% və 23,6% artıq olsa da bu dürüst fərq vermir ($P>0,05$). Anoloji mənzərə SDNNi indeksinin orta dərəcəli displazia əlamətləri olan məktəbli uşaqlarda təhlili zamanı da müşahidə olunmuşdur. SDNNi-nin qrup üzrə orta qiyməti 7-11 yaşlı xəstələrdə 27,6%, 12-16 yaşlılarda isə 15,6% çoxalmışdır (hər iki halda $P>0,05$). Bu yarımqrupda statistik olaraq əhəmiyyətli dəyişilmə VSS-nin parasimpatik hissəsinin fəallığını əks etdirən RMSSD göstəricisində müşahidə edilir. Belə ki, RMSSD parametrinin qrup üzrə orta qiyməti kiçik məktəb yaşlı DOBTDS olan uşaqlarda normativlə

müqayisədə 29,4 % (P<0,05), 12-16 yaşlılarda isə 30,5% (P<0,01) çoxalmışdır. Göstəricinin bu səviyyədə yüksəlməsi statistik hesablama zamanı I yarımqrupun müvafiq qiymətindən də dürüst fərqlənmişdir (P<0,05).

II yarımqrupa aid edilən xəstələrdə bir-birindən 30 ms-dın çox fərqlənən RR intervallarının faizlə miqdarı göstəricisi olan pNN 30 müayinə edilənlərin yaşından asılı olmayaraq azalmağa meylli olmuşdur. Parametrin qrup üzrə orta qiyməti kiçik məktəb yaşlılarda praktiki sağlamlarla müqayisədə 12,5%, 12-16 yaşlılarda isə 14,3% aşağıdır (hər iki halda P>0,05). Müqayisə zamanı DOBTDS olan kiçik məktəbli uşaqlarda nəzarət qrupu ilə nisbətdə daha qabarıq dəyişiklik parasimpatik şöbənin digər göstəricilərində - pNN50 və pNN70-də müşahidə olunmuşdur. Belə ki, qrup üzrə ortalama pNN50 indeksinin qiyməti 43,2% (P<0,05), pNN70 isə 2,7 dəfəyə yaxın artmışdır (P<0,001). Oxşar mənzərə 12-16 yaşlı uşaqlarda da izlənmişdir. Bu gösəricilərin orta qiymətlərinin I və II yaş qruplarında tərəddüdünün müqaisəli təhlili əhəmiyyətli fərqin olmadığını göstərir (p>0,05). Göründüyü kimi hər iki yaş qrupunda VSS-nin parasimpatik hissəsinin fəallığının göstəricilərinin artması paralel müşahidə olunmuşdur. Bu zaman DOBTDS olan uşaqlarda bir-birindən 70 ms fərqlənən ritmlərin sayının belə kəskin artması vegetativ requlyasiyanın parasimpatik şöbəsinin aktivləşməsi, qabarıq neyrodinamik disrequlyasiya ilə şırtləndirilir və proqnostik cəhətdən qeyri-qənaətbəxş əlamət hesab edilir.

Displaziya elementlərinin təzahürü qabarıq (III yarımqrup) olan uşaqlarda RR intervallarının orta davam etmə müddətindən standart kənara çıxma parametri olan SDNN-nin orta riyazi həddi 6-11 yaşlı məktəblilərdə təqribən 35,6% artmışdır ki, bu da həm nəzarət (P<0,05), həm də I yarımqrupla müqaisədə etibarlı fərq verir (P<0,05). Qeyd etmək lazımdır ki, bu qrupa aid edilən xəstələrdən 3 nəfərində SDNN-nin qiyməti heç dəyişməmişdir, 1 uşaqda isə hətta bir qədər azalmışdır. Bu parametrlərin artma tendensiyası böyük yaşlı qrup xəstələrdə də davam etmişdir.belə ki, bu qrupa aid edilən xəstələrin əksərində göstəricinin nisbətən yüksək qiymətləri müşahidə olunduğundan orta qiymət 40,2% yüksələrək özündən əvvəlki klinik təzahürlü uşaqların məlumatı ilə müqaisədə statistik dürüst fərqlənir (müvafiq olaraq P< 0,001, P1<0,05). Parametrlərin yaşdan asılı olaraq dəyişməsinin təhlili göstərdi ki, 12-16 yaşlı xəstələrdə SDNN-nin qiyməti birinci qrupla müqaisədə statistik etibarlı dərəcədə fərqli deyildir.

DOBTDS olan xəstələrdə kardiointervalların tam toplusunun standart kənara çıxma göstəricisi SDNN-nin əksər hallarda artması ürək qan damar sisteminin vegetativ tənzimlənməsində disbalansin yaranması və variabelliyinin diapazonunun genişlənməsini ifadə edir.

III yarımqrupun hər iki yaş qrupu SDNNi indeksinin dəyişməsi praktiki olaraq SDNN parametri kimi olmuşdur. Cədvəldən göründüyü kimi , SDNNi-nın kiçik məktəb yaşlı DOBTDS olan xəstələrdə orta ədədi qiyməti 34,4%, 12-16 yaşlı məktəblilərdə isə 40,0% artmaqla, həm sağlam, həm də yüngül və orta təzahür dərəçəli displaziyalı uşaqların müvafiq parametrindən statistik olaraq dürüst fərqlənmişdir. Bu qrupda 3 xəstədə parametrin qiyməti stabil saxlanılmışdır, 2 nəfərdə isə bir qədər azalmışdır. Qabarıq təzahür displaziyalı xəstələrdə SDNNi parametrinin orta qiymətinin artması, birinci yarımqrupla müqaisədə etibarlı dərəcədə seçilməklə vegetativ tənzimlənmədə avtonom konturun fəaliyyətində intensivləşmənin baş verməsini göstərir.

Cədvəl 1

DOBTDS olan 7-11 yaşlı uşaqlarda kliniki əlamətlərdən asılı olaraq ÜRV-nin dövri parametrlərinin dəyişməsi (M±m)

Gosrərici lər		SDNN	SDNNi	RMSSD	pNN 30	pNN 50	pNN 70
Nəzarət qrupu		56,72± 3,17	49,16±3,65	61,23±5,44	34,67±4,19	23,69±2,17	0,82±0,01
I yarım qrup		59,94± 6,34 (41,18-79,63)	48,22±4,52 (39,73-67,54)	63,12±5,21 (54,72-97,76)	33,94±3,66 (24,53-54,67)	25,07±3,69 (17,18-41,77)	1,94±0,07 (0,94-2,34)
	P	>0,05	>0,05	>0,05	>0,05	>0,05	<0,001
II yarım		67,81± 3,81 (48,27-94,67)	62,57±3,07 (53,32-95,62)	78,94±3,10 (62,38-119,43)	28,31±3,07 (20,17-41,56)	38,89±4,01 (24,27-52,38)	2,27±0,19 (1,32-2,68)

qrup	P	>0,05	>0,05	<0,05	>0,05	>0,05	<0,001
	P1	>0,05	>0,05	>0,05	>0,05	<0,05	>0,05
III yarım qrup		76,47± 4,06 (54,39-112,07)	66,02±3,71 (50,64-104,60)	82,34±4,61 (67,78-127,42)	82,34±4,61 (67,78-127,42)	27,43±2,17 (17,25-46,62)	2,94±0,27 (1,69-4,19)
	P	<0,001	<0,001	<0,01	<0,05	<0,001	<0,001
	P1	<0,05	<0,05	<0,05	<0,05	>0,05	<0,01
	P2	>0,05	>0,05	>0,05	>0,05	>0,05	>0,05

Qeyd: P – nəzarət qrupu ilə müqaisədə; P1 - I qrupla müqaisədə ; P2 – II qrupla müqaisədə dürüstlük

III yarımqrupa aid edilən uşaqlarda RMSSD – parasimpatik sinir sistemi göstəricisinin orta statistik qiymətlərinin də simpatik şöbənin parametrlərinə uyğun olaraq artması müşahidə edilmişdir. Kiçik məktəb yaşlı displaziyalı uşaqlarda RMSSD qrup üzrə orta hesabla 34,3% (P<0,01; P1<0,05), 12-16 yaşlı məktəblilərdə isə bir qədər çox 38,7% artmışdır (P<0,001; P1<0,001). Göründüyü kimi bu parametrin dəyişməsi həm nəzarət qrupu, həm də yüngül əlamətli qrupla müqayisədə nəzərə çarpan olmaqla bərabər, böyük məktəb yaşlı xəstələrdə daha qabarıq müşahidə edilir. Tədqiqatçıların qənaətinə əsasən orqanizmdə bu cür vegetativ disfunksiyanın uzun müddət saxlanilması sinoatrial düyünün işini əngəlləməklə avtomatizmin supraventrikulyar və ventrikulyar mərkəzlərinin latent aktivləşməsinə səbəb olaraq nəticədə impulsların atrioventrikulyar birləşmədən Hiss-Purkinye sisteminə keçmə yolunun refrakterliyini pozur [4].

pNN30 parametrinin III yarımqrup DOBTDS olan uşaqlarda dəyişməsi yaşdan asılı olaraq eyni istiqamətli olsa da, müxtəlif səciyyəli tərəddüd aşkar etdi. I qrup xəstələrdə pNN30 orta qiyməti 20,0% azalmışdır. Göstəricinin qrup üzrə orta qiymətinin belə azalması nəzarət və I yarımqrupla müqayisədə dürüst fərqlidir (P<0,05;P1<0,05). Yuxarı məktəb yaşlı xəstə uşaqlarda göstəricinin aşağı düşmə halı daha qabarıq olmuş və nəzarət qrupu ilə müqaisədə 26,50% təskil etmişdir тяшкил етмишдир (P<0,05;P1<0,05).

Kliniki əlamətlərin təzahürü 28 baldan artıq qiymətləndirilən xəstələrdə pNN 50 indeksinin orta qiyməti həm 6-11 (53,4%; P<0,05), həm də 12-16 yaşlı qruplarda (70,3%;P<0,05) artaraq praktiki sağlamların müvafiq həddindən statistik dürüst fərqlənmişdir. pNN50 I qrupda yalnız 3 xəstədə normaya yaxın rəqəmlərdə qeydə alınmışdır. Bu yarımqrupda pNN70 parametrinin orta statistik həddinin artma tendensiyası daha əhəmiyyətli olmaqla I qrupda 3,6 dəfə, II qrupda isə 3,1 dəfə normativ səviyyədən artmışdır. Göstəricinin qruplar arasında müqaisəli təhlilində fərq bütün qrup arasında əhəmiyyətli dərəcədə dürüstdür.

Beləliklə, alınmış nəticələrin təhlilindən müəyyən olunur ki, yüngül dərəcəli DOBTDS olan xəstələrdə yaşdan asılı olmayaraq ÜRV parametrlərindən SDNN, SDNNi, RMSSD, pNN50 və pNN70 (P<0,001) parametrlərinin artmağa meylliliyi fonunda pNN30 indeksinin azalması müşahidə olunur. Displaziyanın fenotipik klinik təzahür əlamətləri və yaş artdıqca ÜRV göstəricilərinin dəyişilmə səviyyəsi əksər hallarda dərinləşmyə istiqamətlənir.

Cədvəl 2

BTDS olan 12-16 yaşlı uşaqlarda kliniki əlamətlərdən asılı olaraq ÜRV-nin dövri parametrlərinin dəyişməsi (M±m)

Gosrəricilər	P	SDNN	SDNNi	RMSSD	pNN 30	pNN 50	pNN 70
Nəzarət qrupu		64,91±5,74	59,14±4,63	62,04±6,11	20,17±3,65		0,87±0,03
I yarım qrup		67,11±6,11 (52,17-94,35)	60,41±5,27 (49,38-97,51)	64,57±5,24 (50,44-0,37)	32,21±2,69 (24,63-1,17)	24,83±2,57 (17,53-1,09)	1,72±0,09 (0,98-2,41)
		>0,05	>0,05	>0,05	>0,05	>0,05	<0,001
II yarım qrup		78,72±5,17 (60,24-124,41)	68,27±3,77 (58,81-96,47)	80,60±3,84 (71,43-121,62)	27,52±2,19 (20,27-0,72)	34,04±3,01 (22,87-69,71)	2,01±0,10 (1,69-3,11)
	P	>0,05	>0,05	<0,01	>0,05	<0,05	<0,001
	P1	>0,05	>0,05	<0,05	>0,05	>0,05	<0,05
III yarım qrup		89,60±4,22 (66,47-38,12)	82,87±4,08 (70,25-107,64)	85,56±4,46 (73,08-134,16)	23,68±2,04 (18,44-8,83)	35,69±2,67 (27,61-82,27)	2,68±0,21 (1,98-4,10)
	P	<0,001	<0,001	<0,001	>0,05	<0,001	<0,001
	P1	<0,05	<0,01	<0,001	<0,05	<0,05	<0,001
	P2	>0,05	<0,05	>0,05	>0,05	>0,05	<0,05

Qeyd: P – nəzarət qrupu ilə müqaisədə; P1 - I qrupla müqaisədə; P2 – II qrupla müqaisədə dürüstlük

DOBTDS xəstələrdə ÜRV-nin dövrü parametrlərinin təhlili göstərdi ki, ürək fəaliyyətinin vegeativ tənzimlənməsi yaşdan və xüsusilə də kliniki əlamətlərin sayından asılı olaraq şöbələrin qarşılıqlı əlaqəsinin dəyişməsi ilə xarakterizə olunur. Əsasən böyük məktəb yaşlı uşaqlarda xəstəliyin qabarıq təzahürlü formasında VSS-nin simpatik və parasimpatik şöbələri arasında fəallığın qarşılıqlı və ya birtərəfli nisbi yüksəlməsi ilə disbalansın formalaşması meylləri güclənir. Belə halın dinamik böyüməkdə olan və daimi endogen-ekzogen teratogen amillərin təsiri altında olan uşaq orqanizmində uzun müddət saxlanılması generəlizə olunmuş vegetopatiyaların yaranma ehtimalını artırır.

ƏDƏBIYYAT

1. İsayev İ.İ., Fətəliyeva M.M.,Mustafayeva A.İ Ürək ritminin variabelliyi və onun uşaqlarda müxtəlif patologiyalarda öyrənilməsinin rolu // Sağlamlıq, 2009, № 9, s.12-16
2. İsayev İ.İ., Fətəliyeva M.M., Mustafayeva A.İ., Vəlibəyova F.M. Uşaqlarda qeyri-paroksizmal taxikardiyalar zamanı ürək ritminin variabelliyinin dövri parametrlərinin xüsusiyyətləri // Azərbaycan Tibb Jurnalı, 2011, № 2, s.49-52
3. Аббакумова Л.Н. Клинические формы дисплазии соединительной ткани у детей. С.Пб., 2006, 35 с.
4. Баевский Р.М., Иванов Г.,Г. Вариабельность сердечного ритма: теоретические аспекты и возможности клинического применения. (Методическое пособие). М., 2007, 31 с.
5. Вариабельность ритма сердца. Рекомендации рабочей группы Европейского Кардиологического общества и Северо-Американского общества кардиостимуляции электрофизиологии // Вестник аритмологии, 1999, №11, с.53-78
6. Вильчинская Т. Дисплазия соединительной ткани у детей. 2010, часть 1-2, с.1-5
7. Земцовский Э.В. Диагностика и лечение дисплазии соединительной ткани // Медицинский вестник, 2006, № 11, с. 15-17
8. Кадурина Т.И., Гарбунова В.Н. Дисплазия соединительной ткани. Руководство для врачей. СПб.: «Элби-СПб», 2009, 704 с.
9. Новиков А.А., Ионова Т.И. Концепция исследования качества жизни в педиатрии // Педиатрия, 2002, №6, с. 83-88
10. Нечаева Г.И., Яковлев В.М., Друк И. В. Нарушения ритма сердца при недифференцированной дисплазии соединительной ткани // Леч. врач, 2008, № 6, с. 2–7.
11. Щеплягин Л.Я. Факторы риска и формирования здоровья детей // Российский педиатрический журнал, 2002, №2, с. 4-7
12. Ягода А.В., Гладких Н.Н., Евсеева М.Е. Возможности ранней диагностики нарушений сердечно-сосудистой регуляции при синдроме дисплазии соединительной ткани // Медицинская помощь, 2002, № 2, с. 22-24
13. Miwa K., Igava A., Miyagi Y. et al. Alterations of autonomic nervous activity preceding nocturnal varian angina:sympathetic augmentation with parasympathetic impairment // Am Heart J, 1998, v.135, p. 762-71
14. Simpson M.R. Benign joint hypermobility syndrome: evaluation, diaqnosis, and management // J.Am. Osteopath.Assoc., 2006, v.106 (9), p. 531-536.

Резюме

Временные параметры вариабельности сердечного ритма у детей с синдромом недеферренцированных дисплазии соединительных тканей

И.И.Исаев, Г.А.Мурадова, М.М.Фаталиева, А.И.Мустафаева

С целью изучения особенностей временных параметров вариабельности сердечного ритма у детей с СДНСТ в зависимости от возраста и проявлений клинических особенностей было обследовано 142 детей в возрасте 7-12 лет. Дети были разделены на 2 возрастные группы (7-11 и 12-16 лет) по следующим клиническим подгруппам: легкие (до 12-ти баллов-78 детей), средние (12-23 баллов-33 детей) и с ярким проявлением (выше 23 баллов- 31 детей). У всех пациентов анализированы временных параметры вариабельности сердечного ритма (RRNN, SDNN, SDNNi, RMSSD, pNN30, pNN50, pNN70). Группу контроля составили 36 детей соответствующего возраста. Из анализа полученных результатов ясно, что у пациентов с СДНСТ легкой степени независимо от возраста наблюдается уменьшение индекса pNN30 на фоне склонности роста параметра SDNN, SDNNi, RMSSD, pNN50 и pNN70 (P<0,001) параметров ВСР. С возрастом признаки клинического проявления дисплазии и уровень изменения показателей ВСР в основном направлены на углубление.

Анализ временных параметров ВСР у детей с СДНСТ показал, что вегетативное регулирование сердечной деятельности в зависимости от возраста и особенно клинических признаков характеризуется изменением взаимосвязи отделов. В основном у старшеклассников в форме яркого проявления болезни между симпатическим и парасимпатическим отделами ВНС усиливается склонность формирования дисбаланса с относительным односторонним или взаимным повышением активности. Длительное сохранение в детском организме динамически развивающегося такого состояния увеличивает вероятность возникновения генерализованной вегетопатии.

Summary

Periodical parameters of heart rhythm variability of children having undifferentiated connective tissue dysplasia syndrome.

I.Isayev, G.A.Muradova, M.M.Fataliyeva, A.I.Mustafayeva

In order to learn characteristics of periodical parameters of heart rhythm variability of children having UCTDS depending on appearance of clinic sins and age, 142 schoolchildren at the age of 7-16 were examined. Children of second age group (7-11 and 12-16) were divided to light (78 children to 12 points), medium (33 children 23 points) and salient (31 children-above 23 points) signed clinic subgroups. Periodical parameters of heart rhythm variability of all patients (RRNN, SDNN, SDNNi, RMSSD, pNN30, pNN50, and pNN70) were analyzed. It became obvious from gained results that decrease of Pnn 30 index is observed in the background of inclination of parameters of HRV (SDNN, SDNNi, RMSSD, pNN50 and pNN70 (P<0,001) to increase is observed in children having light leveled UCTDS not depending on age. By age signs of clinical appearance of dysplasia and change level of HRV are in general directed to broadening.

Analysis of periodical parameters of HRV in children with UCTDS showed that vegetative regulation of heart activity depending on age and characteristics of clinical signs is characterized by change of section correlation. Inclinations to forming misbalance with relative one-side or mutual increase of activity between sympatic or parasympatic sections of VNS is increased in the form of blow generally in senior schoolchildren. Long-term preservation in child's organism of dynamically developing state increases possibility of appearance of generalized vegetopathy.

Daxil olub:19.11.2012

POSTNATAL ONTOGENEZİN MÜXTƏLİF YAŞ DÖVRLƏRİNDƏ SİDİK KİSƏSİ VƏZİLƏRİ VƏ LİMFOİD TÖRƏMƏLƏRİNİN MİKROTOPOQRAFİK XÜSUSİYYƏTLƏRİ

G.A. Hüseynova

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: vəzilər, limfoid düyüncüklər, insan sidik kisəsi

Ключевые слова: железы, лимфоидные узлы, мочевой пузырь человека


Key words: glands, lymph nodules, human urinary bladder

Mövcud ədəbiyyat materialları ilə tanışlıq göstərir ki, borulu orqanların vəziləri və limfoid törmələrinə dair çoxsaylı elmi-tədqiqat işləri, hətta iri həcmli monoqrafiyalar həsr edilmişdir [3, 7, 9, 10, 12-15]. Bu borulu orqanlarının divar strukturlarının əsas təmsilçiləri olan kiçik vəzilərin və limfoid törəmələrinin onların normal fəaliyyətində, habelə müxtəlif xəstəliklərinin gedişi zamanı yerinə yetirdikləri əhəmiyyətli rol ilə əlaqədardır. Sidik kisəsinin müxtəlif istiqamətlər üzrə tədqiqi zamanı kiçik vəzilər və limfoid törəmələrinin morfogenezi kompleks deyil, disproporsional şəkildə öyrənilmiş [17], heç də bütün hallarda incəliklərinə qədər dəqiqləşdirilməmiş, ya patoloji proseslərlə əlaqədar dərin degenerativ dəyişikliklərə uğramış materialların üzərində tədqiqatların nəticələrinə əsaslanaraq müəyyənləşdirilmiş [5], ya da bu planın gerçəkləşməsini təmin edə bilən kompleks üsullar ilə yanaşılmadan azsaylı məsələləri əhatə etmişdir [11]. Bu aspektdə mövcud boşluqların aradan qaldırılması

məsədi ilə postnatal ontogenezin müxtəlif dövrlərində [4,8] sidik kisəsi vəziləri və limfoid törəmələrinin qarşılıqlı mikrotopoqrafik, mikrosintopik münasibətləri araşdırılmışdır.

TƏDQIQATIN MATERIAL VƏ METODLARI. Mikroanatomik olaraq vəzilər və limfoid törəmələr 5,0-7,0 mkm qalınlıqda sidik kisəsinin divar kəsikləri hematoksilin-eozin, azur-2-eozin, Van-Gizon və Kreyberq üsulları ilə, həmçinin müəyyən hallarda histokimyəvi olaraq ŞİK-reaksiyasından istıfadə etməklə boyanmaqla tədqiq edilmişdir; istisna hallarda isə Qrimelius üsulu ilə gümüşləmə metodundan da istifadə edilmişdir.


TƏDQIQATIN NƏTICƏLƏRI VƏ ONLARIN MÜZAKIRƏSI. Postnatal ontogenezdə sidik kisəsi vəziləri 100-205 sayda olub, onların quruluşunun ümumi mikroanatomik xüsusiyyətləri qaraciyərxarici öddaşıyıcı yolların [3], qırtlaq [13], nəfəs borusu və bronx [9-10], eləcə də digər borulu orqanların vəzilərinin müvafiq prinsiplərinə uyğundur. Vəzilər sidik kisəsi divarının kəsiyində çəhrayı fonda dəqiq hüduda malik tünd törəmələr şəklində aşkarlanır. Postnatal ontogenezin tədqiq edilən bütün yaş dövrlərində sidik kisəsi divarı boyunca vəzilər bir və bir neçə (adətən yeddiyədək) başlanğıc (alveol) şöbələrə malik ola bilirlər. Bir-iki alveol (başlanğıc) şöbəli vəzilər sadə, üç və daha artıq şöbəli vəzilər isə mürəkkəb vəzilər qrupuna aid edilmişdir. Vəzilərin başlanğıc (alveol) şöbələri selikli qişada müxtəlif dərinlikdə yerləşirlər; selikaltı qatda və əzələ qişasında vəzilərə təsadüf edilmir. Vəzi şöbələri kövşək lifli birləşdirici toxuma elementləri ilə əhatə olunur. Qeyd etmək lazımdır ki, normada bizim [1,2,17] və yüksək dağ şəraitində, soyuq və stres fakrorlarının təsiri altında sidikçıxarıcı yolların limfa aparatının struktur-funksional xarakreristikasını öyrənən digər müəllifin tərəfindən aparılan tədqiqatda [11] qısa şəkildə vəzi haqqında verilən məlumat əldə etdiyimiz yekunlara uyğundur. Belə ki, tədqiq olunan bütün yaş dövrlərində aşkarlanan vəzilər müxtəlif – bərabər, qeyri-bərabər, qrup və ş. şəkillərdə yerləşirlər; bərabər yerləşdikdə vəzilərin arasında onların alveol (başlanğıc) şöbələrinə nisbətən kiçik ölçülü sahələr, qeyri-bərabər yerləşdikdə isə əksinə, böyük şəffaf vəzisiz selikli qişa hissələri nəzərə çarpır (şəkil 1). Vəz aparatının sonuncu quruluş variantı ahıl və qocalıq yaş dövrləri üçün daha xarakterdir. Əlavə etmək lazımdır ki, xüsusən sidik kisəsi vəzilərinin müxtəlif (sadə və mürəkkəb) formalarının qrup, müştərək – qarşılıqlı, həm tək şəkildə yerləşmə hallarına (10-15 %) təsadüf olunur. Büzücülər nahiyəsində vəzilərin yerləşməsində sıralılıq prinsipi pozulur və onlar sıx şəkildə yerləşərək özunəməxsus yığıntılar əmələ gətirirlər. Çox güman ki, bu tip yerləşmə xüsusiyyəti əzələ aktivliyi ilə yanaşı, sidik və onun substansiyaları ilə sıx kontaktla bağlıdır [6,7,12].




Şək. 1. 41 yaşlı kişinin sidik kisəsinin selikli qişasında vəzilər diffuz limfoid toxuma ilə birlikdə. Mikropreparat. Aşağı hissə. 1-alveol (başlanğıc) şöbə; 2-vəzi axacağı; 3-selikli qişada diffuz limfoid toxuma; 4-alveol (başlanğıc) şöbəni əhatə edən birləşdirici toxumada diffuz limfoid toxuma. Hematoksilin-eozinlə boyama. Böyütmə 100x.

Sidik kisəsi büzücüləri nahiyəsində yaşdan asılı olmayaraq vəzilər yığıntı halında toplanır - sıx və kompakt yerləşirlər: büzücütrafi sahələrdə isə vəzilər kiçik ölçülü olmaqla yanaşı, ya az sayda aşkarlanır, ya da heç təsadüf edilmir.

Tədqiqatın gedişi zamanı histoloji preparatlarda həm tam sidik kisəsi divarında, həm də onun ayrı-ayrı hissələrində limfoid toxumanın mikroanatomiyasını və mikrotopoqrafiyasını araşdırmaq mümkün olmuşdur. Əldə edilən nəticələrə görə sidik kisəsi divarında limfoid törəmələr adətən, limfoid düyüncüklərlə və selikli qişanın xüsusi səfhəsində, habelə onun bütün qatlarında yerləşən diffuz limfoid toxuması elementləri ilə təmsil olunur. Limfoid düyüncüklər dəqiq hüduda malik tünd anatomik törəmələr şəklində aşkarlanır. Demək olar ki, bütün müşahidələrdə çoxalma mərkəzi olmayan limfoid düyüncüklər diqqəti cəlb edir (Şək. 2).



Şək. 2. 29 yaşlı qadının sidik kisəsinin selikli qişası. Mikropreparat. Aşağı hissə. 1-epitel səfhə; 2-selikli qişa; 3-limfoid düyüncük; 4-stroma; 5-alveol (başlanğıc) şöbə. Hematoksilin-eozinlə boyama. Böyütmə 100x.



Şək. 3 (A,B,C). 19 yaşlı qızda (A), 21 yaşlı oğlanda (B,C) sidik kisəsi vəzilərinin axacaqları ətrafında diffuz limfoid toxuma hüceyrələri. Mikropreparat. Aşağı hissə. 1-ümumi axacaq; 2-diffuz limfoid toxuma. Hematoksilin-eozinlə boyama. Böyütmə 250x (şək. 3 A), 100 x (şək. 3 B,C)


Görmə sahəsində limfoid düyüncüklərin forması müxtəlifdir: oval, girdə (dairəvi), qeyri-düzgün. Limfoid düyüncüklər tək-tək, qrup şəklində yerləşə bilirlər. Bu düyüncüklər ətrafında yerləşən selikli qişa hissələrində "limfoid düyüncüksüz sahələr" diqqəti cəlb edir. Limfoid düyüncüklərin ölçüləri kimi düyüncüklərarası məsafədə də qeyri-bərabərlik diqqəti cəlb edir. Sidik kisəsinin aşağı hissəsinin preparatlarında limfoid düyüncüklər topoqrafik xüsusiyyət əldə edərək ya sidik axarlarının sıdıklik büzücülərinin ətrafında olduğu kimi düzgün olmayan halqaşəklli törəməni, ya da sidik kanalının daxili büzücüsü sahəsində aşkarlanan "limfoid halqa" adlanan yığıntını formalaşdırırlar. Büzücüətrafi sahələrdə selikli qişada, adətən, "limfoid düyüncüksüz sahələr" və kiçik limfoid düyüncüklər aşkarlanır.

Tədqiqatın nəticələri göstərir ki, postnatal ontogenezin bütün yaş dövrlərində sidik kisəsi divarında vəzilər limfoid toxuma elementləri (limfoid düyüncüklər, diffuz limfoid toxuma) ilə sıx mikrotopoqrafik münasibətdə olur. Limfoid sırası hüceyrələri, adətən, sidik kisəsi vəzilərinin stromasında, alveol (başlanğıc) şöbələrinin ətrafında, bilavasitə qlandulositlərin əhatəsində (Şək. 3) aşkarlanır.

Əksər hallarda limfoid sırası hüceyrələri sidik kisəsi vəzilərinin axacağı ətrafında qeyd edilir. Vəzilərin axacaq dəliyi ətrafında demək olar ki, bütün müşahidələrdə limfoid düyüncüklər nəzərə çarpır. Çox güman ki, bu xüsusiyyət mikroorqanizmlərin və yad antigenlərin axacaq vasitəsilə orqanın divarının dərinliklərinə və sonda daxili mühitə nifuz etməsinin

qarşısını almaq məqsədini güdür. Kiçik vəzilərin axacaqları ətrafında yerləşən belə limfoid törəmələr M.R. Sapin və L.Y.Etingenin (1996) mülahizəsinə görə özünəməxsus "gözətçi postu" və ya "nəzarətçi məntəqə" funksiyasını yerinə yetirir. Ehtimala görə, vəzilərin serkesiyası prosesində bioritmlərin mövcudluğu [15,16] və onun asinxronluq xüsusiyyətləri yad antigenlərin bütün hallarda "yuyulmamasına" səbəb olur.


Tədqiqatın əldə edilən nəticələrinə görə, diffuz limfoid toxumanın və limfoid düyüncüyün hüceyrə tərkibi eynitiplidir (şəkil 4). Limfoid sırası hüceyrələri içərisində kiçik və orta limfositlərə, retikulyar hüceyrələrə, daimi olaraq az sayda makrofaqlara, cavan forma limfoid toxuma hüceyrələrinə (mitotik bölünmə mərhələsində olan hüceyrələrə), plazmatik hüceyrələrə, habelə epizodik şəkildə aşkarlanan tosqun hüceyrələrə, eozinofillərə və neytrofillərə də təsadüf olunur.



Şək. 4. 17 yaşlı oğlanın sidik kisəsinin selikli qişasında diffuz limfoid toxumanın hüceyrə tərkibi. Mikropreparat. Orta hissə. 1-kiçik limfositlər (cüt şəkildə yerləşmiş); 2-mitoz bölünmə mərhələsində olan limfositlər; 3-retikulyar hüceyrə. Gümüşləmə üsulu ilə boyama. Böyütmə 450 x.

İmmun sistemin periferik orqanlarına aid digər təmsilçi - diffuz limfoid toxuma hüceyrələri də, vəzilərin alveol (başlanğıc) şöbələrinin ətrafında, eyni zamanda qlandulositlərin bilavasitə yaxınlığında – onların bazal səthi üzrə stromada yerləşirlər. Belə yerləşmə xüsusiyyəti isə çox güman ki, sekresiya prosesi üzərində immun nəzarəti fəaliyyətini yerinə yetirməyə xidmət edir. Y.S. Şvartsman və L.B. Hazensonun (1978) mülahizəsinə görə, qlandulositlər alveol (başlanğıc hissə) ətrafında yerləşən limfoid toxumanın plazmatik hüceyrələrinin hasil etdiyi "immunglobulin A"nın sekretor tərkibi (dimeri) hesab edilən komponentin sintezində iştirak edir. Beləliklə, limfoid toxuma və onun törəmələri immun sistemin periferik orqanlarının struktur nümayəndəsi kimi MALT-sistemə (mucosa-associated lymphoid tissue) qoşularaq selikli qişanın, həmçinin onun epitel səfhəsinin özünə məxsus qoruyucu xüsusiyyətlərinin yerinə yetirilməsində bilavasitə iştirak edir.

Postnatal ontogenezin erkən uşaqlıq dövründə həm tam orqan üzrə, həm də onun hər üç hissəsinin total preparatlarında yenidoğulmuşlarla müqayisədə limfoid düyüncük sıx yerləşməklə yanaşı, onun, eləcə də diffuz limfoid toxumanın hüceyrə tərkibində 1,4 dəfə artım baş verir; erkən uşaqlıq dövründən sonra isə əks meyllilik müşahidə edilir (Şək.5). Araşdırılan bu fakt immun sistemin periferik orqanlarının morfogenezinin ümumi qanunauyğunluqlarına müvafiq olub, qeyd edilən törəmələrin maksimal ontogenetik inkişafının erkən uşaqlıq yaş dövrünə təsadüf etdiyini göstərir [14,15]. Erkən uşaqlıq yaşı dövründən sonra limfoid toxumada morfoloji baxımdan tədricilik xüsusiyyətinə malik olan involyutiv proseslər (limfoid düyüncüklərinin ölçü və sayında azlmalar və s.) üzə çıxmışdır.



Şək.5. Postnatal ontogenezdə tam sidik kisəsinin selikli qişasında diffuz limfoid toxumanın hüceyrələrinin sayının yaş xüsusiyyətləri

Erkən uşaqlıq yaşı dövründən sonra isə sidik kisəsinin limfoid törəmələrinin involyusiya prosesi başlanır. Bu xüsusiyyət qocalıq yaşı dövründə daha qabarıq təzahür edir. Belə ki, sonuncu yaş dövründə sidik kisəsinin divarının yuxarı və orta hissələrində selikli qişada limfoid düyüncüklər ya təsadüfi hallarda aşkarlanır, ya da demək olar ki, heç qeyd edilmir - yalnız sidik kisəsinin aşağı hissəsində selikli qişada forma dəyişkənliklərinə uğramış (adətən, üçbucaqşəkilli) limfoid düyüncüklər diqqəti cəlb edir.

Beləliklə, postnatal ontogenezin müxtəlif dövrlərində sidik kisəsinin vəzilərinin və limfoid törəmələrinin histoloji tədqiqi onların aşağıdakı mikrotopoqrafik xüsusiyyətləri aşkarlamağa imkan verdi:

1. Postnatal ontogenezin müxtəlif, eləcə də eyni yaş dövründə sidik kisəsinin ayrı-ayrı hissələrində vəzilərin və limfoid törəmələrinin yerləşmə xüsusiyyəti fərqlidir.
2. Postnatal ontogenezdə sidik kisəsi vəziləri immun sistemin periferik orqanlarının təmsilçiləri olan limfoid düyüncüklər, diffuz limfoid toxuma ilə sıx mikrotopoqrafik münasibətdə olur.
3. Postnatal ontogenezdə sidik kisəsi divarında limfoid düyüncüklər adətən vəzi axacaqları ətrafında yerləşirlər. Diffuz limfoid toxuma hüceyrələrinə gəldikdə isə onlar ya sidik kisəsi vəzilərinin stromasında – alveol (başlanğıc) şöbələrin ətrafında, ya da alveollar (başlanğıc hissələr) araasında bilavasitə qlandulositlərin əhatəsində aşkarlanır.
4. Sidik kisəsi divarında limfoid törəmələr erkən uşaqlıq yaşı dövründə maksimal ontogenetik göstəricilərlə səciyyələnir.
5. Postnatal ontogenezdə sidik kisəsi divarında vəzilər və limfoid törəmələr büzücülər nahiyəsində büzücüətrafı sahəyə nisbətən daha sıx yerləşərək özünəməxsus yığıntılar əmələ gətirirlər.

ƏDƏBIYYAT

1. Hüseynova G.A. Postnatal ontogenezin müxtəlif yaş dövrlərində sidik kisəsi vəzilərinin və limfoid törəmələrinin mikroanatomiyası haqqında // Azərbaycan Tibb Jurnalı, 2012, №3, s. 156-162
2. Şadlinski V.B., Hüseynova G.A. Postnatal ontogenezdə sidik kisəsi vəzilərinin axacaq aparatının morfoloji xüsusiyyətləri // Azərbaycan Tibb Jurnalı, 2011, №2, s. 75-79
3. Аллахвердиев М.К. Структурно-функциональная характеристика и закономерности морфогенеза железистого и лимфоидного аппаратов внепеченочных желчевыводящих путей человека в постнатальном онтогенезе: Автореф. дисс… док. мед. наук,Баку, 40 с.
4. Аршавский И.А. Проблемы периодизации онтогенеза человека / Советская педагогика, 1965, №11, с. 120-132
5. Аль-Шукри С.Х., Ткачук В.Н. Опухоли мочеполовых органов, СПб: Наука, 2000, 310 с.
6. Баженов Д.В., Блинова Н.В. Женский мочеиспускательный канал и его сфинктерный аппарат. Тверь: Триада, 2009, 80 с.
7. Блинова Н.В. Морфофункциональная характеристика женского мочеиспускательного

канала и его сфинктерного аппарата: Автореф. дисс. … канд. мед. наук. М., 2000, 21 с.

8. Бунак В.В. Возрастная классификация / Советская педагогика, 1965, №11, с. 105-119

9. Гусейнов Б. М. Некоторые морфологические особенности желез трахеи и главных бронхов человека // Azərbaycan Tibb Jurnalı, 2006, №4, s.72-75

10. Гусейнов Б. М. Некоторые топографо-анатомические особенности и размерно-количественные показатели лимфоидных образований трахеи и главных бронхов человека в возрастном аспекте // Морфологические ведомости, Москва, 2008, №1-2, с. 41-43

11. Девонаев О.Т. Структурно-функциональные характеристики и особенности морфогенеза лимфоидного аппарата мочевыводящих путей в норме и при воздействии холодового стресса и высокогорья (анатомо-экспериментальное исследование): Автореф. дисс. … докт. мед. наук. Душанбе, 2007, 31 с.

12. Колесников Л.Л. Сфинктерология. М.: ГЭОТАР – МЕД, 2008, 452 с.

13. Мовсумов Н.Т. Морфогенез желез гортани человека в норме и в эксперименте при некоторах бальнеологических воздействиях: Автореф. дисс. … докт. мед. наук, Баку, 2004, 41 с.

14. Сапин М.Р.,Этинген Л.Е. Иммунная система человека. М.: Медицина, 1996, 300 с.

15. Сапин М.Р., Никитюк Д.Б., Шадлинский В.Б., Мовсумов Н.Т. Малые железы пищеварительной и дыхательной систем. М.: АПП «Джангар», 2001, 134 с.

16. Чугай М.Е. Крипты и железистые образования мочевого пузыря человека и некоторых животных. Мат. к макро-микроскопии вегетативной нервной системы и желез слизистых оболочек и кожи. Москва: «Медгиз», 1948, с.314-318

17. Шадлинский В.Б., Гусейнова Г.А. Морфологические характеристики железистого аппарата мочевого пузыря на разных этапах постнатального онтогенеза // Морфология, 2011, том 139, №1, с. 68-73

18. Шварцман Я.С., Хазенсон Я.Б. Местный иммунитет. Ленинград: Наука, 1978, 223 с.

Резюме

Микротопографические особенности желез и лимфоидных оразований мочевого пузыря в разных возрастных периодах постнатального онтогенеза

Г.А.Гусейнова

Целью исследования является изучение микротопографических структурных характеристик желез и лимфоидных образований мочевого пузыря у человека в постнатальном онтогенезе. В результате комплексного морфологического исследования желез и лимфоидной ткани мочевого пузыря у людей разного пола и возраста были описаны микротопографические особенности этих образований, проанализированы их структурные характеристики в постнатальном онтогенезе. Железы находятся в тесных микротопографических отношениях с лимфоидными образованиями - лимфоидными узелками без центров размножения и диффузной лимфоидной тканью. Железистый аппарат мочевого пузыря представлен 100-205 железами, располагающимися на всем протяжении стенки органа. Железы находятся в тесных микротопографических отношениях с лимфоидными образованиями – лимфоидными узелками без центров размножения и диффузной лимфоидной тканью. Доказано, то в зонах сфинктеров мочевого пузыря наблюдается увеличение плотности расположения желез и лимфоидных узелков.

Summary

The mikrotopographycal features of the urinary bladder glands and lymfoid structures in different ages of postnatal ontogenesis

G.A.Huseynova

The aim of the research is studying of mikrotopographical structural characteristics of glands and lymphoid structures of a urinary bladder in postnatal ontogenesis. As a result of complex morphological research of glands and lymphoid structures of the urinary bladder in different sex and age people, have been revealed laws of their morphogenesis, features of mikrotopographical anatomy, their structural characteristics are analyzed. The glands apparatus of a urinary bladder is presented by 100-205 glands which are situatea on all extent of organs wall. Glands are in close microtopographical relations with lymphoid formations – lymphoid nodules without the centers of reproduction and diffuse lymph tissue. It is proved, in zones sphincters a urinary bladder the increase in density of an arrangement of glands and lymphoid nodules.

Daxil olub:09.10.2012

ÜRƏYİN MİKROANOMALİYALARI OLAN UŞAQLARDA MİOKARDIN VƏ KARDİOHEMODİNAMİKANIN XÜSUSİYYƏTLƏRİ

Rəhmanov Z.K., Xəlilova B.M., Qədimova E.V., Qafarlı G.A.
C.Abdullayev adına ET kardiologiya institutu, Bakı

Açar sözlər: kardioanomaliyalar, uşaqlar, miokard, kardiohemodinamika
Ключевые слова: кардиоаномалии, дети, миокард, кардиогемодинамика
Keywords: cardioanomalies, children, myocardium, cardiohemodynamics

Ürək- damar sisteminin xəstəlikləri, xronik qeyri- infeksionpatologiyanın strukturunda erkən əlilləşmə və əhali arasında müxtəlif yaş qruplarında ölümlə nəticələnən xəstəliklərin aparıcı səbəi olub, birinci yer tutmaqda davam edir [2,11,13].

Son illərin tədiqaqtları göstərmişdir ki, böyüklərdə qan dövranı sisteminin pozulmalara artıq uhaq yaşlarında formalaşmağa başlayır və bunlar içərisində əsas yerlərdən birini ürək ritminin pozuntuları təşkil edir [6,7]. Ürək ritminin müxtəlif pozuntuları həyati təhlükə yaradan mədəcik aritmiyaları və qəfil ölum sindromu kimi hallar bir box tədqiqatçılar tərəfindən aktual mövzu kimi qeyd olunmuşdur [4,9].

Tibb elminin, o cümlədən, kardiologiyanın sürətli inkişafına baxmayaraq, aritmogen ölüm bütün kardiovaskulyar ölümün strukturunda ən böyük yer tutur. C.T.Biqqer və h.m. məlumatına əsasən inkişaf etmiş ölkələrdə aritmogen ölüm kardiovaskulyar ölümün 50% təşkil edir [12]. Avropa kardioloji cəmiyyətinin məlumatına görə, mədəcik taxiaritmiyaları qan dövranının kəskin dayanmasının səbəblərinin 75-80% təşkil edir [15].

Ürək ritminin müxtəlif pozuntuları, həmçinin ürəkdə üzvi patalogiya olmadığı halda, həyata təhlükə yaradan mədəcik aritmiyası və qəfml ölum sindromu kimi disfunksiyalar bir çox tədqiqatçılar tərəfindən aktual mövzu kimi qeyd olunmuşdur [4,9].

Son illər tədqiqatçıların marağı ürəyin kiçik anomaliyaları olan xəstələr qrupuna yönəlib ki, bu da bu qrup xəstələrin populyasiyada mühüm yer tutması ilə yanaşı onlarda ritm pozulması hallarının çox olması ilə izah olunur.

Martınov A.İ. və baş. məlumatlarına əsasən ürəyin kiçik anomaliyaları arasında ən çox təsadüf olunan mitral qapağın prolapsı və mədəciklərin anomal xordaları əhali arasında müvafiq olaraq 1,2-38% və 2,3-68% hallarda aşkar olunur [8].

Ürəyin müxtəlif kiçik anomaliyaların populyasıyada geniş yayılmasına baxmayaraq, bu hallardan əmələ gələn ağırlaşmalar və fəsadlar çox vaxt praktiki həkimlər tərəfindən nəzərə alınmır, halbuki belə xəstələrdə ürək ritminin müxtəlif pozulmaları, fiziki gərginliyə tolerantlığın azalması, kardialgiyalar kimi halların geniş yayılması haqqında çoxsaylı məlumatlar var [3,5].

Bobkowski W. et al. məlumatlarına əsasən mitral və trikuspidal qapaqların prolapsı zamanı aritmiyalar 15-90% hallarında qeyd olunur [13].

Yuxarıda deyilənləri nəzərə alaraq ürək ritminin pozulmalarının yaranma səbəblərinin, həmçinin aritmiyaların proqnozlaşdırılmasına imkan verən yeni üsulların axtarışı bütün dünyada aktual problem olaraq qalır.

Miokardın qeyri- stabilliyinin və ürək ritminin pozulmalarının yaranmasına təkan verən faktorların öyrənilməsində müəyyən proqresə baxmayaraq, bu problemin çoxsaylı aspektləri axıra qədər həll olunmamış qalır.

Miokardın elektrik qeyristabilliyinin və ürək aritmiyaların yaranma səbəblərindən biri ürək əzələsinin morfo-funksional pozulmalarıdır. Bir sıra tədqiqatçıların məlumatlarına görə ürəyin funksional vəziyyəti ilə tapılan aritmiyalar arasında olan əlaqə gözə çarpır [1].

Bununla belə ürəyin mikroanomaliyası olan xəstələrdə ürək ritminin pozulmalarının əmələ gəlmə səbəbləri bir mənalı açıqlanmır. Bundan başqa Azərbacan populyasiyasından ürəyin kiçik anomaliyaları olan məktəb yaşlı uşaqlarda ürək aritmyaların xüsusiyyətləri və onlarda miokardın qeyristabillik faktorları öyrənilməmiş qalır.

Yuxarıda göstərinləri nəzərə alaraq, işin əsas məqsədi ürəyin mikroanomaliyaları olan uşaqlarda ürəyin morfo-funksional vəziyyətinin xüsusiyyətlərinin öyrənilməsi olub.

TƏDQİQATIN MATERİAL VƏ METODLARI. Ürəyin kiçik anomaliyası 7-16 yaşlı olan 71 xəstə uşaq müayinə olunmuşdur. Bunlardan 33-çü – 6-11 yaşında (1-ci qrup), 38 məktəbli isə 12-16 yaşında 2-ci qrupu təşkil ediblər. 1-ci yaş qrupunu 17 MQP, 16 SMAX olan uşaqlar təşkil etmişlər. Böyük məktəb yaşlı uşaqlar qrupuna 21 MQP və 17 SMAX olan uşaq daxil edilmişdir. Nəzarət qrupunu eyni yaşlı 60 praktiki sağlam uşaq təşkil edib.

Ümumi klinik, anamnestik və geneoloji əlamətləri öyrənməklə yanaşı, bütün uşaqlarda antopometriya, arterial təzyiqin ölçülməsi, elektrokardioqrafiya (EKQ), exokardioqrafiya (ExoKQ) müayinə üsulları tətbiq olunmuşdur.

EKQ qeydi 12 ümumi qəbul olunmuş aparmalarda EK1T-03M2 cihazında aparılmışdır. EKQ göstəricilərində ritmin tezliyi və xüsusiyyəti, atrioventrikulyar keçiriciliyi, elektrik sistolanın uzunluğu (Q-T), qulaqcıq dişinin uzunluğu və davamiyyəti, QRS və S dişləri və s. analiz olunmuşdur.

ExoKQ müayinəsi ümumi qəbul edilmiş standart üsulu və EKQ-ın sinxron qeydi ilə SonoAse X8 (Koreya) və Philips HD11 (ABŞ) ultrasəs cihazlarında aparılmışdır. Exometrik parametrlərdən aşağıdakılar təyin olunmuşdur: sol mədəciyin son-diastolik diametri (Dd); sol

mədəciyin son-sistolik diametri (Ds); sol mədəciyin arxa divarının sistolik və diastolik qalınlığı, mədəcikarası çəpərin diastolik və sistolik qalınlığı.

Tədqiq olundu:

Ürəkdaxili və mərkəzi hemodinamikanın göstəriciləri: sol mədiyin son-diastolik (SDH) və son-sistolik (SSH) həcmi təyin olunub.

Vurğu həcmi (VH) sol mədəciyin son-diastolik və son-sistolik həcminin fərqi kimi təyin olunur.

VH-nin böyüklüyünü bilərək, qan dövranının dəqiqəlik həcminin göstəricisi (DH) və ürək indeksi (Üİ) hesablanır.

Sol mədəciyin nasos funksiyasının qovulma fraksiyası (QF, %-lə) və sol mədəciyin ön-arxa ölçülərinin sistolik qısalma faizi (%S) göstəriciləri təyin olunub.

Miokardın sol mədəciyinin yığılma funksiyasının göstəriciləri: sol mədəcik miokardının liflərinin sirkulyar yığılmasının sürəti (Vcf, s^{-1}), sol mədəciyin arxa divarının yığılmasının orta sürəti (Vor), sol mədəciyin arxa divarının yığılmasının orta normallaşmış sürəti (nVor).

Bundan başqa, miokardın oksigen tələbatını dolayı yolla əks etdirən ikiqat hasil (İH), əhəmiyyətli periferik damar müqaviməti (ƏPDM) və sol mədəciyin işi (Rsm) təyin olunub.

Yaş amilini aradan qaldırmaq məqsədi ilə ExoKQ-k parametrlərinin normallaşmış hədləri, yəni bədən səthinin (BS) nisbəti təhlil olunmuşdur.

Alınan nəticələrin statistik analizi Vilkokson-Mann-Uitni qeyri- parametrik üsulu ilə aparılmışdır (10). Bütün hallarda $p<0,05$ olduğu halda fərq dürüst hesab olunub.

TƏDQİQATIN NƏTİCƏLƏRİ. Müayinə olunmuş MQP olunmuş uşaqlarda miokardın oksigen tələbatını dolayı yolla əks etdirən İH göstəriciləri (cədvəl), sağlam uşaqlarla müqayisədə 21,38% statistik dürüst çoxdur, ($p<0,05$). SMAX olan uşaqlarda isə oksigenə olan tələbat sağlam uşaqlarla müqaisədə 16,4% çox olsa belə, alınan fərq statistik dürüst deyil, ($p>0,05$).

Cədvəl

Ürəyin kiçik anomaliyaları olan uşaqlarda miokardın və kardiohemodinamikanın vəziyyətinin müqaisəli qiymətləndirilməsi

	Sağlam	MQP	SMAX	p1	**p2**
İH	76,2125 53,9-105	92,502 53,25-144	88,709 54,9-172,8	0,05	
SDH/BS	58,4958 48,404-72,101	58,145 39,731-72,470	63,086 50,544-74,302		
SSH/BS	17,381 12,828-23,641	17,208 11,827-24,422	18,851 12,749-28,444		
Vİ	41,12 30,15-54,88	40,937 27,904-53,422	44,234 32,451-56,102		
Üİ	3,397 2,571-5,95	3,808 2,288-5,930	3,937 2,275-6,304		
%S	39,22 30,769-48,78	39,491 33,333-47,5	39,30 27,273-46,667		
QF	70,0 59,01-80,59	70,344 62,393-79,42	70,076 53,29-78,193		
Vcf	1,212 0,926-1,574	1,345 1,111-1,759	1,272 0,802-1,778	0,05	
Vor	3,0916 2,353-3,636	3,426 2,581-4,615	3,306 2,353-4,074	0,01	
nVor	0,774 0,66-1,05	0,843 0,639-1,099	0,807 0,556-1,029	0,05	
ƏPDM	20,19 10,64-28,02	19,18 12,09-28,20	18,56 10,58-33,35		
Rsm	3,437 1,487-5,813	4,277 1,761-8,747	4,133 1,975-7,294	0,05	

MQP olan xəstələrin hamısında ürəkdaxili hemodinamikanın normallaşmış göstəriciləri (SDH/BS və SSH/BS) sağlam uşaqlar qrupunun göstəricilərdən fərqlənmir. SMAX olan uşaqların yuxarıda göstərilən SDH/BS və SSH/BS orta göstəriciləri sağlam məktəblilərin sözügedən parametrlrindən, müvafiq olaraq, 7,85% və 8,46% çox olsa da, fərq statistik dürüst deyil.

MQP olan uşaqlarda mərkəzi hemodinamika parametrləri olan vurğu indeksi (Vİ) sağlam uşaqların göstəriciləri ilə eyni olsa da, ürək indeksinin (Üİ) orta mənaları nəzarət qrupun göstəricilərindən statistik dürüst olmayaraq 12,1% böyükdür ($p>0,05$). SMAX olan uşaqlarda Vİ və Üİ orta göstəriciləri sağlam məktəblilərin sözügedən parametrlərindən, müvafiq olaraq, 7,57% və 15,9% çox olsa da, statistik dürüst fərqlənmir.

Alınan nəticələr MQP və SMAX olan uşaqların kardiodinamikasının funksional imkanlarının stabil saxlanılmasını sübut edir

Yuxarıda deyilənlərin təsdiqi kimi, bütün müayinə olunmuş MQP və SMAX olan uşaqlar qruplarında ürəyin nasos funksiyasını xarakterizə edən QF və %S parametrlərində nəzarət qrupun eyni göstəriciləri ilə müqaisədə heç bir fərqin müşahidə olunmadığını, göstərmək olar.

MQP olan xəstələrdə, miokardın yığılma qabiliyətini əks etdirən Vcf, Vop və nVop, sağlamlara nisbətən, müvafiq, 10,97%, (R<0,05), 10,8% (R<0,01), və 8,91%, (R<0,05), çox olmuşdur. SMAX olan uşaqlarda miokardın kontraktilliyinin eyni parametrləri nəzarət qrupu ilə müqaisədə, müvafiq olaraq, 4,95%, 6,92% və 4,26%, (p>0,05), çox olmuşdur.

MQP və SMAX olan xəstə uşaqlarda ƏPDM göstəriciləri sağlam uşaqların eyni göstəricilərindən dürüstlüklə seçilməmişdir. Bununla belə qeyd etməliyik ki, MQP və SMAX olan xəstələrdə ƏPDM orta göstəriciləri sağlam uşaqların orta göstəricilərilə müqayisədə, müvafiq olaraq, 4,98 və 8,05% azalmışdır. Ancaq bu fərq statistik qeyri-dürüstdür.

MQP olan məktəblilərdə Rsm orta göstəriciləri nəzarət qrup ilə müqayisədə 24,44% statistik dürüst böyük, (p<0,05), SMAX olan uşaqların sözügedən göstəricisi isə 20,25% çox olsa belə, bu fərq statistik dürüst deyil, (p>0,05).

Beləliklə, müayinə olunmuş MQP və SMAX olan xəstə uşaqlar qruplarında, sağlam uşaqlarla müqayisədə, miokardın və kardiohemodinamikanın funksional vəziyyətində müəyyən dəyişikliklər izlənilir. Aşkar olunan xüsusiyyətlər dəqiqəlik həcmin artması, miokardın kontraktilliyinin güclənməsi və miokardın oksigenə olan tələbatının artması fonunda periferik damar müqavimətinin azlması ilə nəticələnmişdir. Aşkarlanan dəyişikliklər daha çox MQP olan uşaqlarda qeyd olunur. Müəyyən olunmuş dəyişikliklər bu xəstələrdə kardiohemodinamikanın vəziyyətində gərginləşməni göstərir.

ƏDƏBİYYAT

1. Абдуллаев Р.Ф. Нарушения ритма сердца и факторы риска электрической нестабильности миокарда. Баку: Маариф, 1994, 443 с

2. Блужас Ю., Радишаускас Р., Бернотене Г. и др. Распространённость основных сердечно-сосудистых заболеваний жителей Каунаса за 1983-2000 г. // Кардиология, 2005, № 7, с.54-55

3. Гнусаев С.Ф., Белозеров Ю.М., Виноградов А.Ф. Клиническое значение малых аномалий сердца у детей // Российский вестник перинатологии и педиатрии. 2006, № 4, с.20–25

4. Замотаев И.П., Лозинский Л.Г., Керимова Р.Э.. Современные представления о патогенезе, прогнозировании и лечении пароксизмальной формы мерцательной аритмии. Кардиология, 1990, № 5, с.105-109

5. Коровина Н. А., Тарасова А. А., Творогова Т. М. и др. Клиническое значение малых аномалий развития сердца у детей // Лечащий Врач, 2005, №2-4

6. Куприянова О.О., Сербин В.И., Мамедова Т.Н. и др. Возможности суточного мониторирования ЭКГ у детей при аритмии как причине синкопальных состояний // Педиатрия, 1996, № 6, с.30-33

7. Лепарский Е.А., Таточенко В.К.. Межведомственный подход в профилактике хронических неинфекционных заболеваний у детей. Педиатрия, 1989, № 12, с.5-9

8. Мартынов А.И., Степура О.Б., Остроумова О.Д. и др. Пролапс митрального клапана. Часть II. Нарушение ритма и психологический статус // Кардиология, 1998, № 2, с. 74-81

9. Сметнёв А.С., Жаринов О.И., Чубучный В.Н. Вариабельность ритма сердца, желудочковые аритмии и риск внезапной смерти // Кардиология, 1995, № 4, с.49-52

10. Стентон Гланц. Медико-биологическая статистика. – М. Практика, 1999, 459 с.

11. Харченко В.И., Какорина Е.П., Корякин М.В. и др. Смертность от основных болезней системы кровообращения в России. Аналитический обзор официальных данных Госкомстата, Минздрава России, ВОЗ и экспертных оценок по проблеме // Российский кардиол. журнал, 2005, № 1, с.5-15

12. Bigger J.T., Fleiss J.L., Kleiger R. et al. The relationship among ventricular arrhythmias, left ventricular dysfunction and mortality in the two years after myocardial infarction. Circulation, 1984

13. Bobkowski W., Siwinska A., Zachwieja J. et al. Electrolyte abnormalities and ventricular arrhythmias in children with mitral valve prolapse // Pol Merkuriusz Lek. 2001, v.11, № 62, p. 125–128

14. Murdaugh C., O′Konre R. Coronary Heart Disease in Women: Special considerations // Curr. Probl. Cardiol., 1988, v.13, № 2, p.79-156

15. Task Force on Sudden Cardiac Death of the European Society of Cardiology. Eur.Heart J., 2001, v.22 (16), p.374-450

Резюие

Особенности миокарда и кардиогемодинамики у детей с микроаномалиями сердца

З.К.Рахманов, Б.М.Халилова, Э.В.Гадимова, Г.А.Гафарлы

Целью исследования явилось изучение особенностей миокарда и кардиогемодинамики у детей с микроаномалиями. В исследование вошли 71 детей в возрасте 6-11 лет. Во время исследования выявилось, что у детей с микроаномалиями сердца присутствуют некоторые изменения в функциональных состояниях миокарда и кардиогемодинамики.

Summary
Features and cardiohemodynamics infarction in children with heart mikroanomamal
Z.K.Rahmanov, B.M.Halilova, E.V.Gadimova, G.A.Gafarly
The aim of the study was to investigate the characteristics of the myocardium and cardiohemodynamics children with mikroanomamaliyami. The study included 71 children aged 6-11 years. During the study, it was found that children with heart mikroanomamaliyami there are some changes in the functional state of the myocardium and cardiohemodynamics.

Daxil olub:27.11.2012

OVULASYON INDÜKSIYONUNDA KULLANILAN KLOMIFEN SITRAT VE GONADOTROPINLERIN UTERUSUN EPITEL, ENDOMETRIYUM VE TÜM ORGANIN DUVAR KALINLIĞINA OLAN ETKISININ ARAŞTIRILMASI VE ISTATISTIKSEL OLARAK KARŞILAŞTIRILMASI

M.M.Baghirzade
Azerbaycan Tıp Üniversitesi

Açar sözlər: klomifen sitrat, gonadotropinler, uşaqlıq, ovulyasiya
Ключевые слова: кломифенцитрат, гонадотропин, матка, овуляция
Key words: clomiphen citrate, gonadotropin, uterus, ovulation

İnsanlarda her iki cinse ait üreme organlarının esas işlevi, kadın ve erkek cins hücrelerinin üretilmesi (gametogenezis) ve üreme hormonların salgılanmasıdır (hormonogenezis). Bu işlevlerin yerine getirilebilmesi için her iki cinste de normal genetik yapı, anatomik olarak sağlam ve işlevsel hipotalamus [gonadotropin salgılatıcı hormon (GnRH) salgılanması için] ve hipofiz bezi [gonadotropik hormonların FSH ve LH' nın salgılanması için] olmalıdır. Kadın ve erkekte anatomik, fizyolojik, hormonal ve immünolojik sistemlerin tam bir bütünlük ve uyum içerisinde çalışmaması koşulunda üreme işlevinde bozulma ve infertilite olarak tanımlanan sorun ortaya çıkmaktadır İnfertilite; bir yıl süresince düzenli cinsel ilişkide bulunan çiftlerin, çocuk istemelerine ve korunma yöntemi uygulamamalarına karşın gebeliğin gerçekleşememesi olgusudur. Toplumda sağlıklı çiftlerin %10-15' inde infertilite sorunu bulunmaktadır. Kadın infertilitesinin en yaygın nedeni, ortalama %40 oranla ovulasyon bozukluğudur [1,2].

Ovulasyon bozukluğuna bağlı infertilitenin tedavisinde ovaryumlarda follikül sayısını arttırabilmek ereği ile bazı ilaçlardan yararlanılmaktadır. Klomifen sitrat (CC) ve gonadotropinler bunlardan en yaygın kullanılanlarıdır. CC östrojenik ve östrojen karşıtı özellikler içeren steroit olmayan bir ilaçtır. Ovulasyon uyarıcı etkisi östrojen karşıtı özelliği ile ilgilidir. Hipotalamustaki östrojen reseptörlerlerini baskılar ve kanda dolaşan östrojen hormonlarının GnRH salgılanması üzerindeki geri bildirim etkisini ortadan kaldırır. Gerçek östrojen düzeyi yanıltıcı olarak düşük görüldüğünden negatif geri bildirim azalır ve GnRH salınımını sağlayan nöroendokrin düzenek aktifleşir. GnRH salınımı artar ve buna koşut olarak hipofiz bezi ön lobundan aşırı miktarda LH ve FSH salgılanır. CC ayrıca hipofiz bezinin GnRH'ya karşı duyarlılığını arttırır. Endometriyuma etkisinin araştırıldığı çalışmalarda CC'ın bu organda östrojen karşıtı etki gösterdiği ve böylece östrojen-progesteron reseptörlerinde azalmaya, endometriyal bez sayısında düşüşe ve vakuolizasyonda artışa neden olduğu bildirilmiştir. Ayrıca bu değişikliklerin embriyo yitim oranını arttırdığı da saptanmıştır [3,4,5].

Gonodotropinlerden FSH ve LH, hipofiz bezi ön lobundan salgılanan ve üreme organlarının işlevlerini denetleyen hormonlardır. Bu iki hormon aynı hücrelerde oluşturularak salınırlar. FSH ovaryumlarda granüloza hücrelerinin reseptörlerine bağlanır ve preovulatuar follikülün gelişiminde önemi rol oynar. LH ovaryumlarda teka interna hücrelerindeki özgün reseptörüne bağlanır. LH'nın yarı ömrü çok kısadır. Bu nedenle ovulasyon uyarımı için hCG (İnsan koryonik gonadotropini) kullanılmaktadır. hCG ovaryumda aynı reseptörlere etki eder ve yarı ömrü uzun olduğundan uzun süreli etki sağlar [6].

hMG (İnsan menopozal gonadotropin) ovulasyon indüksiyonunda uzun süredir kullanılan üriner gonadotropindir. hMG eşit oranda 75 IU FSH ve 75 IU LH içerir. Preparattaki LH etkinliği esas olarak hCG bileşenlerinden kaynaklanmaktadır [7].

Amaç: Ovulasyon induksiyonunda kullanilan ilaçlarin endometriyum kalınlığı üzerinde çesitli etkilerinin olduğuna dair literaturde farklı bilgiler bulunmaktadır. Kalınlık değişimlerinin implantasyon ve gebelik oranını etkileyebileceği bilgiler bazı yayınlarda var. Bizim çalısmamızda amaç infertilite tedavisinde ovulasyon induksiyonu için kullanılan klomifen sitrat ve

gonadotropinlerin uygulanması sonrasında epitel, endometriyum ve uterus duvar kalınlık ölçülerinin istatistiksel olarak karşilastırmaktır.

Material ve Metod: Bu çalışmada, 36 adet, 20 haftalık, 200-250 gr ağırlığında dişi sıçanlar kullanıldı. Denekler laboratuar ortamında 3 hafta süresince 12 saat gündüz ve 12 saat gece döngüsünde ve 23±2°C' lik denetimli sıcaklıkta tutuldu. Tüm deneklerin su ve besine serbest erişimi sağlandı. Bu süre boyunca tüm deneklerden vajinal smear örnekleri alınarak 3 döngü süresince izlendi ve siklusları düzenli olan sıçanlar çalışmaya alınarak, her birinde 6'şar denek bulunan 6 grup oluşturuldu. Bu gruplara ovulasyon indüksiyon modelleri uygulandı. Grup 1: Ovulasyon indüksiyonu sağlamak için hormon uygulaması yapılan gruba ait kontrol grubu (n=6). Grup 2: Hormon uygulaması yapılan grup (n=6). Grup 3: Hormon uygulaması yapılan gruba ait gebe grubu (n=6). Grup 4: Klomifen sitrat uygulaması yapılan gruba ait kontrol grubu (n=6). Grup 5: Klomifen sitrat uygulaması yapılan grup (n=6). Grup 6: Klomifen sitrat uygulaması yapılan gruba ait gebe grubu (n=6).

3. Petros P.P. The intravaginal slingplasty operation, a miniwally invasive texnique for cure of urinary incontinence in the Female Obstet. Gynaecol.1996, p.453-461
4. Aventes, Bulut, Alabaz, Leventoglu, Anorectal B[lgenin Selim Hastaliklar.-2011
5. Ternent C.A., Bastawrous H., Morin N.A., et al. Practice parameters forte evaluation anal management of constipation // Dis Colon Rectum, 2007, v.50, p.2013-22
6. Nigro N.D. Combined therapy for cancer of the anal canal: a preliminary report // Dis Colon Rectum, 1974, v.17, p.354
7. Prasad L.M., et al Perineal proctomy, posterior rectopexy and postanal levator repair for the treatment of rectal prolapsed//Dis.ColonRectum,1986,v.29, p.547

Резюме

Методы коррекции клинических проявлений опущения тазового дна у женщин

С.С.Иманова

Мы считаем, что при синдроме опущения тазового дна в зависимости от стадии заболевания, необходимо проводить одномоментную комплексную хирургическую коррекцию. В исследовании участвовали 263 больных, у которых обнаружили опущения гениталий и пролапс прямой кишки. Все больные прошли хирургическое лечение. Им провели трансвагинально-промежностные операции. Использование сетчатых имплантантов были эффектны.

Summary

Clinical syndromes and correction methods of female descending perineum syndrome

S.S.İmanova

We believe that descending perineum synrome usually involves descending of multiple organs. The refore, the surgical correction methods are conducted in a complex manner depending on the severiy of the disease. A total of 263 patients diagnosed with genital and rectal prolaps syndrome participated in the research.All the patients underwent surgery operations. The use of modern mesh implants proved to be effective.

Daxil olub:18.10.2012

BİYANIN ƏSASINDA SEDATİV TƏSİRLİ MÜALİCƏVİ KOMPOZİSİYALARIN İŞLƏNMƏSİ.

M.N. Vəliyeva, M.H.Ağayeva
Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: biyan, sedativ preparatlar
Ключевые слова: солодка, седативные препараты
Keywords: licorice, sedatives

Son zamanlarda mərkəzi sinir sisteminin pozulmasi nəticəsində bu və digər sinir xəstəliklərinin yaranması və geniş yayılması diqqəti cəlb edir [3,7]. Bu problemlər xarici və daxili mühitin təsirlerindən əmələ gəlir və xəstəliklərin sayi artmaqdadir.

Nevrozlar bu qrup xəstəliklər içərisində ən çox yayılanıdır.Nevroz yunan sözü olub "əsəb" deməkdir.Nevroz uzun müddet ərzində davam eden xroniki streslərin nəticəsində inkişaf edir [8, 9].

Nevroz termini ilk dəfə 1776-cı ildə Şotlandiya alimi U.Qullen tərəfindən təklif edilmişdir. Xarakterik xüsusiyyetleri: psixi pozğunluq, ümumi narahatlıq, yuxu pozğunluğu, baş ağrıları,arteriyal təzyiqin yüksəlməsi və s.Nevrozun ən çox yayılan növləri aseptik nevroz,depressiv nevroz və isteriyadır [4,6]

Bu xəstəliklərin müalicəsində həkimlər xarici ölkələrin əczaçılıq şirkətlərinin vasitələri ilə yanaşı dərman bitkilərinə üstünlük verirlər [2].

Mərkəzi sinir sisteminə təsir göstərən dərman bitkiləri elmi əsaslarla aşağıdakı kimi təsnifatlaşır:

1)Mərkəzi sinir sistemini stimulə edən dərman bitkiləri .

2)Tonuslaşdırıcı dərman bitkiləri.

3)Adrenomimetik təsirli dərman bitkiləri.

4)Adoptogen və psixistimulyator təsirli dərman bitkiləri.

5)Nootrop təsirli dərman bitkiləri.

6)Neyroleptik dərman bitkiləri [11]

Fitoterapiya nevrozların müalicəsində böyük rol oynayır.(10) Bu bitkilər 2 qrupa bölünür:əsas və köməkçi.Əsas qrupa aid olan bitkilər: Pişikotu –Valeriana L., cökə-Tilia L., quşqonmaz-Filipendula ulmaria (L.), buynuzbaş –Paeonia L., damotu-Leonurus L., mayaotu-Humulus L., qaraqınıq-Origanum vulgare L. və s.

Köməkçi qrupa aid olan bitkilər:Nanə-Mentha L.,ətirli bənövşə-Viola odorata L.,yemişan-Crataegus L. xəşənbül –Melilotus Adans və s.

Məlumdur ki,müxtəlif dərman bitkilərini mərkəzi sinir sisteminin bir cox problemlerinde istifadə edirlər.Mərkəzi sinir sisteminə oyandırıcı təsir gösterenler (analeptikler):qusdurucu kök, mordovnik müxtəlif ofisinal dərman formalarinda geniş tətbiq olunur: 0.1% strixinin nitrat 1.0ampullarda, 0,2% sekurinin nitrat 1,0 ampullarda, 0,002q sekurinin nitrat tarkezibletlərdə,0,4% exinopsin nitrat 1,0 ampullarda,1% exinopsin nitrat 20ml flakonlarda.

Mərkəzi sinir sisteminə tonuslaşdiricı təsir göstərənlər çin çayı, əkilən pərpətöün.

Tərkibində adrenomimetik maddələr saxlayan bitkilər efedranın müxtəlif növləri.

Adoptogen və psixostimulə edən bitkilər manjur aralyası ,jenşen,çin limonu.

Nootrop təsirli bitkilərə jenşen,çəhrayı rodyola aiddir.

Neyroleptiklər əsəb əleyhinə və sakitləşdirici təsir göstərir.Tərkibində neyroleptik olan bitkilərə piyon ,passiflora aiddir.

Mərkəzi sinir sisteminə adi bataqlıq qurucasının otu aiddir.

Nevrozların müalicəsində fərdi bitkilərlə yanaşı kompleks bitki yığıntılarından da istifadə olunur. Ən çox istifadə olunan yığıntılardan:

1)İstiotlu nanə yarpağı-Folia Mentha piperitae L.,cökə-Tilia L.,razyana meyvələr-Fructus Mill,murdarça kökü- Radix Frangulae.

2)Aptek çobanyastığının çiçəkləri-Flores Matricaria chamomillae L.,

Qazayağı otu – Herbae Potentilla bərabər miqdarda götürülür,dəmləmə hazirlanir.

3)Dərman pişikotunun kökləri-Radix Valerianae officinalis istiotlu nanə yarpağı-Folia Mentha piperitae,zirə meyvəsi-Fructus Carum Carvi bərabər miqdarda götürülür,dəmləmə hazırlanır.

4)Aptek çobanyastığının çiçəkləri-Folia Matricaria chamomila L,istiotlu nanə yarpağı-Folia Mentha piperitaL,dərman pişikotunun kökləri-Radix Valerianae L,razyana meyvələri-Fructus Foeniculum Mill bərabər miqdarda götürülür,dəmləmə haziranır.

5)İstiotlu nanə yarpağı-Folia Mentha piperita,dərman pişikotunun kökləri-Radix Valerianae L,damotu-Leonurus quinquelobatus bərabər miqdarda götürülür,dəmləmə hazırlanır.

Sedativ təsirə malik olan bitkilərdən biri də biyandir.Tüksüz biyan və ya şirin biyan-Glycyrrhiza qlabra L(F)

"Glycyrriza" yunanca "şirin" çin dilində "qan tsa", "şirin ot" deməkdir.Bir çox ölkə tibbində ,,likoris,,adı ilə istifadə olunur.5000 ildən artıq təbabətdə işlənir. Bu dərman bitkisinin faydalılığı və zərərsizliyi haqqında bir sira elmi əsaslı məlumatlar dərc olunmuşdur.Son məlumatlara əsasən tərkibində 47-dən artıq bioloji fəal maddər təcrid olunub, o cumlədən də triterpen saponin, flavonoidlər, polisaxaridlər, kumarinlər, aşı maddələri və s. Bitkidən alınan dərman vasitələri elmi- praktiki təbabətdə iltihab əleyhinə, immunotrop, spazmolitik, bronxolitik, yarasağaldıcı, antiallergik, işlədici və limfastimuləedici təsir göstərməklə bir sıra xəstəliklərdə dərman formalarında işlənilir [1]. Əldə olunan ədəbiyyatın məlumatlarına əsaslanaraq qeyd etmək olar ki,hal-hazırda xarici ölkələrdə şirin biyanın 30-dan çox faydalı dərman preparatları yayılmaqdadır. Elmi və ənənəvi təbabətdə çılpaq biyandan alınan bəzi dərman vasitələri aşağıdakı cədvə l 1-də göstərilir.

Depresiyaları müalicə etmək üçün biyanın əsasında bir-neçə müalicəvi tərkibli yığıntı şəklində dərman formalarına aid ixtira olunmuşdur.Rusiyada antidepresan təsirli bitki mənşəli tərkib öyrənilmişdir.Patent.RU 2395293 C2. Bu patentin tərkibində jenşen və biyan eyni həcmdə götürülmüşdür [13].

Ənənəvi Çin təbabətində biyanın əsasında sedativ təsirli bitki mənşəli kompozisiya ixtira olunmuşdur : Patent 1416881

Çin alimi Çjan Çzoquan depresiyyanın müalicəsində belə bir tərkib vermişdir: jenşen, jojoba, biyan . Patent.RU 201012152 [12,15].

Onun tərəfindən müxtəlif mənşəli həyacanları aradan götürmək üçün yeni əczaçılıq tərkib işlənmişdir: biyan, jenşen jojoba. Patent.2010121520RU [15].

Cədvəl 1
Biyandan hazırlanan dərman vasitələri

№	Dərman vasitəsinin adı (azərbaycan-latın dilində)	Dərman forması	Doza	Farmakoloji təsiri
1	Akseromalt- Axeromaltun	Tablet	0,25	İltihabəleyhinə, antasid
2	Bioqastron – karbinokson Bioqastronum-karbenoksonum	Tablet	0,15-0,3	İltihabəleyhinə, Yarasağaldıcı
3	Likviriton- Likviritonum	Tablet	0,1	Spazmolitik
4	Flakarbin - Flakarbinum	Qranul		Spazmolitik
5	Qliçiram - Glycyrramum	Tablet	0,05	İmmunokorrektor,hipokoaqulyant, mineralokortikotrop, Iltihabəleyhinə
6	Qliçirrizin turşusu-Acidum Qlycyrrizinicum.	Toz	0,01-0,03	Bronxolitik,hipokoaquyaedici
7	Pektol -Pektolum	Tablet	0,1	İltihabəleyhinə,bəlğəmgətirici
8	Blanklar həbləri –Pilulae Blanklari	Həblər		Antiseptik ,iltihabəleyhinə
9	Blyaudi (Blo) arsenilə həblər-Pilulae Blyaudi cum arsenici	Həblər		Eritroporezi sitimulyaedici
10	Biyan kökünün şərbəti –Sirupi Qlycyrrhizae	Şərbət	100 ml	Bronxolitik,iltihabəleyhinə immunstimulyaedici,antiallergik
11	Biyanın quru ekstraktı-Extractum Glycyrrhizae siccum	Toz		Bəlğəmgətirici iltihabəleyhinə
12	Biyanın qati ekstraktı-Extractum-spissum	Qati maye		Bronxolitik,iltihabəleyhinə bəlğəmgətirici
13	Biyanın mürəkkəb tozu-Pulvis Glycyrrhizae compositium	Toz		İşlədici
14	Sidikqovucu yığıntı №2-Species diureticae №2	Yığıntı		Sidikqovucu
15	İşladici yığıntı-Species Laxantium	Yığıntı		İşladici
16	Babasil əleyhinə yığıntı-Species	Yığıntı		İltihabəleyhina

	antihaemoroidales			
17	Qliçramın 2% emulsiyası-Emulsionis Glycyrrami 2%	Emulsiya	100ml	Yarasağaldıcı
18	Biyanın kökündən alınan qənnadı məmulatları(konfet, pastila,marmelat)	Qənnadı məmulatları		İmmonotrop
19	Biyanın kökü-Radix Glycyrrhizae	Xırdalanmış kök		İltihabəleyhina
20	Biyan şirasi-Succus Glycyrrhizae	Şirə	100ml	Stimulyaedici
21	Biyan kökündən alınan müxtəlif alkoqolsuz içkilər	Alkoqolsuz içkilər	1000ml	Stimulyaedici
22	Viusid-Viusidum	İnterferonun induktoru	4,5q	İitihabəleyhinə

Depresiyaları və həyacanları müalicə etmək üçün biyan, jenşen, jojobanın müasir tərkibi təklif olunmuşdur:Patent.RU2010121518 [14].

Xintian L. İ. və Lin Yuynevrozları və melanxoliyaları müalicə etmək üçün biyanın əsasında çin təbabətinə aid reseptura işləmişlər[19].

Yuxarıda qeyd olunanları nəzərə alıb, Azərbaycan Tibb Universitetinin Əczacılığın texnologiyası,iqtisadiyyatı və təşkili kafedrasında bizim tərəfimizdən sedativ təsirə malik yeni tərkibli çoxkomponentli yığıntı,qranul və fitokokteylin resepturasının işlənib hazırlanma texnologiyası öyrənilmişdir.

"Herba Flora"ticarət markası ilə Azərbaycan Respublikasında satışda olan dərman bitki xammallarının standart nümunələri götürülmüşdür:

Çılpaq biyanın kökü və kökümsovu – Radix et Rhizomatis qlabra L (F), seriya №001017

Dazıotu-Hypericum perforatum,seriya N0010308, Dərman Limonotu-Melissa oficinalis,seriya N0010906,pişikotunun kökü və kokümsovu-Radix et Rhizomatis Valerianae,seriya N001553/01,damotu-Leonurus quinquelobatus,seriya N0011208,mayaotu-Humulus lupulus,seriya N0010906, əkilən nanə-Mentha piperita,seriya N002122.

Tədqiq olunan yığıntı sakitləşdirici vəiltibahəleyhinə vasitə kimi nəzərdə tutulduğu və onun fitokimyəvi tərkibi bioloji fəal maddələrlə,ocümlədən saponinlərlə,polisaxaridlərlə zəngin olduğu üçün göstərilən maddələrin maksimal dərəcədə ekstraksiya edilməsi digər texnoloji parametrlərlə yanaşı ekstragentin düzgün seçilməsingən asılıdır.Bunu müəyyən etmək üçün biz ilk növbədə yiğintının alınmasında optimal şəraitin seçilməsini öyrəndik. Optimal şəraiti öyrənmək üçün dərman vasitələrinin xırdalanma dərəcəsini,həlledici(ekstragentin)seçilməsini,temperaturu,ekstraksiya müddətini,bitki xammalinin ekstragentə nisbətini ətraflı öyrəndik və cədvəl 2-də əks etdiririk.

Cədvəl 2

Fitoyığıntının hazırlanmasında optimal texnoloji parametrlər

№	Öyrənilən parametrlər	Eksperimentin şəraiti
1	Bitki xammallarının xırdalanma dərəcəsi , mm	2.5mm – 3mm
2	Həlledici (ekstragent)	Su; su – etanol (20%)
3	Temperatur °c	30°c
4	Ekstraksiya müddəti, dəq.	45 dəq.
5	Bitki xammalının ekstragentə nisbəti	1:7

Göstərilən şəraitdə yığıntıdan 91-92% farmakoloji maddələrin ekstraksiyası mümkün olmuşdur. Alınan ekstraktdan istifadə edib, qranul dərman forması hazirlanmışdır.Əlavə olaraq fitokokteyl şəkilində dərman forması təklif olunur. İşlənib hazırlanan dərman vasitələrinin sedativ təsirləri aşkarlanmışdır.

ƏDƏBIYYAT

1. Vəliyeva M.N. Biyan və onun təbabətdə tətbiqi. Bakı, 2012, 264 s.
2. Дамиров Э.И.А., Прилипко Л.И., Шукюров Д.З., Керимов Ю.Б. Лекарственне растения Азербайджана. Баку: Маариф,1988, 319 с.
3. Болдырев А.А. Окислителъный стресс и мозг. // Соровский оброзовательный Журнал, 2001, Т.7. №4, с.21-28
4. Зенков Н.К. Оксидативный стресс. Биохимия и патологическая физиология аспектов. М. МАИК «Наука Интерпериодик», 2001,343с.
5. Закусов В.В.Противотревожный препарат-Афабозол //Журнал фармакология, 2000, с.34-38
6. Куркин Б.А.Дубишев А.Б.и др.Изучение антидепресантной активности новых препаратов на основе зверобоя / Матер.4-ой Всерос. конференции, Международным Участием Научно-методическая конференция. Воронеж, 2010, с.317-323

7. Куркин В.А. Исследования сырья и препаратов зверобоя // Журнал «Фармация», 2005, №3, с.23-25с.
8. Куркин В.А. Зверобой, инструкция и перспективы создания лекарственных средств. Самара, 2008, 127с.
9. Романенко Л.В. Современные возможности терапии тревожных расстройств в общетерапевтической практике // Журнал Фармацея, 2009, №10, 43-46с.
10. Соколов С.Я, Заможелев И.П. Справочник по лекарственным растением. М.:Медицина, 1984, с.21-81
11. Турищев С.Н. Фитотерапия. М.: Медицина, 2003, с.88-107с.
12. Улезка А.В., Платонова Ю.Р. Психотропные средства в психиатрической практике. М.: Феникс, 2007, 176с.
13. Чжан Цзогуан (CN)Патент RU 2395293C2, 2010, Санкт-Петербург.
14. Чжан Цзогуан Патент RU 2010121521, 10.01.12., Санкт-Петербург.
15. Чжан Цзогуан Патент RU 2010121518, 10.01.12.,Санкт-Петербург.
16. Чжан Цзогуан Патент RU2010121520,10.01.02., Санкт –Петербург.
17. Патент 1416881,14.05.03., Китай
18. Чжан Цзогуан(CN),Юйх-Фэнъ(TW) Патент 2395293 RU27.07.10
19. Хинтан Л.И,Линъ Юй и др. Патент 101711847 RU 26.05.10.

Резюме

Приготовление лечебных седвтивных композиций на основе солодке

М.Н.Велиева, М.Н. Агаева

В последние время широко распространены болезни центральных нервных систем. В связи с этим началось приготовление новых седативных препаратов. Препараты приготовленные на основе солодки сичтаются эффективными при лечении нервных заболеваний.

Summary

Preparation of therapeutic compositions based sedvtivnyh licorice

M.N.Veliyeva, M.N. Agayeva

In recent time, widespread disease of the central nervous system. In this regard, began preparing new sedation. Preparations made by licorice sichtayutsya effective in the treatment of nervous diseases.

Daxil olub:05.10.201

ЛИМФОГЕННЫЕ МЕТОДЫ ДЕТОКСИКАЦИИ В ЛЕЧЕНИИ ЭНДОГЕННОЙ ИНТОКСИКАЦИИ ПРИ РАСПРОСТРАНЁННОМ ПЕРИТОНИТЕ

Н.Дж. Гаджиев

Азербайджанский Медицинский Университет, г. Баку и ГУ «Институт общей и неотложной хирургии АМН Украины», г. Харьков.

Açar sözlər: generalizəolunmuş peritonit, qarın boşluğudaxili regional endolimfatik müalicə, ozon terapiyası, detoksikasiya

Ключевые слова: генерализованный перитонит, внутрибрюшной региональных терапии эндолимфатической, озонотерапия, детоксикации.

Key words: generalized peritonitis, intra-abdominal regional endolymphatic therapy, ozone therapy, detoxification.

Перитонит по-прежнему продолжает оставаться одной из наиболее сложных и до конца не решенных проблем абдоминальной хирургии. Несмотря на современные успехи хирургии, анестезиологии, внедрение в клиническую практику новых технологий, высокоэффективных антибиотиков и антибактериальных препаратов, летальность при распространённых перитонитах (РП) доходит до 40% [3,6,11].

В последние годы проблема перитонита все больше рассматривается как проблема воспаления. При воспалительных процессах брюшины в связи морфофункционального её строения скопившейся экссудат из замкнутого пространства брюшной полости в результате повышения проницаемости за короткие сроки поступает в лимфатическую систему. Нарушения лимфотока на уровне брыжейки и кишечной стенки, а также терминального лимфососудистого русла приводит к гипоксическому повреждению автономных нервных сплетений, обеспечивающих моторную функцию кишечника, в результате которого развивается атония и компартмент-синдром [4,9,10]. На фоне истощения защитно-компенсаторных резервов организма локальный воспалительный процесс вовлекая в патологический процесс другие органы становятся системным, что и определяет неблагоприятный исход. Все это является отдельным звеном одной цепи в реакции организма на воспаление вследствии микробной инфекции и лежит в основе

концепции абдоминального сепсиса [16,18]. С учетом данной концепции одним из ведущих синдромов распространённого перитонита является синдром эндогенной интоксикации (СИЭ) [13,19]. Одним из основных источников эндогенной интоксикации при РП является перитонеальный экссудат и паралитическая кишка [1,2].

Активное участие лимфатической системы в этих патологических процессах при РП общеизвестно, что явилось основой разработки лимфогенных методов лечения [5, 14]. В настоящее время лимфатическая как среда лечебного воздействия широко используется для введения антибиотиков, иммунокорректоров и других препаратов в лечении гнойно-воспалительных заболеваний. Целью лимфологической коррекции при этом является усиление лимфообразования и лимфооттока, ускорение удаления токсинов и токсических продуктов из лимфы, декомпрессия лимфатического русла и предотвращения транспорта токсических метаболитов в кровь, а также нормализация нарушенных функций лимфатических сосудов и нодулярного аппарата [13]. Эндолимфатическая терапия дает возможность проведения одновременной санации лимфатического и кровеносного русла, очага воспаления, сохранять длительную терапевтическую концентрацию вводимых препаратов благодаря их депонированию в лимфатических узлах, а также медленное, постепенное и равномерное их поступление в кровеносное русло [7, 8, 17].

Таким образом, лимфатическая система брюшной полости принимает активное участие в патологическом процессе и её состояние во многом определяет течение РП, а коррекция нарушенных функций лимфатического бассейна данного региона может значительно улучшить результаты лечения больных.

Поэтому активный поиск патогенетически обоснованных оптимальных лимфогенных способов борьбы с эндогенной интоксикацией при РП с учетом всех патогенетических звеньев является актуальным и целесообразным.

ЦЕЛЬЮ настоящей работы явилось изучение влияния регионарной интраабдоминальной эндолимфатической (РИАЭЛ) детоксикации на выраженность СЭИ при РП.

МАТЕРИАЛЫ И МЕТОДЫ ИССЛЕДОВАНИЯ. Нами проведено клиническое исследование у 160 больных с РП в возрасте от 16 до 82 лет. Наиболее частой причиной РП был острый деструктивный аппендицит, перфоративная язва желудка и двенадцатиперстной кишки, острая кишечная непроходимость неопухолевого генеза.

Тяжесть перитонита определяли по Мангеймскому перитонеальному индексу (МПИ). Также у всех больных с учетом клинических и лабораторных маркеров эндогенной интоксикации была определена степень тяжести СЭИ и атонии кишечника.

Соответственно применяемого метода лечения все больные были разделены на 3 группы:

1.Контрольная группа (n=60: МПИ-I – 17, МПИ-II – 23, МПИ-III – 20 пациентов) включала больных, лечение которым проводили традиционным методом. В комплексном лечении этих больных применяли традиционные методы санации брюшной полости – лаваж с фурацилином, физиологическим раствором и водным раствором хлоргексидина. После санации с целью профилактики послеоперационного пареза в корень брыжейки тонкой кишки вводили 100-150 мл 0,25% раствор новакаина и дренировали брюшную полость. У больных с MPİ I за исключением гнойно-фибринозным перитонитом в послеоперационном периоде перитонеальный лаваж не применяли. У больных с MPİ II и MPİ III в послеоперационном периоде проводили перитонеальный лаваж с вышеперечисленными антисептиками с добавлением антибиотиков. В большинстве случаев этим больным также была проведена назоинтестинальная интубация с энтеральным лаважом с помощью 5% глюкозы, растовром Рингера с добавлением 20 мл перекиси-водорода, а также по показанию энтеросорбция с энтеродезом или гемодезом.

2.Сравнительная группа – 43 больным (МПИ-I – 11, МПИ-II – 13, МПИ-III – 19 больных), в комплексном лечении, которых использовали местную и общую озонотерапию (ОТ). После ликвидации источника перитонита как завершающий этап санации брюшную полость промывали с 4-5л озонированным физиологическим раствором (ОФР) с концентрацией озона 4-5 мг/л. В послеоперационном периоде был продолжен перитонеальный лаваж с 400 мл ОФР с концентрацией озона 4мг/л. А также этим больным в комплексе общепринятой терапии была проведена через день внутривенная инфузия 400 мл ОФР с концентрацией озона

2,5-5 мг/л всего 5-7 сеансов. В этой группе энтеральный лаваж и детоксикация была проведена с ОФР.

3.Основная группа (n=57: МПИ-I – 17, МПИ-II – 19, МПИ-III – 21 больных) – наряду с традиционной терапией применялись РИАЭЛ ОТ в сочетании с перитонеально-энтеральной детоксикацией с ОФР. Системную эндолимфатическую санацию (СЭС) проводили по методу Дж.Н. Гаджиева (Евразийский патент № 006943 от 30.06.2006г.): после завершения основного этапа операции, путем катетеризации депульпированного мезентерального лимфоузла. С целью СЭС в течении 3-7 дней 2 раза в сутки до 50 мл ОФР вводили непосредственно в лимфатическую систему тонкого кишечника. РИАЭЛ вводили также новокаин, фраксипарин, антибиотики, метронидазол, а при атонии III степени дополнительно и миостимуляторы. Энтеральную детоксикацию проводили путем дробного введения через назоинтестинальный зонд 3 раза в сутки ОФР с концентрацией озона 3-4 мг/л в объеме 800-1500мл в течении 3-5 суток.

Основной целью РИАЭЛ терапии являются: регионарная лимфостимуляция, потенцирование дренажной и детоксирующей функции лимфатической системы, а также системный эффект.

Эффективность СЭС путем РИАЭЛ-терапии и перитонеально-энтеральной детоксикации с ОФР оценивали динамикой изменений метаболитов перекисного окисления липидов (ПОЛ) и активностью антиоксидантной защиты (АОЗ) в сыворотке крови, перитонеальном экссудате и моче [11], уровнем среднемолекулярных пептидов (СМП) в различных биосредах (сыворотка крови, перитонеальный экссудат и моча) [14], ОКА (общей концентрации альбумина), ЭКА (эффективной концентрации альбумина), ССА (связывающей способности альбумина), БОФ (белков острой фазы – С-реакивного белка, лактоферрина, ферритина), биохимических маркеров эндотоксикоза (мочевина,креатинин, остаточный азот, общий билирубин, общий белок и т.д.), также токсичности крови с помощью биосенсора D. Viridis.

Статистическая обработка полученных данных проводилась с использованием вариационной статистики и непараметрическим методом Уилкоксона-Манна-Уитни, значимыми считали различия при $p< 0,05$.




Рис. 1. Динамика изменений СМП в сыворотке крови в зависимости от метода лечения у больных при МРİ III




Рис. 2. Динамика изменения МДА в сыворотке крови у больных при различных способах лечения при MPİ II

РЕЗУЛЬТАТЫ И ИХ ОБСУЖДЕНИЯ. Выявленные изменения в изучаемых исходных клинико-лабораторных показателях при РП свидетельствовало о развитии СЭИ. Это выражалось в повышении количества лейкоцитов в периферической крови, уровня продуктов ПОЛ и СМП, токсичности крови, биохимических показателей интоксикации, снижении АОЗ организма, общего белка, ЭКА, ОКА, ССА и т.д., что являлось характерным для органной дисфункции.

В процессе лечения в группах было зарегистрировано достоверно более раннее снижение уровня СМП в сыворотке крови (рис. 1), перитонеальном экссудате с повышением элиминации токсинов в моче у больных III группы . Сравнительный анализ результатов СМП в группах показал, что в первых 2-х группах уровень его в сыворотке крови значительно превышает норму, который свидетельствует о длительном сохранении проявлений интоксикации.

При использовании лимфогенного метода снижение токсичности крови по D. Viridis было более показательным, во всех степенях MPİ РП, чем при проведении стандартной интенсивной терапии и внутривенной ОТ. Это объясняется более адекватной санацией регионарного лимфатического русла и сравнительно выгодными условиями брыжеечного лимфатического дренажа.




Рис. 3. Динамика изменений ССА в послеоперационном периоде у больных при MPİ III

Аналогичная закономерность наблюдалась и в динамике изменений показателей системы ПОЛ-АОЗ как в сыворотке крови, так и в перитонеальном экссудате и моче (рис. 2).

Системная эндолимфатическая ОТ в сочетании перитонеально-энтеральной детоксикацией медицинским озоном в послеоперационном периоде достоверно значительно повышал уровень общего белка, ОКА, ЭКА и ССА по сравнению с пациентами I и II группы (рис. 3).

Изучение содержания С-реактивного белка, лактоферрина и ферритина в крови, а также лактоферрина и ферритина в перитонеальном экссудате (диализате) при РИАЭЛ ОТ в динамике показало эффективность противовоспалительных действий медицинского озона на характер и течение воспалительных изменений в брюшной полости.

Разработанный нами метод РИАЭЛ терапии с использованием ОФР у больных с атонией

кишечника I и II степенью, а также с последующим применением миостимуляторов при параличе моторики кишечника дало возможность значительно уменьшить сроки восстановления моторно-эвакуаторной функции кишечника и сократить количество применяемых препаратов.

Таким образом, проведенные исследования показали, что РИАЭЛТ и перионеально-энтеральная санация с ОФР оказывая многоуровневое воздействие на все патогенетические звенья возникновения и дальнейшего развития эндогенной интоксикации, обеспечивает тотальную детоксикацию в очаге воспаления, интерстиции, лимфе и крови, а также значительно сокращает сроки пареза кишечника. Регионарная и системная санация лимфатической системы оказывая более выраженный и пролонгированный лечебный эффект способствует сравнительно быстрой и ранней детоксикациии, который подтверждается положительной динамикой маркеров эндогенной интоксикации в более короткие сроки, чем при традиционной терапии.

ЛИТЕРАТУРА

1. Qarayev Q.Ş., Əliyev Ş.X., Əliyev Y.Q., Həsənov M.J. Peritoneal intoksikasiya.Bakı,2008,184 s.
2. Ашрафов Р.А., Давыдов М.И. Дренирование и лаваж брюшной полости, декомпрессия и лаваж полых органов желудочно-кишесного тракта в лечении перитонита // Хирургия, 2001, № 2, с. 56-59
3. Бойко В.В., Криворучко И.А., Тесленко С.Н., Сивожелезов А.В. Распространенный гнойный перитонит. Харьков: «Прапор», 2008, 278 с.
4. Бородин Ю.И., Труфакин В.А., Любарский М.С. и др. Очерки клинической лимфологии. Новосибирск, 2001, 191 с.
5. Бородин Ю.И., Любарский М.С., Смагин А.А. и др. Патогенетические подходы к лимфокоррекции в клинике. Новосибирск, 1997, 183 с.
6. Брискин Б.С., Хачатрян Н.Н., Савченко З.И. и др. Абдоминальный сепсис, возможности антибактериальной и иммуннокорегирующей терапии // Хирургия – 2002, № 4, с. 69-74
7. Выренков Ю.Е., Шевхужев З.А., Ахундов И.Т. Лимфогенные методы терапии при воспалительных заболеваниях органов брюшной полости // Анналы хирургии, 1999, № 4, с. 74-78
8. Гаджиев Дж.Н., Тарвердиев М.Н., Гаджиев Н.Дж. Новый метод интраабдоминальной эндолимфатической озонотерапии при перитонитах // Материалы третьего международного хирургического конгресса «Научные исследования в реализации программы «Здоровье населения России» - Москва, 2008, с. 329-330
9. Гаджиев Н.Дж. Регионарное интраабдоминальное лимфотропное и эндолимфатическое лечении атонии кишечника при перитонитах. Всероссийская конференция хирургов и XVII съезд хирургов Дагестана, посв. 90-летию члена-корр. АМН СССР, проф. Р.П. Аскерханова, Махачкала-2010, с.
10. Гаджиев Н.Дж., Тагиев Э.Г. Лечение послеоперационного пареза кишечника при распространенном перитоните методом регионарной интраабдоминальной эндолимфатической терапии // Матер. Науч.конгресса «IV Международные Пироговские Чтения», Вестник Санкт-Петербургского Университета, 2010, Серия 11-Медицина, с.459
11. Гельфанд Б.Р., Гологорский В.А., Бурневия С.З. и др. Антибактериальная терапия хирургического сепсиса // Consilium medicum, 2000, № 9, с. 374-379
12. Горячковский А.М. Клиническая биохимия. Одесса: Астропринт, 1998, 608 с.
13. Любарский М.С., Смагин А.А., Морозов В.В. и др. Новые методы регионарной лимфотропной терапии в клинической практике // Бюллетень СО РАМН, 2007, № 2, с. 65-71
14. Насиров М.Я., Джамалов Ф.Г., Ахундов И.Т. и др. Основные принципы эндолимфатической антибиотикопрофилактики и терапии больных в современной абдоминальной хирургии. // Cərrahiyyə, 2005, № 1, s. 44-48
15. Николайчик В.В., Моин В.М., Кирковский В.В. и др. Способ определения «средних молекул» // Лабораторное дело, 1991, № 10, с.13-18
16. Федоров В.Д., Гостищев В.К., Ермолов А.С., Багницкая Т.Н. Современные представления о классификации перитонита и системной оценке тяжести состояния больных // Хирургия, 2000, № 4, с. 58-62
17. Шуркалин Б.К. Гнойный перитонит М.:Два Мира Прин, 2000, 224 с.
18. Bobhen J.M. Intra-abdominal sepsis.1998,440 p.
19. Shein M., Marshall J. Source control. A Guide to Management of Surgery Infection // Springer Berlin. Heidelberg. New York, 2002

Xülasə

Yayılmış peritonit zamanı endogen intoksikasiyanın müalicəsində detoksikasiyanın limfogen metodu

N.C.Hacıyev

Bu məqlədə qabarıq endogen intoksikasiya sindoromu (QİS) üçün qarın boşluğudaxili ozonlaşdırılmış fizioloji məhlul (OC) ilə regional endolimfatik (RIAEL) detoksikasiyanın müqayisəli təhlilinin aparılması məqsədilə yayılmış peritonitli (RP) 160 xəstənin müalicəsinin nəticələri öyrənilmişdir.

Xəstələr üç qrupa bölünmüşdür: I qrupa ənənəvi müalicə ilə inteqrasiya olunmuş furasallin ilə ənənəvi sanasiya aparılan 60 xəstə daxil edilmişdir. II qrupa daxil olan 43 xəstəyə standart müalicə metodları ilə yanaşı yerli və ümumi ozon terapiyası da tətbiq olunmuşdur. III qrupdan olan 57 xəstəyə ənənəvi

müalicə fonunda RIAEL, peritoneal bağırsaq detosikasiya xəstələrə tətbiq olunmuşdur. Tədqiqatlardan məlum olmuşdur ki, RİAEL terapiya və OC ilə peritoneal- bağırsaq sanitariyası gələcəkdə endogen intoksikasının yaranmasına səbəb olan bütün patogenetik bəndlərə çoxsəviyyəli təsir göstərərək iltihabi zonalarda, qanda və limfada tam intoksikasiyanı təmin edir və bağırsaq parezi vaxtını kifayət qədər azaldır.

Summary

Lymphogenous methods of detoxification in treatment of endogenous intoxication in generalized peritonitis

N.J. Hajiyev

In this article was given the results of treatment of 160 patients with generalized peritonitis (RP) with the aim of comparative study of the influence of regional intraabdominal endolymphatic (RIAEL) detoxification with ozonized saline (OS) to the expression of endogenous intoxication syndrome (EIS).

Patients were divided into three groups. In I group included 60 patients who received conventional therapy with integrated traditional peritoneal readjustment with furacillin. In group II - 43 patients, who, along with the standard complex treatment interventions used local and general ozone therapy (OT). 57 patients of group III on the background of traditional therapy were used RIAEL, in combination with peritoneal-enteric detoxication with OS.

Studies have shown that RIAEL therapy and peritoneal-enteric sanitation with OS influences multi-level impact all of the pathogenetic links with further development of endogenous intoxication, provides a total detoxification on inflammatory zone, interstitium, in lymph and blood, and significantly reduces the time of paresis of the intestine.

Daxil olub:19.11.2012

TALASEMİYALI XƏSTƏLƏRDƏ POSTTRANSFUZİON B VƏ C VİRUSU HEPATİTİ

L.A. Orucova, R.K. Tağızadə, R.Ş. Rüstəmov

B.Eyvazov adına Azərbaycan ET Hematologiya və Transfuziologiya İnstitutu

Açar sözlər: talasemiya, posttransfuzion hepatit B və C, rastgəlmə tezliyi

Ключевые слова: большая талассемия, посттрансфузионные гепатиты ВГВ и ВГС, частота встречаемости.

Key words: thalassemia major, posttranfuzion hepatitis C and B, frequency

Posttransfuzion hepatitlər problemi müasir kliniki təbabətin ən aktual problemlərindən biridir. Bu problemin aktuallığı müxtəlif populyasiyalarda posttransfuzion virus hepatitlərinin (PVH) rastgəlmə tezliyinin yüksək olması, xəstəliyin ağır kliniki gedişi və ağır fəsadlarla (sirroz, hepatokarsinoma) nəticələnməsi ilə əlaqədardır (1). Böyük talasemiyalı xəstələrin müasir müalicə taktikası müxtəlif donorlardan alınan qan komponentlərinin çoxsaylı transfuziyasına əsaslanır. Məhz, bu səbəbə görə də, xəstələrin B və C virusu (BVH, CVH) hepatitlərinə yoluxma risqi yüksəkdir.

Ədəbiyyat materiallaının analizi göstərir ki, dünyanın müxtəlif ölkələrində BVH və CVH infeksiyalarının rastgəlmə tezliyi müxtəlifdir və geniş diapozonda dəyişir. Almaniyada bu göstərici 0,6%, Fransada 1,1%, Avstraliyada 1,1% təşkil edir. CVH infeksiyasının nisbətən yüksək göstəriciləri ABŞ-da -1,8%, Yaponiyada-1,5-2,3% və İtaliyada – 2,2% qeyd olunur (2). MDB dövlərində posttransfuzion B hepatitinin rastgəlmə tezliyi bütün postrasfuzion hepatitlərin 40-50%-ni təşkil edir. Bununla yanaşı, müəyyən olunmuşdur ki, göstərilən ölkələrdə, posttransfuzion hepatitlərin mütləq sayı ilə B, C və D hepatitləri ilə xəstələnmə göstəriciləri arasında paralellik mövcuddur.

Müəyyən olunmuşdur ki, əhali arasında simptomsuz virus gəzdiricilərinin sayının çox olması və infeksiyaya yoluxmanın digər fərqli yollarının intensiv olaraq gerçəkləşməsi, BVH və CVH infeksiyasına yoluxmuş potensial qan donorlarının sayının artmasına gətirib çıxarır. ABŞ-da BVH infeksiyasına yoluxma risqi 1:205 000 nisbətindədir (3). Bu göstərici İngiltərədə 1:260 000 (4), Kanadada isə, 1:153 000 nisbətindədir(5). CVH–ə yoluxma risqi isə, hər 2-

3 milyon transfuziyadan biri ilə gerçəkləşə bilir. Çoxsaylı transfuziyalarla müalicə olunan Böyük talasemiyalı xəstələrdə isə, bu risqin dərəcəsi on dəfələrlə çoxdur.

Tədqiqat işinin MƏQSƏDI talasemiyalı xəstələrdə BVH və CVH infeksiyalarının rastgəlmə tezliyinin öyrənilməsidir.

TƏDQIQATIN MATERIALI VƏ METODLARI. Azərbaycan ET hematologiya və transfuziologiya institutunda, Respublika Klinik Uşaq xəstəxanasında müalicə alan 130 Böyük talasemiyalı (homoziqot beta-talasemiya) xəstə müayinəyə cəlb olunmuşdur. Müayinə olunan xəstə qrupunu yaşı 1-33 il arasında dəyişən və 71-i qadın və 59-i isə kişi cinsinə aid olan pasientlər təşkil etmişdir.

Müayinə olunan xəstələrdə Böyük talasemiya diaqnozu kliniki və laboratoriya müayinələri əsasında təsbit olunmuşdur. Müayinə metodlarına xəstələrin klinik geneoloji müayinəsi, qanın kliniki analizi, USM, Hb A_2- nin asetat-selluloza lentlərində elektroforez (pH=7,2) vasitəsilə təyini, Hb F miqdarının Betke üsulu ilə təyini, eritrositlərin osmotik rezistentliyinin təyini və G-6-FD fermentinin aktivliyinin təyini daxil edilmişdir.

Müayinəyə cəlb olunmuş xəstələrdə və sağlam qan donorlarında BVH və CVH yoluxmanın seroloji markerləri (HbsAg, anti CVH) immunoferment (İFA) analiz vasitəsilə, HUMAN (Almaniya) və "DRG" (ABŞ) test sistemlərindən istifadə olunmaqla, təyin olunmuşdur. Müayinələrin aparılması üçün vertikal çoxkanallı fotometrlərdən (HUMAN-Almaniya və RİDER – Finlandiya) istifadə olunmuşdur.

TƏDQIQATIN NƏTICƏLƏRI VƏ MÜZAKIRƏSI. Tədqiqatların nəticələri cədvəl 1 –də təqdim olunmuşdur. Cədvəldən göründüyü kimi, müntəzəm olaraq hemotransfuziya terapiyası (eritrosit kütləsi) alan Böyük talasemiyalı xəstələrdə BVH seroloji markerinin (HbsAg) rastgəlmə tezliyi 1,53% təşkil edir . Bu göstərici müayinə olunan qadınlarda 1,40% , kişilərdə isə, 1,69% təşkil edir. Beləliklə, BVH infeksiyasının kişilərdə rastgəlmə tezliyi qadınlarda qeyd olunan analoji göstəricidən çoxdur. Lakin, müayinə qrupları arasındakı BVH infeesiyasının yayılma göstəriciləri arasındakı fərq statistik olaraq əhəmiyyətli deyildir (P >0,05).

Cədvəl 1
BVH və CVH seroloji göstəricilərinin Böyük talasemiyalı xəstələrdə rastgəlmə tezliyi

Müayinə olunan xəstələr	HbsAg (+)		anti-CVH (+)	
	n	%	n	%
qadın (n=71)	1	1,4	21	29,57
kişi (n=59)	**1**	1,69	**17**	28,81
cəmi: (n=130)	**2**	1,53	**38**	29,23

Qeyd: müayinə qruplarında qeyd olunan göstəricilər arasındakı fərq statistik etibarlı deyildir (P>0,05)

Qeyd etmək lazımdır ki, müayinə aparılan xəstələrin yalnız 1-də HbsAg seroloji markeri ilə yanaşı anti-CVH markeri də aşkar olunmuşdur.

Cədvəl 1 göründüyü kimi, müayinə olunan talasemiyalı xəstələrdə CVH infeksiyasının rastgəlmə tezliyi BVH infeksiyasının rastgəlmə tezliyindən əhəmiyyətli dərəcədə çoxdur və 29,23% təşkil edir. Müayinə olunan qadınların 29,57%-də, kişilərin isə 28,81%-də anti-CVH markeri qeyd olunur. Kişi və qadın xəstələrin göstəriciləri arasındakı fərq etibarlı deyildir (P>0,05).

CVH infeksiyasının rastgəlmə tezliyində müşahidə olunan göstəricilərin xəstələrin yaşı və aparılan hemotransfuziyaların sayı ilə əlaqəsi cədvəl 2 və 3-də göstərilmişdir.

Cədvəl 2
Böyük talasemiyalı xəstələrin yaşından asılı olaraq anti- CVH(+) və anti-CVH (-) markerlərinin rastgəlmə tezliyi

Göstəricilər	N	anti-CVH(+)	anti-CVH(-)	P
Qadın	71	21(29,57%)	50(70,42%)	<0,05
kişi	59	17(30,35%)	42(71,18%)	<0,001
Yaş qrupları:				
<10	30	5(17,00%)	25(83,33%)	<0,001
11-17	74	22(29,72%)	52(70,27%)	<0,001

>17	26	11(42,3%)	15(57,69%)	<0,001

Cədvəl 2-də təqdim olunan məlumatlardan göründüyü kimi, çoxsaylı hemotransfuziya alan talasemiyalı qadın və kişi xəstələrdə anti-CVH seroloji markerinin rastgəlmə tezliyi müxtəlif yaş qruplarında müxtəlifdir. CVH infeksiyası 10 yaşına qədər xəstələrin 17%-də, 11-17 yaş arasında olan xəstələrin 29,72%-də rast gəlir. CVH infeksiyasına ən çox yoluxma halları (42,3%) yaşı 17-dən çox olan xəstələrdə müşahidə olunur.

CVH infeksiyasına yoluxmanın səviyyəsinin yaşı 17-dən çox olan talasemiyalı xəstələr arasında yüksək olmasını, bu xəstələrin müalicə məqsədilə aldığı hemotransfuziyaların sayının, digər yaş qruplarında olan xəstələrə nisbətən daha çox olması ilə izah etmək olar. Qeyd etmək lazımdır ki, müayinəyə cəlb olunan talasemiyalı xəstələrdə bir hemotransfuziyadan sonra növbəti hemotransfuziyaya qədər olan müddət 1-12 həftə arasında dəyişir. Yəni, hemotrasfuziyalar arasındakı interval orta hesabla 3,7 həftə təşkil edir. Hər bir talasemiyalı xəstəyə, bir ildə 10-12 müxtəlif donorlardan alınmış eritrosit kütləsi transfuziya olunur. Alınan nəticələrdən göründüyü kimi, hemotransfuziyaya olan tələbat xəstələrin yaşı artdıqca ilbəil artır. Cədvəl 3-də hemotransfuziyaların sayından asılı olaraq talasemiyalı xəstələrdə anti-CVH markerinin rastgəlmə tezliyi təqdim olunmuşdur.

Cədvəl 3

Böyük talacemiyalı xəstələdə hemotransfuziyaların sayından asılı olaraq CVH infeksiyasının rastgəlmə tezliyi

Hemotransfuziyaların sayı:	anti-CVH(+)	antiCVH(-)	P
<10	5(13,50%)	16(17,39%)	>0,05
20-50	24(63,15%)	58(65,21%)	>0,05
>50	9(23,68%)	16(17,39%)	<0,05

Beləliklə, tədqiqatların nəticələri göstərir ki, davamlı olaraq çoxsaylı hemotransfuziya terapiyası alan talasemiyalı xəstələrdə CVH infeksiyasına yoluxma göstəriciləri yüksəkdir və 29,23% təşkil edir. BVH infeksiyasının rastgəlmə tezliyinin CVH infeksiyası ilə müqayisə olunmayacaq dərəcədə az olmasını (1,53%) xəstələrin mütləq şəkildə peyvənd olunması və BVH –nin əhali arasında o qədər də, geniş (ilkin qan donorlarında 4%, təkrar qan donorlarında 0,99%) yayılmaması ilə izah etmək olar.

Ədəbiyyat materiallarının analizi göstərir ki, posttransfuzion CVH infeksiyasının rastgəlmə tezliyi talasemiyanın geniş yayıldığı ölkələrdə müxtəlif səviyyədədir. Məs., Azərbaycanla həmsərhəd olan ölkələrdən İranda 15,7-63,8% (6). Türkiyədə - 28,7% (7) təşkil edir. Pakistanda bu göstərici 35,0% (8), Hindistanda 16,0-30,0% (9), İtaliyada- 60,0% (10) və İngiltərədə -23,3% -dir (11).

Müxtəlif müəlliflər, talasemiyalı xəstələrdə CVH infeksiyasının rastgəlmə tezliyində müşahidə olunan belə müxtəlifliyi 2 əsas faktorla izah edirlər. Bu faktorlardan biri, ölkənin əhalisi arasında (eyni zamanda potensial qan donorlarında) bu infeksiyanın geniş yayılması ilə bağlıdır. Dıgər faktor isə, posttransfuzion hepatitləri aşkara çıxarmaq üçün istifadə olunan metodların həssaslığı və onların fərqli texnika ilə yerinə yetirilməsi ilə əlaqədardır. Azərbaycanda 2000-ci ilə qədər aparılan tədqiqatlarda talasemiyalı xəstələrdə CVH infeksiyasının yayılma tezliyi, xəstələrin yaşından asılı olaraq, 77-100% kimi aşkar olunmuş və 2001-ci ildən sonra kəskin şəkildə 17%-ə qədər azalması qeyd olunmuşdur (12). Analoji vəziyyət bir çox ölkələrdə də (İtaliya, İran və s.), müşahidə olunmuşdur. Bu faktlar, CVH infeksiyasına yoluxmanın müayinə olunma metodları ilə bağlılığı haqqında müəlliflərin fikirini təsdiq edir.

Alınan nəticələrin analizi göstərir ki, Azərbaycanda hemotransfuziyadan asılı talasemiyalı xəstələrdə CVH infeksiyasının rastgəlmə tezliyi ilə transfuziyaların sayı arasında paralellik mövcuddur. Hemotransfuziyaların sayı çoxaldıqca xəstələrin bu infeksiyaya yoluxma risqi də yüksəlir. Bununla yanaşı, hemotransfuziyaların sayı çoxaldıqca, orqanizmin üzv və toxumalarda dəmirin yığılıb toplanması (hemosideroz) xəstəliyin ağırlaşmasına və qara ciyərin xronik xəstəliyinin yaranmasına səbəb olur.

Beləliklə, aparılan tədqiqatlara əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, həyatı hematransfuziyadan asılı olan Böyük talasemiyalı xəstələrdə CVH infeksiyasının rastgəlmə tezliyi yüksəkdir və yeni yoluxma hallarının qarşısını alınması, donor qanı komponentlərinin mütləq şəkildə İFA və DNT diaqnoz metodları ilə yoxlanılmasını tələb edir.

ƏDƏBİYYAT

1. Голосова Т.В.,Туполева Т.А.,Сомова А.В. и др. Оценка риска передачи вирусных инфекций при

гемотрансфузиях// Вестник службы крови России, 2000, №2, с.25-52
2. Shepard C.W., Finelli L., Alter M.J. Global epidemiology of hepatitis C virus infection.Lancet infect.dis. 2005, v.5, p.558-567
3. Kleiman S.H., Kuhus M.C., Todd D.C. et al.Retrovirus epidemiology donor study. Frequency of HBV DNA derection in US blood donor testing pozitive for the presence of anti-HBC: implication for transfuzion transmission and donor screening // Transfuzion, 2003, v.46, p. 696-704
4. O'brien S.F., Fearon M.A., Yi Q.l. et al. Hepatitis B virus DNA-pozitiv, hepatitis B surface antigen-negative blood donations intercepted by antihepatitis B core antigen testing: the Canadian blood services experience // Transfuzion, 2007, v. 47, p.1809-1815
5. Soldan K., Barbara J.A., Ramsay M.E. et al. Estimation of the risk of hepatitis B virus, hepatitis C virus and human immunodeficiency virus infections donations entering the blood sapply in England. 1993-2001, Vox Sang 2003, v.84,p.274-286
6. Karimi M., Ghavinini A.A. Seroprevalence of hepatitis B, hepatitis C and HIV antibodies among multitransfuzed thalassemia children in Shiraz, Iran //J Pediatr Child Health 2001, v.37,p. 564-566
7. Canatan D., Ozsancak A., Cosan R. et al. Talasemi hastalarimizda kronik hepatit C sorunu // XXV11Ulusal hematoloji congresi, 11-13 kasim 1999,Istanbul, p.151
8. Rehman M., Lodhi Y. Prospects of future of conservative managment of thalassemia major in a developing country. //Pak J Med Sci.,2004, v. 20. P.105-107
9. Itshad M., Peter S. Spectrum of viral hepatitis in thalassemic childrenreceiving multiple blood transfuzions // Indian J Gastroenterol, 2002, v.21, p. 183-184
10. Angelucci E. Antibodies to hepatitis C virus in thalassemia.// Haematologica,1994, v. 79, p.353-355
11. Wonke B., Hoffbrand AV, Brown D. et al. Antibody to hepatitis C in multiple transfuzed patients with thalassemia major.// J Clin Pathol.,1990, v. 43, p.838-840
12. Таги-заде Р.Л. Профилактика посттрансфузионных осложнений, обусловленных групповыми антигенами эритроцитов и гемотрансмиссивными вирусными инфекциями. Дисс.докт.биол.наук, Баку, 2010, с.204-210

Резюме

Посттрансфузионные вирусные гепатиты в и с у больных талассемией

Л.А. Оруджова, Р.Л.Таги-заде, Р.Ш.Рустамов

В работе представлены результаты исследования частоты встречаемости посттрансфузионных вирусных гепатитов В (ВГВ) и С (ВГС) у больных Большой талассемией. Обследовано 130 больных в возрасте от 1 года до 33 лет (71 женщина и 59 мужчин). Выявлено, что частота ВГВ у больных Большой талассемией составляет 1,53%, а ВГС - 29,23%. Установлен параллелизм между повышением количества гемотрансфузий и частотой ВГС. С повышением числа гемотрансфузий частота ВГС у больных повышается. Полученные данные свидетельствуют о высокой частоте ВГС у больных Большой талассемией. В случае отрицательных результатов ИФА на анти –ВГС необходимо дополнительное обследование доноров крови на RNA HCV методом PCR.

Summary

Post-transfusion hepatitis B and C in patients with thalassemia

L.A. Orujova, R.L.Tagi -zadeh, R.Sh.Rustamov

The results of the study the incidence of post-transfusion hepatitis B virus (HBV) and C (HCV) in patients with thalassemia major. A total of 130 patients aged 1 to 33 years (71 women and 59 men). Revealed that the incidence of HBV in patients with thalassemia major is 1,53%, -29,23% and HCV. Set the parallelism between the increase in the number of blood transfusions and the frequency of HCV. With the increase in the number of blood transfusions in patients with HCV incidence increased. The data indicate a high incidence of HCV in patients with thalassemia major. In the case of negative results of ELISA for anti-HCV an additional examination of blood donors for RNA HCV by PCR.

Daxil olub:01.10.2012

SUBTROPİK RAYON ƏHALİSİ ARASINDA DİŞ SIRASI DEFEKTLƏRİNİN TOPOQRAFİYASI VƏ DİŞ PROTEZLƏMƏSİNƏ EHTİYACI

Ə.Ə.Bağırov

Azərbaycan Tibb Universiteti, Bakı

Açar sözlər: subtropik rayon, əhali, diş sirası defektlərin, topoqrafiya, diş protezləməsi

Ключевые слова: субтропические районы, население, дефекты зубных рядов, топография, зубные протезы

Key words: subtropical areas, population, dental defects, topography, dentures

Əhaliyə stomatoloji yardımın göstərilməsində diş və diş sırasının protezləməsi yüksək yer tutur, belə tələbat əhali arasında ikincili adentiyanın geniş yayılması ilə əlaqədardır [3,5,9,10].

Şəhər və kənd əhalisinin diş protezləməsinə ehtiyacı 44,3%-dən 53,8%-dək qeyd olunur [2].

Əhalinin diş protezləməsinə olan ehtiyacı yaşdan asılı olaraq ardıcıl surətdə artır və 56

yaşdan sonra 93,6-100% səviyyəsinə qədər yüksəlir [2,5,8,9].

Müasir epidemioloji tədqiqatlar göstərir ki, ikincili adentiyanın inkişafının etiologiyasında əsas rol yayılmış stomatoloji xəstəliklərə – karies və parodont xəstəliklərinə məxsusdur. Bu xəstəliklərin geniş yayılması bir çox amillərdən: yaşayışın coğrafi şəraitindən, təbii iqlim, qidalanma, içməli suda mikroelementlərin tərkibindən, yaş xüsusiyyətlərindən, daxili xəstəliklərin təsirindən və bir sıra başqa amillərdən asılıdır [1,4,6,7,8].

Azərbaycan Respublikasının subtropik zona şəraitində yaşayan əhalisi arasında apardığımız stomatoloji və epidemioloji tədqiqatlar zamanı biz əhali arasında ikincili adentiyanın tezliyi, topoqrafiyası və diş protezləməsinə ehtiyac səviyyəsinin öyrənilməsinə fikir vermişik.

Tədqiqatın material və metodları

Təqdim olunan tədqiqatlar Azərbaycan Respublikasının subtropik Lənkəran rayonunda aparılmış materiallara əsaslanır.

Qəbul olunmuş müasir stomatoloji metodlar vasitəsilə 790 nəfər (395 kişi və 365 qadın) karies və parodont xəstəliklərinin klinik gedişatı, tezliyi və intensivliyi öyrənilmişdir. Diş sırası qüsurları Kennedinin təsnifatı ilə müəyyənləşdirilmişdir. Əhali arasında müxtəlif növ diş protezlərinə ehtiyac səviyyəsi öyrənilmişdir.

Cədvəl 1

Lənkəran rayonunda əhali arasında dişlərin itirilmə əlamətlərinin yayılması

İtirilmiş dişlər	Mütləq əlamət	M±m, %
3 dişə qədər	82	10,4±1,1
4-5 diş	184	23,3±1,5
6-10 diş	166	21,0±1,5
11-20 diş	154	19,5±1,4
21-31 diş	108	13,6±1,3
Dişlərin tam itirilməsi	96	12,2±1,2
Cəmi	790	100

ALINAN NƏTICƏLƏR. Lənkəran rayonunda müayinə olunmuş əhali arasında 100% diş sırası defektləri aşkar olunmuşdur. Diş sırasının ikincili defektləri bilavasitə karies və onun ağırlaşmaları və parodont xəstəlikləri ilə əlaqədar olmuşdur.

Cədvəl 1-də Lənkəran rayonunda müayinə olunmuş əhali arasında dişlərin say etibarilə itirilmə tezliyi verilmişdir.

Cədvəl 1-dən göründüyü kimi, 1-3 dişin itirilməsi ilə xarakterizə olunan kiçik defektlər müayinə olunmuşların 10,4±1,1%-də, 4-5 dişin itirilməsi nəticəsində meydana gələn diş sırası defektləri isə 23,3±1,5% müayinə olunmuş şəxsdə aşkar olunmuşdur. Müayinə olunmuş əhali arasında 6-10 dişin itirilməsi 21,0±1,5%, 11-20 dişin itirilməsi isə 19,5±1,4% təşkil etmişdir. Diş sırasının böyük defektləri 21-31 dişin itirilməsi ilə xarakterizə olunaraq, müayinə olunmuşların 13,6±1,3%-də, dişlərin tam itirilməsi isə 12,2±1,2%-də müəyyən edilmişdir.

Müayinə olunan əhali arasında dişlərin sayca itirilməsi göstəricilərində kişilər və qadınlar arasında statistik dürüst fərq müşahidə olunmamışdır.

Lənkəran rayonunda müayinə olunmuş əhali arasında diş sırası defektlərinin təsnifatı cədvəl 2-də verilmişdir.

Cədvəl 2

Lənkəran rayonunda əhali arasında dişlərin hissəvi itirilmə topoqrafiyası və yayılması

Kennedi təsnifatına görə	Xəstələrin sayı	Lənkəran rayonunda müayinə olunmuşlar (M±m %), n=790
I sinif	169	21,4±1,4
II sinif	191	24,2±1,5
III sinif	289	36,5±1,7
IV sinif	141	17,9±1,4
Cəmi	790	100

Lənkəran rayonunda diş sırası defektləri arasında Kennediyə görə III sinif defektlər üstünlük təşkil etmişdir (36,5±1,74%). I və II sinif diş sırası defektləri müvafiq olaraq 21,4±1,4% və 24,2±1,5% halda müəyyən edilmişdir. Frontal nahiyənin defektləri (IV sinif) isə 17,9±1,4% halda aşkar olunmuşdur.

Cədvəl 3

Lənkəran rayonunda əhalinin müxtəlif yaş qrupları arasında diş protezləməsinə ehtiyacı

Yaş qrupları	Protezləməyə ehtiyac			
	Çıxmayan protezlərin vahidi		Çıxan protezlərin %	
	Qapaqlar	Körpüyəbənzər protezlər	Hissəvi çıxan	Tam çıxan
20-24 n=160	2,45	2,50	0	0
